## Prezidentin Hadrutun azad edilməsinin ildönümündə paylaşımı



**Prezident İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının dördüncü ildönümü münasibətilə sosial şəbəkə hesablarında video paylaşıb.**

**Paylaşımda deyilir:** "Zəfər tariximiz - Hadrutun Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Əsassız iddialar ATƏT müstəvisində

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının noyabrın 11-22-də keçiriləcək 29-cu sessiyası (COP29) yaxınlaşdıqca, anti-Azərbaycan dairələrin ölkəmiz əleyhinə sistemli fəaliyyəti də güclənir.**

Deməək olar ki, hər gün Qərb ölkələrindən ölkəmizin ünvanına yönəlmiş əsassız bəyanatlar səslənir.

*(ardı 3-cü səhifədə)*





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 222 (30626) 10 oktyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Beynəlxalq nüfuzumuz, yüksək hazırlığımız COP 29-a uğur qazandıracaq

## Prezident İlham Əliyev ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşavirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşaviri Con Podestanı qəbul edib.**

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Con Podesta COP29-la bağlı azərbaycanlı həmkarlarla çox səmərəli və məhsuldar söhbətlərin aparıldığını dedi. Qonaq Azərbaycan Prezidenti ilə COP29 barədə fikir mübadiləsi aparmaqdan məmnunluq hissi keçirdiyini vurğuladı. Con Podesta dedi ki, COP sədri qismində ölkəmizin hazırlıq üçün vaxtının az olmasına baxmayaraq, Azərbaycan heyəti tərəfindən yüksək peşəkarlıq nümayiş etdirilib. O, qarşıdan gələn COP-da İkiillik Şəffaflıq hesabatları və digər məsələlər, xüsusilə də yeni kəmiyyət maliyyə hədəfi üzrə mühüm qərarların qəbul olunmasının vacibliyini bildirdi.

*(ardı 2-ci səhifədə)*

## Çaşbaş ABŞ



Səhifə ⇨ 5

## Təzminat Azərbaycanın qanuni haqqıdır

**1988–1993-cü illərdə Ermənistanın Azərbaycana təcavüzü və müstəqil ölkənin ərazilərini işğal etməsi iki ölkə arasında münaqişəni Cənubi Qafqaz tarixinin ən faciəli səhifələrindən birinə çevirdi.**



Səhifə ⇨ 13

## Qlobal iqlim konfransının Bakı Zirvəsi



Səhifə ⇨ 10

## Azərbaycan və Çin hegemonluğa, güc siyasətinə qarşıdır



Səhifə ⇨ 6

## BMT çağdaş dünyanın tələblərindən geri qalır

Səhifə ⇨ 15

## Nikol Paşinyan – Qərbin danışan dili

### *Erməni baş nazirin köhnə-yeni sülh manipulyasiyaları*



**Hesab edirik ki, Rusiya baş nazirinin müavini Aleksey Overçukun fikirləri Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında bildirdiklərinə cavab idi. Əslində, Overçuk ölkəsinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın son zamanlar çox tez-tez dilə gətirdiyi bir fikri səsləndirib. O deyib ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdakı imzasını rəsmən geri götürməyib. Geri götürməyibsə, deməli, sənədin icrasını təmin etməlidir. Yazımız həm bu haqda, həm də Paşinyanın MDB Dövlət Başçıları Şurasının iclasında dedikləri barədədir.**

Çıxışını Azərbaycan – Ermənistan sülh prosesi ilə bağlı məqamlar üzərində quran Ermənistan baş naziri elə təsəvvür yaratdı ki, sanki İrəvanın Bakı ilə barışıq sazişini imzalaması an məsələsidir. Əlbəttə, onun mövqeyi yenilik deyil. Təkcə Nikol yox, digər erməni rəsmiləri də son zamanlar oxşar fikirlər səsləndirirlər. Görünür, Paşinyan Moskvaya ölkəsinin sülhə münasibətini bir daha ortaya qoymaq üçün yollanmışdı. Münasibətdə pozitivlik varmı, bunu yazımızın sonunda vurğulayacağıq.

Beləliklə, MDB Dövlət Başçıları Şurasının iclasının Cənubi Qafqaz məkanında vəziyyətlə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını vurğulayan N.Paşinyan mövcud kontekstdə Ermənistan ilə Azərbaycan arasında sülh prosesinin hazırkı durumu və gələcək inkişaf perspektivləri haqqında düşüncələrini bölüşüb. O deyib ki, rəhbərlik etdiyi iqtidar regionda sülhün tezliklə bərqərar olmasının və buradakı bütün ölkələrin maraqlarının nəzərə alınaraq, bölgənin sabit və proqnozlaşdırıla bilən inkişaf yoluna çıxmasının tərəfdarıdır. Bəri başdan deyək ki, Ermənistanın son zamanlardakı siyasəti Qərbin Cənubi Qafqazda hegemonluğunu təmin etməyə yönəlib. Yəni, Nikol elə başlanğıcdaca yalan danışır.

Ardınca Paşinyan Azərbaycan – Ermənistan dövlət sərhədinin delimitasiyası ilə əlaqədar görülmüş işləri sadalayıb və sərhədlərin üç hissəsinin 1991-ci ilin Alma-Ata Bəyannaməsi üzrə dəqiqləşdirildiyini diqqətə çatdıraraq vurğulayıb ki, mövcud istiqamətdə keçmiş Sovet İttifaqının respublikalararası inzibati sərhədi delimitasiya edilmiş dövlətlərarası sərhəd kimi əks olunub. Qeyd edək ki, Nikol Alma-Ata Bəyannaməsindən təsadüfən söz açmır. O, sərhədlərin digər hissələrinin müəyyənləşməsində də sənədə istinadın vacibliyinə dair subliminal mesaj verir. Mesajı nə üçün verir, məsələyə diqqət yetirəcəyik.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev ABŞ Prezidentinin Beynəlxalq İqlim Siyasəti üzrə baş müşavirini qəbul edib

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev Con Podestanın Azərbaycan tərəfi ilə yaxşı əlaqələr yaratmasını məmnunluqla qeyd etdi. COP29-un əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu tədbirin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirdi. Prezident İlham Əliyev bu konfransın keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az müddət olmasına baxmayaraq, onun yüksək səviyyədə təşkil olunması və iştirakçı ölkələr arasında konsensusun əldə edilməsi istiqamətində Azərbaycanın böyük səylər göstərdiyini dedi. Azərbaycan tərəfinin sədr olaraq ölkələr arasında körpülərin qurulmasına çalışdığını vurğulayan dövlətimizin başçısı ölkəmizin bir sıra təsisatlarda üzvlüyünün və müxtəlif dövlətlərlə yaxın əlaqələrinin olmasının COP29-da konsensusun qurulması prosesinə töhfə verəcəyinə ümidvarlığını ifadə etdi.

Söhbət zamanı Azərbaycan və ABŞ COP nümayəndə heyətləri arasında yaxşı əməkdaşlığın olduğu vurğulandı. Bakıda keçirilən COP-öncəsi tədbirin vacibliyi qeyd olundu və bu çərçivədə aparılan müzakirələrin qarşıdan gələn COP tədbirinin gündəliyinin müəyyən olunması üçün önəmi bildirildi.

Con Podesta ABŞ-ın regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı.

44 günlük Vətən müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin və onun əsasını təşkil edən beş fundamental prinsipin təşəbbüskarının məhz Azərbaycan tərəfi olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli gündəliyə aid məsələlər də müzakirə olundu.

# Dövlət başçısı Böyük Britaniya nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq enerji və iqlim üzrə naziri Keri Makkartini qəbul edib.**

COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev onun keçirilməsi ilə bağlı Azərbaycanın bir ildən də az vaxtı olmasına baxmayaraq, ölkəmizdə bu tədbirlə əlaqədar yüksək səviyyədə hazırlıq işlərinin getdiyini bildirdi.

Azərbaycanın ölkələr və beynəlxalq aləmin qlobal iştirakçıları arasında körpü qurulması işində fəal rol oynadığını deyən dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz uzun illərdir beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirir və Qoşulmama Hərəkatına uğurla sədrlik etmişdir. Bütün bunlar da COP29-un təşkili üçün yaxşı əsas yaradır.

Söhbət zamanı Azərbaycanın və Böyük Britaniyanın COP komandaları arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu, Britaniya hökumətinin gündəliyində iqlim dəyişməsinin prioritet məsələ olduğu bildirildi.

Görüşdə bərpaolunan enerji sahəsində ölkələrimiz arasında əməkdaşlığın perspektivləri, həmçinin Azərbaycanın COP-un gündəliyində duran prioritetləri və təşəbbüsləri müzakirə olundu.

Dövlətimizin başçısı Azərbaycanın bərpaolunan enerji istiqamətində həyata keçirdiyi tədbirlərə toxundu. Ölkəmizin bərpaolunan enerji potensialının artması, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkiləcək kabel xətti üzrə dördtərəfli layihə, həmçinin Mərkəzi Asiya ilə Azərbaycanı birləşdirən bərpaolunan enerji layihəsi barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı COP29-un gündəliyinin müəyyən edilməsi baxımından Bakıda keçirilən COP-öncəsi tədbirin əhəmiyyətinə toxunuldu.

# Ceyhun Bayramovun BMT Baş katibinin müavini ilə görüşü



**Oktyabrın 9-da xarici işlər naziri Ceyhun Bayramov ilə BMT Baş katibinin müavini Amina Mohammed arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan-BMT əlaqələrinin cari vəziyyəti və perspektivləri, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar hazırlıq prosesləri, Azərbaycanın COP29 Sədrliyinin prioritetləri müzakirə olunub.

Azərbaycanın çoxtərəfli diplomatiyada, eləcə də BMT təsisatlarında rolunun əhəmiyyətinə diqqət çəkən BMT Baş katibinin müavini ölkəmizin COP29-un təşkil olunması istiqamətində apardığı fəaliyyəti yüksək qiymətləndirib. Bununla yanaşı, sülh və təhlükəsizlik, yeni texnologiyalar, gələcəyin maliyyə arxitekturası kimi elementlərin də əks olunduğu Gələcəyin Sammiti zamanı qəbul edilmiş yekun sənədin vacibliyi vurğulanıb.

Nazir C.Bayramov Azərbaycanın sədrlik etdiyi COP29 çərçivəsində aparılan danışıqlar prosesi barədə ətraflı məlumat verib. Tərəflər bu istiqamətdə BMT və beynəlxalq maliyyə təsisatlarının dəstəyinin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda, COP29 Sədrliyi tərəfindən müxtəlif istiqamətlərdə irəli sürülən 14 təşəbbüsə dəstək barədə məlumat verilib.

**XQ**

# TDT-də diplomatik məsləhətləşmələr

**Ankarada Türk Dövlətləri Təşkilatının xarici işlər nazirlərinin müavinləri səviyyəsində çoxtərəfli siyasi məsləhətləşmələr keçirilib.**

Tədbirdə Azərbaycanın nümayəndə heyətinə xarici işlər nazirinin müavini Elnur Məmmədov rəhbərlik edib.

Məsləhətləşmələr zamanı TDT çərçivəsində siyasi, iqtisadi, ticarət, nəqliyyat-kommunikasiyalar, humanitar və s. istiqamətlər üzrə əməkdaşlığın gücləndirilməsinin mövcud perspektivləri və gələcək planlar, habelə təşkilatın Bişkek Sammitinin təşkilindən irəli gələn məsələlər müzakirə olunub.

**XQ**



# Azərbaycan liderinin BMT Baş katibinin birinci müavini ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da BMT Baş katibinin birinci müavini Amina Mohammedi qəbul edib.**

Amina Mohammed BMT Baş katibinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı COP çərçivəsində BMT Baş katibini Azərbaycanda məmnuniyyətlə gözlədiyini dedi.

Qonaq ölkəmizdə COP29-un təşkil olunması işində Azərbaycan Prezidentinin rəhbərliyini yüksək qiymətləndirdi. O, BMT-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında COP gündəliyinin irəli aparılması üzrə əməkdaşlıqdan məmnunluğunu ifadə etdi, Azərbaycan nümayəndə heyəti ilə yaxşı əməkdaşlığın və əlaqələrin olduğunu vurğuladı.

Amina Mohammed Gələcəyin Paktı sənədinə Azərbaycanın da qoşulmasını və onu dəstəkləməsini yüksək qiymətləndirdi. O, iqlim dəyişikliyi ilə Dayanıqlı İnkişaf Məqsədləri arasında birbaşa əlaqənin olduğunu bildirərək, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi nailiyyətləri vurğuladı.

BMT Baş katibinin birinci müavini Azərbaycanın sədrlik etdiyi COP-da əsas mövzunun maliyyə məsələsi olacağına toxunaraq, yeni kəmiyyət maliyyə hədəfi ilə əlaqədar beynəlxalq ictimaiyyət tərəfindən qarşıya yeni məqsədlərin qoyulacağına və onun müəyyənləşdiriləcəyinə ümidvarlığını ifadə etdi.

Dövlətimizin başçısı COP-a hazırlıq prosesində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) və Təşkilatın digər strukturları ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi.

Azərbaycan dövlətinin uzun illər beynəlxalq aləmdə fəal rolunu, həmçinin dünyanın qlobal iştirakçıları arasında bir körpü olduğunu məmnunluqla vurğulayan Prezident İlham Əliyev COP29-un uğurla keçəcəyinə ümidvarlığını ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı ilə fəal əməkdaşlıq həyata keçirdiyini, bir sıra Avropa ölkələri ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalandığını vurğulayaraq bildirdi ki, bütün bunlar Azərbaycanda COP29-un uğurla keçiriləcəyinə yaxşı əsas yaradır. Prezident İlham Əliyev ölkəmizin COP29-da konsensusun əldə olunması üçün səylər göstərdiyini bildirdi. Dövlətimizin başçısı "troyka" formatına toxunaraq, Azərbaycanın COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri və COP30-a ev sahibliyi edəcək Braziliya ilə fəal işlər apardığını dedi.

Görüşdə COP29-un təşkili və ölkəmizin bu mötəbər tədbirə sədrliyi ilə əlaqədar fikir mübadiləsi aparıldı. Bakıda COP-öncəsi keçirilən tədbirin önəmi qeyd edilərək, burada aparılan müzakirələrin COP29-un gündəliyinin müəyyən olunması baxımından vacibliyi vurğulandı.

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram :**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I); 2024, № 3, maddə 263) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 6.2-ci bəndində "980 700 000 (doqquz yüz səksən milyon yeddi yüz min)" sözləri "1 068 400 000 (bir milyard altmış səkkiz milyon dörd yüz min)" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsinin icrası "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanının 1.11.7.9.1-ci abzası ilə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) üçün 2024-cü ilin dövlət büdcəsindən Fonda ayrılan 87 700 000 (səksən yeddi milyon yeddi yüz min) manat hesabına təmin edilsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

**4.** Fond bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 oktyabr 2024-cü il**

# NATO nümayəndə heyəti Müdafiə Nazirliyində

**Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının baş direktoru general-leytenant Yanuş Adamçak ilə görüşüb.**



General-polkovnik K.Vəliyev NATO ilə münasibətlərin cari vəziyyətini yüksək qiymətləndirib və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbənin tarixi əhəmiyyətindən danışan Baş Qərargah rəisi hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət olunduğunu və mülki əhalinin hədəfə alınmadığını xüsusi qeyd edib.

Qonaqlar Azərbaycan–Ermənistan şərti sərhədində cari vəziyyət barədə də ətraflı məlumatlandırılıb.

**XQ**

# Ordubadda seçicilərlə görüş

**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Ordubad rayonunda olub.**

Ali Məclis sədrinin birinci müavini Ordubad 8 mərtəbəli binada Vətən müharibəsi qazisi və Çernobıl əlili üçün nəzərdə tutulan ikiotaqlı mənzillərdə, XVII əsrə aid Cümə məscidində və "Sahil" mehmanxanasının ərazisində aparılan işlərlə tanış olub.

Sonra Bəxtiyar Məmmədov rayon mərkəzindəki Rabitə evində seçiciləri qəbul dib. O, vətəndaşların müraciətlərini dinləyib, narahatlıq doğuran məsələlərin həllinə göstəriş verib. Görüşdə sakinlərlə fikir mübadiləsi aparılıb.

**XQ**



# Nikol Paşinyan – Qərbin danışan dili

**(əvvəli 1-ci səhifədə)**

Hələlik isə deyək ki, erməni baş nazir bu il avqustun 30-da Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyalarının birgə fəaliyyəti haqqında əsasnamənin imzalanmasını müsbət addım kimi dəyərləndirib. Və əlavə edib ki, Ermənistan Konstitusiya məhkəməsi əsasnamənin konstitusiyaya uyğunluğunu təsdiqləyib, ölkə parlamenti tezliklə sənədin ratifikasiyası məsələsinə baxacaq. Bütün bunlar öz yerində, erməni hökumət rəhbərinin fikirlərində bir vacib məqam var. Paşinyan bildirir ki, Ermənistan Konstitusiya məhkəməsinin qərarı ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanınması deməkdir. Tanınma Alma-Ata Bəyannaməsi əsasında Sovet Azərbaycanının bütün ərazisini nəzərdə tutur. Bu isə öz növbəsində Ermənistan konstitusiyasında Azərbaycana və ya hər hansı başqa ölkəyə qarşı ərazi iddialarının olmadığını təsdiqləyir.

Göründüyü kimi, Nikol fikirləri ilə Ermənistan Konstitusiya məhkəməsinin ölkənin Müstəqillik Bəyannaməsinin əsas qanunda yer almayan müddəalarının etibarsızlığına dair qərarına söykənir. Təbii ki, o, sözügedən qərarın manipulyasiya olduğunu söyləməz. Biz isə bunu deyirik. Birincisi, qərarda 1990-cı ildə qəbul edilmiş Müstəqillik bəyannaməsindən tamamilə imtina yoxdur. Halbuki, həmin sənəddə yer almış ərazi iddiasının da aradan qaldırılması mütləqdir. İkincisi, məhkəmə qərarı konstitusiyanın istinad mənbəyini, yəni Müstəqillik bəyannaməsini gücdən salmaq səlahiyyətində deyil. Yəni, Paşinyanın qərara söykənərək "Ermənistanın dövlət sənədlərində qonşulara qarşı ərazi iddiası yoxdur" şəklində fikir bildirməsi adekvat sayıla bilməz. Deməli, Nikolun ölkəsi ilə Azərbaycan arasında sülhün mümkünlüyünü vurğulamasında gerçək məntiq istisnadır. Çünki Azərbaycanın tələbi yerinə yetirilməmiş qalır. İndiki durumda Bakının digər maraq və mənafeləri də təmin olunmayıb ki, bu barədə də söz açacağıq.

Deməli, Paşinyanın "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsinin ən azı 80 faizinin razılaşdırılmasından söz açması mənasızdır. Onun hər iki ölkənin xarici işlər nazirləri formatında sülh müqaviləsi layihəsinin təsdiqini başa çatdırmaq üçün işlərin intensivləşdirilməsi barədə razılıq əldə olunduğunu vurğulaması da ABŞ ritorikasının məhsuludur. Yada salaq ki, belə bir açıqlama Birləşmiş Ştatların Dövlət Departamenti tərəfindən yayılıb və nazirlər Ceyhun Bayramovla Ararat Mirzoyanın BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində ABŞ-nin Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə keçirilmiş görüşündə səslənib. Sözügedən görüşün isə heç bir əməli nəticəsi olmayıb.

Əməli nəticə həm də ona görə yoxdur ki, Ermənistan sülh prosesinə kompleks yanaşmır. İrəvanın təklifi budur ki, barış sazişinin layihəsi üzrə razılaşdırılmış müddəalara əsaslanan sülh müqaviləsi imzalansın, digər məsələlər üzərində iş davam etdirilsin. Paşinyanın MDB Dövlət Başçıları Şurasının iclasında da bildirdiyi elə bu olub. Baş nazirin sözlərinə görə, istənilən halda, bütün suallara cavab verən və ikitərəfli münasibətlərin aspektlərinin hamısını tənzimləyən sülh müqaviləsi hazırlamaq mümkünsüzdür. "Üstəlik, imzalanmış və ratifikasiya olunmuş sülh müqaviləsi olduqda, digər mümkün məsələlərin həlli xeyli asanlaşacaq, çünki regionda vəziyyət fərqli olacaq", – deyən Paşinyanın yenə spekulyativ davrandığı aşkardır. Məsələn, o, əsas məsələnin Azərbaycanın və Ermənistanın bir-birinə qarşı ərazi iddialarının olmamasını təsdiqləmələrindən, gələcəkdə belə iddialarla çıxış etməyəcəklərinə dair öhdəlik götürmələrindən, güc tətbiq etməkdən və ya güc tətbiqi ilə hədələməkdən uzaq durulmasından, bir-birinin daxili işlərinə qarışmamaqdan, diplomatik münasibətlərin qurulmasından və tərəflərin üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsi üçün ikitərəfli mexanizmlərin yaradılmasıdan ibarət olduğunu vurğulayıb. Nikolun sözlərindən belə çıxıb ki, imzalanacaq sülh müqaviləsində sadaladığı müəddalar əskini tapmalıdır. Bəs fundamental məsələlər necə, onların üzərindən keçilməlidir?

Ermənistan sırf Paşinyanın vurğuladığı formatda sülh müqaviləsinin imzalanmasını istəyir ki, sənəd baza kimi təsdiqlənsin. Nəticədə, istər-istəməz, İrəvanın əvvəl üzərinə götürdüyü öhdəliklərdən imtina mümkünləşəcək. Əgər Nikolun sadaladığı prinsiplərin əsas sayıldığı sülh sazişi ərsəyə gəlsə, Ermənistan gələcəkdə həlli mühüm əhəmiyyət daşıyan məsələlərdən boyun qaçırmaq üçün hüquqi əsas yaratmış olacaq. Deməli, Paşinyan Azərbaycanın prinsiplərindəki ardıcıllığın pozulmasına nail olmağa çalışır. Nəzərə alaq ki, ölkəmiz indiyədək Ermənistanın və onun xaricdəki havadarlarının destruktiv davranışlarına qarşı güc amilini işə salaraq, mübarizə aparıb və nəticə əldə edib. Hazırkı şərtlərlə, yəni konseptual məsələlərə aydınlıq gətirilmədən sülh müqaviləsi imzalansa, ölkəmiz destruktivizmə qarşı güc tətbiqi imkanından məhrum duruma düşəcək. Onu da nəzərə alaq ki, sülh müqaviləsindən sonrakı istənilən güc tətbiqinin beynəlxalq miqyasda təcavüzkarlıq kimi qiymətləndirilmə ehtimalı daha böyükdür.

Bəli, Paşinyan ölkəmizi neytrallaşdırmağa çalışsa da, hiyləgərliyi aşkardır. Ancaq, o, bununla kifayətlənmir və Cənubi Qafqazda sabitliyin yaradılmasının digər mühüm aspekti kimi bütün nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılmasının zəruriliyindən danışır. Şübhəsiz ki, sülh müqaviləsi üzrə 80 faizlik razılaşdırmadan söz açanda, bunu nəzərdə tutmur. Çünki regional kommunikasiyaların açılması Ermənistanın anti-sülh manipulyasiyalarının tərkib hissəsidir.

Əvvəldə Rusiyanın baş nazirinin müavini A.Overçukun fikirlərini təsadüfən diqqətə çatdırmadıq. Məsələ ondadır ki, hazırda Paşinyanın üçtərəfli bəyanatda yer almış imzasını danmasındakı başlıca motiv regional nəqliyyat əlaqələri ilə bağlıdır. Nikol məsələnin reallaşması baxımından ölkəsinin "Dünyanın kəsişməsi" avantürasını ortaya atır və Moskvadakı çıxışında da ondan danışıb: "Bu layihənin mahiyyəti belədir: Ermənistan öz ərazisindən nəqliyyat vasitələrinin, yüklərin, sərnişinlərin, boru kəmərlərinin, kabel yollarının keçməsini təmin etməyə hazırdır – Gürcüstandan İrana, əks istiqamətdə və ondan kənara, Türkiyədən Azərbaycana, əks istiqamətdə və kənara. Biz Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat vasitələrinin, yüklərin, sərnişinlərin, boru kəmərlərinin, kabel marşrutlarının keçidini təmin etməyə hazırıq".



Yeri gəlmişkən, Paşinyanın imzasının yer aldığı üçtərəfli bəyanatda, daha dəqiq desək, sənədin 9-cu bəndində bildirilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Ermənistanın baş naziri deyir ki, "Ermənistan Respublikası öz ərazisindən malların, nəqliyyat vasitələrinin və insanların keçidinin təhlükəsizliyini tam təmin etməyə hazırdır. Bu, bizim istəyimizdir, öhdəliyimizdir və biz buna zəmanət veririk". Deməli, Paşinyan İrəvanın üçtərəfli bəyanatdakı öhdəliyini fərqli tərzdə interpretasiya etməklə məşğuldur ki, bunun özü də aşkar manipulyasiyadır. Ən əsası isə Nikol Moskvada bəyan edir: "Ermənistanın hər hansı formada, guya, üçüncü dövlətlərin onun suveren ərazisində təhlükəsizliyini təmin etməsi ilə razılaşdığı və ya hər hansı sənəddə bunun nəzərdə tutulduğu barədə bütün bəyanatlar, sadəcə, həqiqətə uyğun deyil. Öz ərazisində təhlükəsizliyin təmin edilməsi hər bir ölkənin suveren öhdəliyidir. Bu bizim işimizdir və biz bunu etməyə zəmanət veririk".

Bəli, Ermənistan özünün əsas öhdəliyini yerinə yetirmək istəmir. Həm diqqətə çatdırdığımız sonuncu sitat, həm də Paşinyanın "Dünyanın kəsişməsi"ndən söz açması bunun təsdiqidir. Məlumdur ki, "Dünyanın kəsişməsi" Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsünə qarşıdır. Mövcud məqam ölkəmiz tərəfindən, kifayət qədər, yaxşı dərk edilir. O da dərk edilir ki, "Dünyanın kəsişməsi" erməni avantürizmini ayaqda saxlamağa hesablanmış layihədir. Layihə Ermənistanı qlobal tranzit xabının mərkəzinə çevirməyi nəzərdə tutur. Qərb bu yolla ölkəni iqtisadi cəhətdən möhkəmləndirməyi və onun köməyi ilə istənilən an regionu təzyiq və təhdid altında saxlamaq üçün rıçaq qazanmağı düşünür. Ən əsası isə "Dünyanın kəsişməsi" Cənubi Qafqazı Rusiyanın təsirindən uzaqlaşdırmağı hədəfləyir. Ermənistan bu məram naminə alətə çevrilməyə hazırdır, Azərbaycan isə həmişəki kimi, özünün balanslı siyasətinə sadiqdir və içərisində olduğu heç bir prosesin digər dövlətə, o cümlədən Rusiyaya qarşı yönəlməsini istəmir. Ona görə də ölkəmiz üçtərəfli bəyanatın icrasının vacibliyini bildirir və erməni tərəfinin Qərbin təhriki ilə planlaşdırdığı spekulyativ yanaşmasına imkan vermir.

Əlbəttə, Azərbaycan Naxçıvana quru yolunun olmasında maraqlıdır. Ölkəmiz Ermənistanın hazırkı şərtlərlə razılaşmayacağı təqdirdə, həmin yolun İran ərazisindən keçməsini məqsədəmüvafiq sayıb. Mövcud istiqamətdə Tehranla razılıq da əldə edilib. Yeri gəlmişkən, həmin razılığı Qərb, xüsusən də ABŞ, bir növ, süngü ilə qarşılayıb. Qərbdə çox yaxşı başa düşürdülər ki, Naxçıvana quru yolunun İrandan keçməsi İrəvanın əvvəllərdə olduğu kimi, dalanda qalması ilə nəticələnəcək. Görünür, Paşinyan da bunun fərqindədir. Ona görə də MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışında məsələyə yer verib: "Bizim təkliflərimizə reaksiya verən Azərbaycan vurğulayır ki, Ermənistan regional kommunikasiyalar açmaq istəməsə, Azərbaycan İran İslam Respublikasının Naxçıvanla əlaqə yaratmaq imkanlarından yararlanacaq. Biz, əlbəttə ki, etiraz etmirik. Çünki bu, iki ölkə arasında suveren münasibətlər məsələsidir. Amma bir daha qeyd etmək istəyirəm ki, Ermənistan regional kommunikasiyaların açılmasını istəyir və biz İran İslam Respublikasının verdiyi şərtlərlə bizim ərazimizlə nəqliyyat əlaqələrini təmin etməyə hazırıq. Bundan başqa, biz qarşılıqlılıq, bərabərlik, suverenlik və tərəflərin yurisdiksiyasına hörmət prinsipləri çərçivəsində sərhəd nəzarəti prosedurlarında bəzi sadələşdirmələr etməyə hazırıq".

Bu yerdə yenidən cənab Overçukunla fikirlərinə yenidən diqqət edək. Məsələ burasındadır ki, onun da tərkibində yer aldığı Azərbaycan, Rusiya və Ermənistanın baş nazirləri müavinlərinin işçi qrupunda bir çox məsələlər, o cümlədən, Naxçıvana yoldakı nüanslar razılaşdırılmışdı. Yazımızda adını çəkdiyimiz Rusiya XİN-in rəsmi nümayəndəsi M.Zaxarova bununla əlaqədar açıqlamasında Ermənistanın yurisdiksiyasına ziyan vurmamaq şərtilə mexanizmin tətbiqinə dair ortaq məxrəcə gəlindiyini bildirmiş, son anda erməni tərəfinin prosesdən imtina etdiyini diqqətə çatdırmışdı. Zaxarovanın sözlərinə görə, Ermənistan üçtərəfli bəyanata əsasən Naxçıvana yolda təhlükəsizliyi təmin etməli olan Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçilərinin, eyni zamanda, Azərbaycan tərəfində də dayanmasına dair iddia səsləndirmişdi. Nəticədə razılaşma pozulmuşdu ki, Rusiyanın XİN rəhbəri Sergey Lavrov durumu Ermənistanın regional kommunikasiyaların açılmasını sabotaj etməsi kimi dəyərləndirmişdi. Görəsən, indi nə isə dəyişibmi?

Dəyişən yalnız bir məqam var. Söhbət Paşinyanın Naxçıvana yoldakı sərhəd nəzarətinin daha asan, yəni sadələşdirilmiş formada həyata keçirilməsinə razılıq səsləndirməsindən gedir. Ölkəmiz yolun heç bir gömrük və sərhəd nəzarəti olmadan fəaliyyətini prinsipial məqam kimi vurğulayırsa, görəsən, Nikolun haqqında söz açdığı nədir? Hər halda, ortada real hansısa məsələ yoxdur. Bir şey tam aydındır ki, Azərbaycan Ermənistanın təhlükəsizlik zəmanətinə etibar etmir və etməməkdə haqlıdır. Çünki İrəvan indiyədək heç bir səmimiyyət göstərməyib, qeyri-konstruktiv yol tutub. Zamanında İran ərazisindən Naxçıvana yol da məhz bu səbəbdən gündəmə gəlmişdi. Hərçənd, indi İslam Respublikasının yeni rəhbərliyinin mövcud istiqamətdəki mövqeyi müəyyən deyil. Görünür, Nikol məhz buna görə məsələnin üzərinə gəlir. Öz aləmində belə düşünə bilər ki, Azərbaycanın Ermənistanın şərtləri ilə razılaşmaqdan başqa çarəsi yoxdur. Amma belə ola bilməz.

Sonda ümumiləşdirmə apararaq deyək ki, N.Paşinyanın MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışı Azərbaycan və Ermənistan arasındakı sülh prosesinə qeyri-adekvat, avantürist baxışın ifadəsindən başqa bir şey deyildi. Belə manipulyativ yanaşma barış mühitinin formalaşmasını əngəlləyir. Sülhün olmamasından ən çox əziyyət çəkəcək ölkə isə Ermənistandır. Təəssüf ki, Nikol Paşinyan başda olmaqla Ermənistanın rəhbərliyində təmsil olunanlar bunu anlamır, Qərbin qlobal mövqeyinin ifadəçisi ampluasında görünməyə üstünlük verirlər. Elə Nikol da Moskvada Qərbin dili ilə danışmaqdan başqa bir şey etmədi.

**XQ-nin analitik qrupu**

# Əsassız iddialar ATƏT müstəvisində

**(əvvəli 1-ci səhifədə)**

Əslində, bu da gözlənilməz deyildi. Biz Bakıda keçirilən bütün nüfuzlu beynəlxalq tədbirlər zamanı bunun şahidi olmuşuq. Məsələn, 2012-ci ildə baş tutan "Eurovision" mahnı müsabiqəsi, 2015-ci ildə keçirilən ilk Avropa Oyunları, hər il təşkil olunan "Formula-1" yarışları... zamanı Qərbin ayrı-ayrı ölkələrindən, insan hüquqları ilə məşğul olduqlarını bəyan edən təşkilatlardan əsassız açıqlamalar eşidilib. Bütün bunlar artıq ölkəmizdə xarici təhdidlərə qarşı, necə deyərlər, immunitetin yaranmasına gətirib çıxarıb.

Qeyd etdiyimiz kimi, indi də onlar COP29-un keçirilməsini bəhanə edərək üstümüzə "hücuma" keçiblər. Bu da gözlənilən idi. Prezident İlham Əliyev hələ iyulun 20-də Şuşada keçirilən II Qlobal Media Forumunda bildirmişdi ki, bizim namizədliyimiz və evsahibliyimizlə bağlı qərar verildikdən sonra – növbəti həftə Qərb mediasında bizə qarşı hücumlar başladı: "Bu, gözlənilən bir hal idi. Bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, – həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, – onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk edirdik ki, hücumlara məruz qalacağıq. Biz, əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır. Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır".

Dövlətimizin başçısı qeyd etmişdi ki, COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirlikləri də eyni mövzuda ittihamlarla üzləşdi. Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, ölkəmiz neft və qazla zəngindir. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir, bəzən ondan daha aşağı, daha azdır, yoxsulluq beş faiz səviyyəsindədir və bəzi ölkələr bunu heç yuxusunda da görə bilməzlər. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf və məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir. Ancaq deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır, bizim COP heyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər təşkil edir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırıla bilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır.

Zaman cənab İlham Əliyevin nə qədər haqlı olduğunu bir daha sübuta yetirdi. Həqiqətən də, bu gün ölkəmizə hücumların sayı artıb. Əsassız tənqidlər, hədələr, böhtanlar üstümüzə, necə deyərlər, dolu kimi yağır. Əlbəttə, bunların hər birinə tutarlı cavablar verilir və veriləcəkdir. Amma onlar bundan nəticə çıxarmırlar. Ölkəmizə edilən hücumların gerçək səbəbi isə Prezident İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibədə bildirdiyi kimi, bizim dünya miqyasında çox böyük layları tərpətməyimizdir. Bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Biz elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilib.




Ölkəmizi qaralayan dairələrin bir qrupu bugünlərdə yenə bir araya gəlib. ATƏT-in Varşavada keçirilən İnsan Ölçüsü Konfransında yenə Qarabağ erməniləri yada düşüb, haypərəstlər onların halına acıyıb, bizim isə necə deyərlər, kölgəmizi qılınclayıblar. O Qarabağ erməniləri ki, özlərinin separatçı oyunlarının əsirinə çevrilərək 2023-cü ilin sentyabrında bölgəni tərk ediblər. Ermənistan mediasının "Beynəlxalq təşkilatlar ATƏT-in konfransında Azərbaycanın "Artsaxa qarşı cinayətlərini" təqdim ediblər" sərlövhəsi ilə tirajladığı xəbərdə deyilir ki, Demokratiyanın İnkişafı Fondu, "Freedom House" və İnsan Hüquqları üzrə Beynəlxalq Tərəfdaşlıq oktyabrın 7-də Varşavada ATƏT-in insan haqları üzrə illik konfransı çərçivəsində xüsusi tədbir təşkil ediblər. Tədbirdə Azərbaycan tərəfindən "Dağlıq Qarabağın mülki əhalisinə qarşı törədilmiş cinayətlərə" (?) dair beynəlxalq ictimaiyyətə "faktlar" təqdim ediblər. Guya, bu "faktları" yuxarıda adları çəkilən üç təşkilat "Truth Hounds", "Hüquqların Sərhədsiz Müdafiəsi", Helsinki Vətəndaş Assambleyası Vanadzor ofisi, Hüquq və Müdafiənin İnkişafı Fondu ilə birgə həyata keçirdiyi faktaraşdırıcı missiyanın nəticəsində əldə edib. Missiya Qarabağın etnik erməni əhalisinin 2020-ci ildə baş vermiş 44 günlük müharibədən 2023-cü ilin sentyabrında "məcburi köçkünə" çevrilmələrinə qədər vəziyyətlərini hərtərəfli sənədləşdiribmiş. Sözügedən missiyanın nəticəsi olaraq hazırlanan və əsas nəticələri Varşava tədbirində təqdim olunan "Dağlıq Qarabağda ermənilər niyə yoxdur?" adlı hesabatda ölkəmizin ünvanına atılan əsas böhtan budur ki, guya, Azərbaycan düşünülmüş və hesablanmış hərəkətləri ilə bölgənin erməni əhalisini məcburi yerdəyişməyə və etnik təmizləməyə məruz qoyub.

Qeyd edək ki, Varşavada keçirilən İnsan Ölçüsü Konfransı çərçivəsində oktyabrın 1-də ABŞ Dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Dafna Rand çıxış edərək, "ABŞ tərəfinin Dağlıq Qarabağda beynəlxalq humanitar hüququn və insan hüquqlarının iddia edilən pozuntularını nəzərdən keçirməkdə davam etdiyi" barədə fikirlərinin əks olunduğu bəyanat vermişdi. İndi isə mənzil-qərargahları ABŞ-də yerləşən bir qrup təşkilat xanım Randın bəyanatındakına bənzər fikirlər səsləndirirlər. Bu isə anti-Azərbaycan dairlərin bir mərkəzdən idarə olunan sistemli, koordinasiyalı hərəkət etdiyinin daha bir göstəricisidir. Böhtan xarakterli tədbirlərin ardıcıl keçirilməsi, qərəzli bəyanatların eyni gündə yayımlanması Azərbaycana qarşı son həftələrdə artan hücumların bu qurumlara nəzarət edən vahid bir mərkəz tərəfindən idarə olunduğunu sübuta yetirir. Bu sıraya Fransanı, Minsk qrupunu ləğv etməkdə hələ də maraqlı görünməyən ATƏT-i də əlavə etsək, siyahı tamamlanmış olar.

Maraqlıdır ki, Azərbaycan ərazilərinin hərbi işğalı zamanı Ermənistan tərəfindən törədilmiş bəşəriyyətə qarşı irimiqyaslı cinayətlər və azərbaycanlılara qarşı qırğınlara baxmayaraq, ABŞ tərəfi, eləcə də onun Avropadakı tərəfdaşları beynəlxalq humanitar hüququn pozulması hallarının aradan qaldırılmasının vacibliyinə yalnız indi istinad edirlər.

***(ardı 4-cü səhifədə)***



# Siyasi varislikdən siyasi liderliyə

## Yeni tarixi dövrün başlanması

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

### I HİSSƏ

### Siyasi varisliyin təntənəsi

Məlum olduğu kimi, Azərbaycanda demokratik seçki sistemi müstəqillik dövrü epoxasında formalaşmış, bu tarixi mərhələdə ölkəmizdə prezident, parlament və bələdiyyə seçkiləri həmin əsasda keçirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin 3 oktyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkəmizdə demokratik seçkinin əsl nümunəsi olmuşdur. Həmin seçkidə xalqın və dövlətin möhtəşəm birliyi və həmrəyliyi ölkəmizə qələbə qazandırmış, yeni tarixi epoxanın yaranmasının bünövrəsinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevdən sonra dövlət başçısı vəzifəsində seçkilərdə iştirak etmək və qalib gəlmək çətin və məsuliyyətli bir işi həyata keçirmək demək idi. Cənab İlham Əliyev həmin şərəfə nail olmağın və bu məsuliyyətli vəzifəni yüksək səviyyədə həyata keçirməyin əsl nümunəsini göstərmişdir. İlham Əliyevin 15 oktyabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi ilk növbədə ölkəmizdə siyasi varisliyin təmin edilməsinə şərait yaratmışdır. Xalqın bu seçimi müstəqillik dövründə ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası ilə təsbit olunmuş hüquqi-demokratik dövlət quruculuğu xəttinin uğurla davamına tam təminat vermişdir.

Azərbaycanda dövlət rəhbəri üçün çox zəruri olan yüksək keyfiyyətlərə malik olmaq baxımından Prezident İlham Əliyev əsaslı üstünlüklərə malikdir. Əvvəla, Azərbaycan siyasətçiləri arasında İlham Əliyevin əsas fərqli cəhəti və üstünlüyü onun dünyamiqyaslı görkəmli dövlət xadimi Heydər Əliyevin böyük sınaqlardan çıxmış dövlətçilik məktəbini real şəkildə keçməsi ilə əlaqədardır. Zəngin təcrübəyə malik uzaqgörən dövlət xadimi Heydər Əliyevin həm Azərbaycan Sovet Respublikasında keçdiyi şərəfli mübarizə yolunun, həm də Sovetlər İttifaqının ən yüksək idarəetmə qurumlarında– Sov. İKP MK-nın Siyasi Bürosunda və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindəki məsuliyyətli və keşməkeşli fəaliyyətinin dərslərindən öyrənmək baxımından İlham Əliyev geniş imkanlara malik olmuşdur. Bu mənada Prezident İlham Əliyev üçün əsl milli dövlətçilik, mühüm bir siyasət məktəbi olan Heydər Əliyev məktəbinin dərsləri əsas istinad mənbəyi olmuşdur.

Bundan başqa, prezident seçkiləri ərəfəsində– oktyabrın 1-də ulu öndər Hey-dər Əliyevin Azərbaycan xalqına müraciətində dünya miqyaslı böyük siyasətçinin verdiyi müdrik xarakteristika da İlham Əliyevin siyasi taleyində xüsusi əhəmiyyə-tə malik olmuşdur. Bu mənada Azərbaycan xalqına tarixi müraciətindəki müddəalar həm də görkəmli dövlət xadimi tərəfindən İlham Əliyevə verilmiş mühüm etibarnaməsidir. Azərbaycan xalqına müraciətdə ifadə olunmuş aşağıdakı mülahizələr həm 2003-cü ilin prezident seçkilərində, həm də ümumiyyətlə, İlham Əliyevin siyasi taleyində mühüm istiqamətverici rol oynamışdır: "Üzümü Sizə, həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

İkincisi isə İlham Əliyevin Azərbaycanda 2003-cü ilin prezident seçkilərinə qədər keçdiyi çətin və şərəfli yol onun bu mühüm və məsuliyyətli vəzifəyə seçilməsini təmin edən əsas amillər olmuşdur. Belə ki, 1977–1982-ci illərdə keçmiş SSRİ-də ən inkişaf etmiş ali təhsil ocaqlarından biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda yüksək təhsil alması və orada müəllim kimi dərs deməsi, dissertasiya müdafiə edərək elmi dərəcə qazanması onun dövlətçilik dünyagörüşünə yiyələnməsində özünəməxsus rol oynamışdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi 1995-2000-ci illərdə Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə bacarıqla rəhbərlik etməsi, bu mötəbər beynəlxalq qurumun sədrinin müavini seçilməsi İlham Əliyevin dünyada gedən ictimai-siyasi proseslərə, daha dərindən bələd olmasına şərait yaratmışdır.

Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti vəzifələrində respublikamızın əsas təbii sərvəti və mühüm maliyyə bazası olan neft hasilatının və gəlirlərinin daha da inkişaf etdirilməsi prosesində 1994-2003-cü illərdə yaxından iştirak etməsi də cavan siyasətçinin müstəqil dövlətin iqtisadi strategiyasının əsaslarını və perspektivlərini real şəkildə həyata keçirilməsinin əsas icraçılarından biri olmasına şərait yaratmışdır.

1997-ci ildən yerinə yetirməyə başladığı Azərbaycan Olimpiya Komitəsinin sədri vəzifəsi onun ölkə həyatının bütün sahələri ilə yaxından tanış olmasına meydan açmışdır. Yeni Azərbaycan Partiyasının sədrinin müavini olaraq, 1999-cu ildən və YAP sədrinin birinci müavini olaraq 2001-ci ildən etibarən cəmiyyətin siyasi həyatında keçdiyi şərəfli yol İlham Əliyevi müstəqil dövlətin başçısı vəzifəsinə daha da yaxınlaşdırmışdır. Nəhayət, Azərbaycan Respublikasının Baş naziri vəzifəsindəki 2003-cü ilin avqust ayından etibarən səmərəli fəaliyyəti qısamüddətli bir dövrü əhatə etsə də, onun artıq yeni tipli lider olduğunu xalqa çatdırmışdır. Keçdiyi məsuliyyətli yolun, yaşadığı ictimai-siyasi proseslərin çoxşaxəliliyinə görə dünya ölkələrinin rəhbərləri arasında İlham Əliyevlə müqayisə ediləcək lider göstərmək çətindir.

Bütün bunlara görə 15 oktyabr 2003-cü il Prezident seçkilərində Azərbaycan xalqı çətin sınaqlardan uğurla çıxaraq ümumxalq inamı qazanmış Heydər Əliyev yoluna və yeni təfəkkürə malik liderlik qabiliyyətləri ilə cəmiyyətin önündə gedən, Avropada və MDB ölkələrində kifayət qədər yaxşı tanınan, fərqli siyasətçi kimi diqqəti cəlb edən İlham Əliyevə səs vermişdir. İlk dəfə iştirak etdiyi prezident seçkilərində birinci turda 76 faiz səs toplayaraq qalib gəlməsi İlham Əliyevin ölkədə xüsusi nüfuza malik olduğunu bir daha təsdiqləmişdir. Bununla İlham Əliyev görkəmli dövlət xadimi Heydər Əliyevin layiqli siyasi varisi olduğunu isbat etmişdir.

Prezident İlham Əliyevin müstəqil dövlətimizə rəhbərliyinin birinci dövrü ilk növbədə ölkəmizdə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi və özündən əvvəl başlanmış layihələrin uğurla davam etdirilərək başa çatdırılması ilə səciyyələnmişdir. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının yenidən qurulması və müasir texnologiyalarla təmin edilməsi, habelə 1999-cü ildə Xəzər dənizində "Şahdəniz" qaz yatağının kəşf edilməsi ilə Azərbaycan zəngin neft-qaz ölkəsi kimi tanınmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft boru xəttinin və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişinin başa çatdırılması və istismara başlaması vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının uğurla davam etdirilməsinə, ölkəyə real gəlir gətirməsinə səbəb olmuşdur. Bu nəhəng layihələr "Azərbaycan üçün olduğu kimi, region dövlətləri və bütün dünya üçün də mühüm əhəmiyyətə malikdir". Bu möhtəşəm layihənin gerçəkləşdirilməsi ilə "müstəqil Azərbaycan sadəcə yeni limanlar və nəhəng rezervuarlar yox, nəticə etibarilə dost ölkələr və etibarlı müttəfiqlər də qazanmışdır… Ceyhandan cahana yola salınan ağırtonlu gəmilər və tankerlər Azərbaycanı Avropa ölkələri və ümumən dünya iqtisadiyyatı ilə üzvü surətdə bağlayır".

Prezident İlham Əliyevin adı və fəaliyyəti ilə üzvü surətdə bağlı olan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət Proqramı (2004-2008-ci illər)" haqqında qəbul edilmiş 11 fevral 2004-cü il tarixli fərmanı ilə müəyyən edilmiş kompleks vəzifələrin icra edilməsi nəticəsində regionlarda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmiş, yeni sənayeləşdirmənin əsası qoyulmuş, çoxsaylı iş yerləri açılmışdır. Qaçqınların və məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq üçün ayrı-ayrı ərazilərdə böyük qaçqın şəhərcikləri salınmışdır. Elm, təhsil, mədəniyyət, səhiyyə və idman sahələrində nəzərəçarpacaq inkişaf baş vermiş, turizmin inkişafı sahəsində mühüm addımlar atılmışdır.

Ölkənin yüksək səviyyədə idarə olunmasında və beynəlxalq arenada qazan-dığı böyük uğurlara görə 15 oktyabr 2008-ci ildə ölkəmizdə keçirilmiş prezident seçkilərində İlham Əliyev ikinci dəfə də Azərbaycan xalqının böyük etimadını qazanaraq, seçicilərin 88,77 faiz səsini əldə etməyə nail ola bilmişdir. Prezident İl-ham Əliyevin rəhbərliyi ilə 2008-2013-cü illərdə Azərbaycan Respublikasında cə-miyyət həyatının bütün sahələrində uğurla həyata keçirilən genişmiqyaslı islahatlar böyük bəhrə vermişdir. Regionların inkişaf etdirilməsinin ikinci fazası paytaxtdan kənarda yeni sənaye sahələrinin şəbəkəsinin daha da genişləndirilməsinə və qeyri-neft sektorunun, aqrar sahənin aparıcı istiqamətlərdən biri kimi prioritet istiqamətə çevrilməsinə, yeni iş yerlərinin açılmasına gətirib çıxarmışdır.

Bank işi, aqrar sektor, xidmət sferası, turizm, nəqliyyat sahələri Azərbaycanın çoxşaxəli inkişafının aparıcı istiqamətlərinə çevrilmə prosesinə qədəm qoymuşdur. Enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə böyük məsafələr qət edilmişdir. Ölkəmizin beynəlxalq nüfuzu artmış, tərəfdaşları daha da çoxalmışdır. Xüsusən, Azərbaycan Respublikasının 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçkilərdə 129 səs əvəzinə 155 səs toplayaraq qələbə qazanması beynəlxalq miqyasda əldə olunmuş böyük uğurdur.

İlham Əliyev 2013-cü ilin Prezident seçkilərinə artıq ictimai-siyasi sabitlik, şaxələndirilmiş iqtisadi inkişaf və güclü beynəlxalq nüfuza malik olmaq kimi mühüm nəticələrlə getmişdir. Prezident seçkiləri ərəfəsində Davos Dünya İqtisadi Forumu 2012-2013-cü illər üzrə Qlobal Rəqabət qabiliyyətlik İndeksinə görə Azərbaycan dünyada 46-cı, MDB məkanında isə birinci yerə çıxmışdır. Azərbaycan Respublikasında 9 oktyabr 2013-cü ildə keçirilmiş prezident seçkilərində İlham Əliyevin qazandığı 84, 54 faiz səs Müstəqil Dövlətlər Birliyi üzrə rekord göstərici idi.

Qeyd etmək lazımdır ki, 2013–2018-ci illərdə ölkəmizdə çoxvektorlu və çoxşaxəli iqtisadi-mədəni inkişafın möhkəm əsasları yaradılmışdır. Eyni zamanda, bu mərhələdə Azərbaycan Respublikasının Avropa İttifaqının Nazirlər Şurasına sədrlik etmək səlahiyyəti qazanması ölkəmizin qərbyönlü müstəqil inkişafının mühüm göstəricilərindən biri sayılmalıdır. Dünya birliyi görkəmli dövlət başçısı İlham Əliyevi həm də beynəlxalq aləmdə söz və nüfuz sahibi olan bir lider kimi qəbul etmişdir.

Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin başa çatdırılması da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsidir. Bununla ölkəmiz XXI əsrin Avropa ilə Asiyanı əlaqələndirən Dəmir İpək Yolunun əsas yaradıcılarından biri statusunu qazanmışdır.

Eyni zamanda, Azərbaycanda böyük uğurla keçirilmiş Birinci Avropa və İs-lam həmrəyliyi oyunlarının doğurduğu geniş əks-səda Avrasiya ölkələri ilə əlaqə-lərimizin daha da möhkəmləndirilməsinə xidmət etmişdir. Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2016-cı ilin "Multukulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan edilməsi və həmin istiqamətlərdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi dünya ölkələrində birlik və həmrəyliyin bərqərar olmasına ölkəmizin sanballı töhfəsidir.

Beləliklə, 2013-2018-ci illərdə Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət və həyata keçirdiyi uğurlu islahatlar nəticəsində Azərbaycan Respublikası lider dövlətlərdən biri səviyyəsinə yüksəlmişdir. Artıq İlham Əliyev dünyanın tanınmış, aparıcı ölkələrinin liderləri ilə müqayisə oluna biləcək yeni tipli və müstəqil siyasət aparan dövlət xadimi kimi qəbul edilmişdir. Bu isə Azərbaycan Respublikasında müstəqillik dövrünün İlham Əliyev epoxasının yarandığını diqqət mərkəzinə çəkmişdir. İlham Əliyev epoxası – müstəqillik tariximizin davamlı və dayanaqlı inkişafının, sürətli və hərtərəfli yüksəlişinin xüsusi mərhələsi olub, ölkəmizin sistemli şəkildə inkişafda olan və perspektivli respublika səviyyəsinə çatmasını, gələcəyə doğru inamla irəliləməsini özündə əyani surətdə ifadə edən tarixi bir dövrdür. İlham Əliyev dövrü Heydər Əliyev epoxasının uğurlu davamı və yeni inkişaf mərhələsidir.

# Əsassız iddialar ATƏT müstəvisində

**(əvvəli 3-cü səhifədə)**

Ötən 30 ilə yaxın müddətdə Ermənistanın bu kimi cinayətləri isə həm ABŞ, həm də Qərb mərkəzli beynəlxalq təşkilatlar tərəfindən tam sükutla qarşılanıb. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisindən 1 milyona yaxın insanın zorla qovulması, onların əsas insan hüquqlarının pozulması Qərbdəki dairləri maraqlandırmayıb.



**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən politoloq Yeganə Hacıyeva bildirdi ki,** Azərbaycanın ərazi bütövlüyü və suverenliyini özünün dövlət sərhədləri daxilində tam bərpa etməsinin siyasi nəticələri regional və beynəlxalq müstəvidə öz təsirini göstərməkdədir. Onun sözlərinə görə, qlobal aktorların maraqlarının bu qədər kritik kəsişdiyi Cənubi Qafqaz kimi strateji regionda bir ölkənin torpaqlarını öz gücü hesabına azad etməsi müasir tarixdə ilk dəfədir ki, baş verib. Bununla da regionun siyasi, iqtisadi və təhlükəsizlik parametrləri kəskin şəkildə dəyişib: "Cənubi Qafqaz regionundan xeyli uzaqda yerləşən bir sıra ölkələr, xüsusilə ATƏT-də söz sahibi olan ABŞ, Fransa və Kanadanın Azərbaycanın hərbi-siyasi gücü hesabına həllini tapmış keçmiş Dağlıq Qarabağ münaqişəsini "diriltmək", hər vəchlə gündəmdə saxlamaq təşəbbüslərinin səbəbi də budur. Məhz adları çəkilən ölkələr bu istiqamətdə bir sıra təşəbbüslər irəli sürür, beynəlxalq müstəvidə regional reallığı təhrif olunmuş şəkildə təqdim edirlər və sair. ABŞ, Kanada və Fransa məhz, necə deyərlər, erməni gündəliyi ilə ATƏT-də anti-Azərbaycan cəbhə formalaşdırmağa çalışırlar".

Y.Hacıyevanın sözlərinə görə, diqqətlə nəzərdən keçirdikdə bu təşəbbüslərin bir mərkəzdən idarə olunduğu və sistemli xarakter daşıdığı aydın olur. Məsələn, keçmiş separatçı rejimin nümayəndələri bu yaxınlarda ABŞ Konqresinə dəvət edilmiş, Konqresdə "Dağlıq Qarabağın süqutu"na həsr olunan yalan və təhrif olunmuş təqdimatlarla dinləmələr keçirilmişdi. Həmçinin, ABŞ və Fransa hökumət, Kanada parlament, vətəndaş cəmiyyəti səviyyəsində Qarabağdan köç etmiş ermənilərə dəstək verən çoxsaylı maddi-mənəvi təşəbbüslər irəli sürür, dünyaya "etnik təmizləməyə məruz qalaraq deportasiya edilmiş Artsax xalqı" kimi psevdoreallıq yeritməyə çalışır, beynəlxalq siyasi və insan haqları təşkilatlarında "müdafiə səddi" qurmağa çalışırlar. ABŞ qanunverici orqanı olan Nümayəndələr Palatasının üzvü, Konqresdəki erməni qrupu sədrinin müavini Adam Şiff və digər konqresmenlər tərəfindən irəli sürülən 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı" da bundan xəbər verir.

Ekspertin fikrincə, bu çərçivədə beynəlxalq QHT-lərin və medianın fəaliyyəti qətiyyən təəccüblü deyil, çünki onlar zamanında elə bu dairələr tərəfindən istinad mənbələri kimi istifadə olunmaq üçün yaradılıblar: "Məsələn, donorlarının hamısı ABŞ büdcəsindən maliyyə alan fondlar, jurnalist araşdırması ilə məşğul olan fərdi jurnalistlərin birliyi kimi təqdim edilən Korrupsiya və Mütəşəkkil Cinayətkarlığın Araşdırılması Mərkəzi (OCCRP) ABŞ Nümayəndələr Palatası və Konqresdəki erməni qrupunun dinləmə təşkil etdiyi həftədə araşdırma dərc edir. Yaxud, "Freedom House"un dərc etdiyi materiallar, keçmiş separatçı rejimin "dövlət naziri" Ruben Vardanyanın tərəfdaşı, USAID-in rəhbəri Samanta Pauer "ermənilərin Qarabağdan kütləvi köçü"nə dair bəyanatlar verir. Avropa Parlamentinin yeni seçilmiş vitse-prezidenti Natali Luazo "Dağlıq Qarabağ ermənilərinin etnik təmizlənməsi günü"nü Avropa Parlamentində qeyd etmək təşəbbüsü ilə çıxış edir. Bütün bunlar eyni prosesin müxtəlif səhnələridir".

Müsahibimiz bildirdi ki, ümumiyyətlə, son onilliklərdə beynəlxalq müstəvidə insan haqları təşkilatları, onların rolu və mövqeyi ətrafında müzakirələrin möhkəmləndirdiyi bir fikir var: Sifarişli fəaliyyət göstərən riyakar təsisatlar! Belə təşkilatların mahiyyəti haqqında ən dürüst fikri elə ABŞ-nin özünün BMT-dəki keçmiş səfiri Nikki Haley zamanında BMT tribunasından səsləndirmişdi. O, insan haqları təşkilatlarını riyakarlıqda günahlandıraraq, onları dünyada sülhə, ədalətə və ya insan haqlarının qorunmasına deyil, ancaq özünə xidmət edən və pulla hərəkətə gələn təsisatlar adlandırmışdı. Bu mənada onların hazırkı mövqeyi ilə bağlı çox da təəccüblənməyə dəyməz...

***Səxavət HƏMİD***
***XQ***

**İnsan haqqı deyəndə güclü olur. Doğruluğuna əminlik sənə qarşındakının kimliyindən asılı olmayaraq əlavə qüvvət verir. Əksinə, haqqı əyən, hamının gözü qarşısında tərsi avanda çevirən nə yekəlikdə olur-olsun, kiçilir, cılızlaşır.**



# Çaşbaş ABŞ

**Rafael HÜSEYNOV,**
**Milli Məclisin sədr müavini, akademik**

Bu, xalqının təcavüz acılarını yaşamış övladları ilə Fateh Prezident İlham Əliyevin işğalçının xarabazara çevirdiyi, indi yaralarına məlhəm qoyulan, dirçəlməyə başlayan Cəbrayıldakı görüşündə qəlbinin bütün səmimiyyəti ilə onlara və bütün dünyaya söylədikləridir. Apardığı mübarizənin, gördüyü işin böyük həqiqətinə əmin olanda insan bunca ötkəm, bunca səmimi, bunca haqlı ola bilir: "Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir. Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq".

Bu, millətini və dövlətini sevən sadiq Öndərin Vətəni və Gələcək qarşısında həm doğruçu hesabatı, həm də təcrübələrə söykənərək etdiyi adil öyüdüdür!

Əslində Azərbaycana qarşı Amerika Birləşmiş Ştatlarından əsən arzuolunmaz küləklərin mahiyyətinə varanda və bizim bu dövlətlə münasibətlərimizdə həmişə gözlədiyimiz etibarlılıq xəttinin müqabilində onların dönüklüklərini müqayisə edəndə elə gərək Prezident İlham Əliyevin hələ yumşaq ifadə etdiyi sözlə biz də ona "nankor" deyəydik.

Artıq 33-cü ildönümünü bayram etməyin astanasında olduğumuz müstəqillik dönəminin çətin və mübarizəli yollarında Azərbaycan dövlətinin sükanı arxasında olmuş unudulmaz ulu öndər Heydər Əliyev



də, Fateh Prezident İlham Əliyev də müttəfiqlik, dostluq münasibətləri qurduğumuz dövlətlərin hər biri ilə, ilk növbədə isə Amerika Birləşmiş Ştatları ilə daim mərd, dürüst, təmiz, riyasız siyasət aparmışlar. Hətta bəzən bizim ölçülü-biçili siyasətimiz və etibarlılığımıza rəğmən əks tərəfdən umulmaz addımlar atılsa da, Azərbaycan səbir və təmkin göstərib, "o yanılır yanılır, mən niyə düz yolumdan və məramımdan əl çəkim" deyə doğru yolundan yayınmayıb. Ancaq istər iki insan, istərsə də dövlətlər arasındakı münasibətlərdə sədaqətli davranıb əvəzində dönüklüklərlə tuş gələndə sadəcə təəssüflənmirsən, mütləq nəticə çıxarırsan, xüsusilə qarşı tərəfin yöndəmsiz hərəkətləri dəfələrlə təkrarlananda "mərd", "dürüst", "təmiz", "riyasız" kəlmələrini bu sözlərə inkar şəkilçiləri əvəz edərək işlətməli olursan.

Azərbaycan dövləti də, Azərbaycan xalqı da özünü demokratiya beşiyi, haqq-ədalətin sipəri elan etmiş ABŞ-yə bizdən məsafəcə nə qədər uzaqda yerləşsə də, həmişə yaxın kimi baxıb, bu superdövlətin elan ediləni uyğun olaraq həqiqətin yanında olacağına ümid bəsləyib.

Tarix Amerika prezidenti Avraam Linkolnun hələ XIX yüzilin ortalarında söylədiyini unutmayıb ki, xalqın bir hissəsini daim, bütün xalqı müəyyən müddət aldatmaq mümkündür, ancaq bütöv xalqı həmişə aldatmaq olmaz.

Azərbaycan xalqı erməniçiliyin işğalına uğradığı ilk vaxtlardan ABŞ-yə tərəzinin əyilmiş gözünü düzəldəcək münsif kimi inandı və ümid bəslədi. Səbəbsiz deyil ki, uzun illər boyu Qarabağ düyününü çözməkdə vasitəçi olmaqçün yaradılmış ATƏT-in Minsk qrupunda ABŞ həmsədr idi. Azərbaycan xalqı bunu görürdü, ABŞ-yə ümid bəsləyir və inanırdı, ancaq ona da şahid idi ki, guya münsif olmalı, tərəf saxlamamalı bu dövlət 1992-ci ildə Ermənistan torpaqlarımızı zəbt etmiş olduğu əsnada, o boyda Naxçıvanımızı blokadada saxladığı, oralara nəinki yerdən, göydən də yolumuzu illərcə qapadığı halda təcavüzkar Ermənistanı yox, bizi tam haqsız və heç bir əsas olmadan Ermənistanı blokadada saxlamaqda ittiham edərək sanksiyaya məruz qoyur.

Xalq bunu da görürdü ki, ABŞ-nin Azərbaycana işi düşəndə, 2001-ci ildə yüklərini hava, quru və dəniz yolu ilə ərazimizdən Əfqanıstana tranzitlə daşımalı olduğu vaxtda həmin qondarma sanksiyanı hər il öz qərarı ilə aradan qaldırır, fəqət qatmaqarışıq siyasətin qəliz fəndlərindən bixəbər olsa da, Azərbaycan xalqı bunu da görürdü ki, quyruq qapı arasından çıxandan – Birləşmiş Ştatlar Əfqanıstanda uğursuzluğa düçar olaraq şələ-küləsini yığıb oradan qaçandan sonra bizə qarşı köhnə qəlp sanksiyaları yenə bərpa etdi.

Xalqımız yaxşılığa yamanlıq edənə, ondan kömək görüb sonra arxa çevirənə özünəxas birbaşalıqla "nankor", "ayağısürüşkən" deyib və bunu ciddi əxlaqi qüsur sayıb. Əxlaqsa elə dəyərdir ki, o həm adamda, həm dövlətdə gərək həmişə var ola! Adamın adam əxlaqı var, dövlətin dövlət əxlaqı.

Azərbaycan 2020-ci ilin noyabrında müasir tarixindəki ən ağır müşkülü həll etdi, otuz ilə yaxın müddətdə Ermənistan və ona havadarlıq edən mənhus qüvvələrin işğalı altında olan torpaqlarını azad etdi, dünyanı heyrətdə qoyan Zəfərini çaldı.

Bu Qələbəsini Azərbaycan onillərcə münsif olmaq vəzifəsi daşımış, elçiləri bu tərəflərə səmərəsiz yerə hey gəlib-getmiş dövlətlərin və beynəlxalq təşkilatların heç bir köməyi olmadan, öz əzmi, öz gücü, öz iradəsi ilə qazandı. O münsif olmalılarsa (onların cərgəsində elə həm də bu ABŞ var) əksinə, haqqın təntənəsinə çalışmaqdansa, illərcə bizi işğalla barışmağa, itirilmiş ərazilərimizin daha geri qayıtmayacağına alışmağa sövq etdilər.

Azərbaycan qadir dövlət olduğunu, bu xalqın ədalətsizlik qarşısında heç vaxt əyilməyəcəyini dünyaya sübut etdi, torpaqlarını düşmən tapdağından xilas etməklə, həm də dünyanın eyni ağrıları yaşayan neçə xalqına ümid bəxş etdi ki, xalq və dövlət vəhdətdə olanda, millət və dövlət mənliyini qorumağı bacaranda ən ali məqsədlərə də yetişir.

Azərbaycan müstəsna Zəfərini çaldı və dünənəcən münsifliyini iddia edən, dildə guya münaqişənin həllini istəyənlər indi başqa hava çalmağa başladılar.

Azərbaycanın, ya digər ölkələrin hansısa məngənələrdə çırpınaraq onlardan nə şəkildəsə asılı olmasına çalışanlar, böyük qardaşlıq sevdasına düşənlər, məqamdan istifadə edərək bölgədə nüfuz dairələrini genişləndirməyə can atan kəmfürsətlərin dar qursağı Azərbaycanın Möhtəşəm Zəfərini götürə bilmədi, nə illah elədilər, bu Qələbəni həzm edə bilmədilər, bilmirlər və ona görə də indi löyün-löyün fitnəkar təşəbbüslərlə ortaya sıçrayırlar.

İndi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi edəcəyi, dünya dövlətlərinin bu yekdil qərarının Azərbaycanın beynəlxalq sülh və inkişaf məsələlərində ön mövqeyə çıxması bədxahlarımıza dinclik vermir, onları yeni-yeni rəzalətlərə şitəndirir.

Əl altından görülən çirkin işlər, pərdələr ardında törədilən fitnələr öz yerində, Azərbaycanın ZƏFƏRLƏRİNİ həzm edə bilməmənin daha bir təzahürü də ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin Dövlət katibi Antoni Blinkenə göndərdiyi müraciət oldu.

Bu, o qədər bəsit quraşdırılmış bir səhnəcikdir ki, o müraciətin necə yaranmasının mənşəyini müəyyənləşdirməkdən ötrü məxsusi hazırlığa malik siyasətçi olmağa ehtiyac yoxdur. Artıq arxada qalmış XX əsrin son çərəyinin, üçüncü onili tamamlanmağa doğru irəliləyən yeni yüzilin dünyanı və insanı dəyişən hadisələri və siyasi fırtınaları çoxdandır ki, cəmiyyəti siyasiləşdirib, ən sıravi insanları da, həyatın içərisində olduqlarından, siyasi gedişatla bağlı bəzən siyasətçilərdən də sərrast mülahizələr yürütməyə öyrədib.

O sözləri ki Prezident İlham Əliyev okeanın o tayından, Blinken dəftərxanasından Azərbaycanazidd lax müraciətin sorağı buralara gəlib yetişən kimi oktyabrın 4-də Cəbrayıl şəhərində onillərin yorucu həsrətlərindən sonra işğaldan qurtulmuş yurdlarına qayıtmış keçmiş məcburi köçkünlərin qarşısında söyləyirdi, həmin düşüncələr elə həyatları siyasətdən ibarət o sadə insanların hər birinin düşüncəsindən, ürəyindən keçənlər idi.

Əlbəttə ki, ABŞ Dövlət katibinə guya cuşa gələrək bir yerə yığılmış bir qrup Senat və Nümayəndələr Palatası üzvünün Azərbaycanla bağlı məktub yazıb göndərməsi siyasi məzhəkədir və hazır mətnə imza atmış müti sözəbaxanların bu naməsi, artıq əksəriyyətin əsla şübhə etmədiyi kimi, dövlət katibliyinin özünün özünə başqa imzalarla ünvanladığı müraciətdir.

Məqsədsə Azərbaycana hədə-qorxu gəlmək, təzyiq göstərməyə cəhd etməkdən başqa bir şey deyildir.

Keçməz!

Azərbaycan dövlətdir, onun qüruru və qətiyyəti var, tarixin yaxındakı ən ağır sınağından mətanətlə və hünərlə çıxmış bu dövlətin Qadir Lideri var, sözü və əməli bu dövlət və onun rəhbəri ilə bir olan yenilməz və mütəşəkkil xalqı var!

O bədnam müraciətin iyrəncliyini, həqiqətlə daban-dabana zidd olmasını, hansı murdar girdabdan su içdiyini təsəvvür etməkçün bu yetər ki, həmin mətndə bizə qarşı həyasızca ərazi iddiaları irəli sürülür, artıq mövcud olmayan Dağlıq Qarabağ xortladılaraq mübahisəli torpaqlar adlandırılır, guya Qarabağda azərbaycanlıların ermənilərə qarşı etnik təmizləmə apardığı iddia edilir, indi-indi dinc nəfəs almağa başlayan yurdlarımıza ermənilərin maneəsiz və təhlükəsiz qayıdışına çağırışlar edilir və digər belə-belə sərsəmləmələr.

Erməniçiliyə uymuş altmış ABŞ siyasətçisinin imzaladığı həmin çürük müraciətə bəh-bəh deyib təqdir edən, mahiyyətcə bizə yad, sadəcə adı kağızda azərbaycanlı kimi gedənlərin cəmdəyinə necə tüpürməyi 30 ilə yaxın müddətdə olmazın zillətlər çəkmiş, bir çoxu dünyadan həsrətlə köçmüş, indi sayı çoxdan milyonu aşmış keçmiş qaçqın və məcburi köçkünlərimizin ixtiyarına buraxaq.

Azərbaycan üçün yetərincə həssas olan bu məsələlərlə bağlı indi mövqeyini bəyan edənlər Milli Məclis üzvləri, siyasətçilər, ziyalılar, əməkçi insanlar – zahirən ayrı-ayrı şəxslərdirsə də, əslində bunlar bütöv Azərbaycan xalqının sözüdür. Bu mövzuda Azərbaycan dövləti başçısının söylədiklərinin hamısı da büsbütün xalqın ürəyindən gələnlərdir və hər bir ləyaqətli vətəndaşımız ümummilli mənafe ilə birbaşa bağlı olan bu taleyüklü düşüncələrdə Rəhbəri ilə həmrəydir.

Bizim Amerika xalqına da, böyük dövlətçilik ənənələri olan bu iri dövlətə də sayğımız yüksəkdir. Azərbaycan bu qənaətini və mövqeyini də hər zaman əməli ilə nümayiş etdirib.

Dünyanın örnək kimi baxdığı böyük dövlətin dünya qarşısında elə özü irilikdə məsuliyyəti də var. Ancaq özünü sülh, haqq, demokratiya, azadlıq carçısı elan etmiş ABŞ-nin son illərdə keçirdiyi seçkilərdə baş verənləri izləyəndə, onun dünyanın gah o, gah bu ölkəsində xeyirə deyil, şərə xidmət edən açıq və gizli müdaxilələrini seyr edəndə, nümunə sayılası dövlətin sözdə bir cür, əməldə başqa cür olmasına şahid kəsiləndə istər-istəməz nəhəng dövlətin bu çaşbaş, bu hərdəmxəyal, bu laxlaq siyasətinə məyus olursan.

ABŞ idarəçiliyindəki bir paralarının belə çaşbaş davranışlara bais olan əməlləri əslində həm bu dövlətin özünün, həm də Amerika xalqının əleyhinə işləyir, gendən işığını duyaraq onu seçmişlərdə də çaşqınlıq yaradır, onları tərəddüdlərə salaraq başqa daha uyğun seçimlər haqda düşünməyə vadar edir.

Axı, gündəlik həyatda da, böyük siyasətdə də tərəfdaş, yol və səfər yoldaşı olmağın öz şərtləri var. İnam, etibar illər ərzində qazanılır, lakin ona nail olmaq çətinsə də, itirilməsi xeyli asandır. Gərək macal verməyəsən ki, insanlar və dövlətlərarası münasibətlərin bu incə qatına xal düşə. Bircə zədə dəydimi, daha heç vaxt yaddan çıxmır, nə qədər vaxt ötsə də, hər tini düşəndə xatırlanır, başa qaxılır. O yerdə baxılmır ki, nə boydasan. Qiymət əmələ, hərəkətə, etmiş olduqlarına görə verilir, əsl dost, ya lazım olandan-olana dosta dönməyin üzə çıxır.

Azərbaycan bu baxımdan sədaqətliliyini və sabitliyini, sözünün ağası və imzasının sahibi olmasını dünyaya çoxdan isbat edib, mötəbər tərəfdaşlarından da umduğu bundan artıq deyil.

Zamanın indisində Amerikanı çaşbaşlaşdıran heç də yalnız siyasətdəki vaxtaşırı müşahidə edilən çaş tərpənişləri, qoca prezidentinin adamları tay-dəyişik salmasından tutmuş hərdən hansı səmtə getməyi qatışdırmasınacan olan səhvetmələri deyil.

İllərcə üst-üstə qalaqlanan ən müxtəlif böyüklüklü və ən fərqli səciyyəli çaşmalar xronikləşərək mərəzə çevrilib, artıq ABŞ-nin özünü bütövlükdə çaşbaşa döndərib.

Odur ki, böyük ölçüdə yeni dövr içərisində elə ABŞ özü də yolu onunla davam etdirib-etdirməməyin seçimi barədə fikrə dalmağa başlayanlarla bərabər bu gün seçim qarşısındadır.

Həm də bu, yalnız onun lap astanasında olduğu növbəti prezident seçkiləri deyil.

***ABŞ-nin öz-özünə də, dünyada apardığı siyasətə də, ölkələrlə qurduğu münasibətlərə də, dostlara, müttəfiqlərə, sabitqədəmlərə və etibarsızlara yanaşmalarına da yenidən ağıl və təmkinlə baxaraq müdrik seçimlər etməsinə ümdə ehtiyac var.***

***Bu, Vaxtın hökmüdür!***

***Bu balaca Yer Kürəmizdəsə VAXTdan qüdrətli Dövlət yoxdur!***



**Fəlsəfi dəyərləndirmə**

# Laçının MDB-nin mədəniyyət paytaxtı anlamı



**I MƏQALƏ**

**Yeganə əhəmiyyəti olan məqam mübarizəni davam etdirmək kişiliyidir.**

**Uinston ÇÖRÇİLL**

## Siyasətin fəlsəfəsi

Siyasətin və diplomatiyanın öz fəlsəfəsi vardır. Dünya təcrübəsi göstərir ki, bu, olduqca mürəkkəb fenomendir. Görünür, siyasi-diplomatik fəaliyyət birbaşa insan faktoru ilə bağlı olduğundan burada daimi dinamika və ritm müəyyən etmək mümkün deyildir. Buna görə də siyasətin fəlsəfəsi müntəzəm dəyişən və yeniləşən şərtlər daxilində mümkündür.

Böyük siyasi liderlər siyasətdə söz bütövlüyünü, səmimiliyi, yüksək zəkanı, fəallığı, cəsarəti yüksək qiymətləndirirlər. Lakin bu yüksək keyfiyyətlər müdrikliklə qarşılıqlı əlaqədə özünü göstərməsə, nəticənin uğurlu olduğunu gözləmək imkansızdır. Özü də söhbət qalıcı və yeniləyici uğurdan gedir.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin fəlsəfi və politoloji xüsusiyyətlərinə sistemli baxanda onun qalıcı və yeniləyici mahiyyətini aydın görə bilərik. Xarici siyasətin bütün istiqamətlərində - Avropa, Asiya, MDB, TDT, region ölkələri istiqamətində davamlı və qalıcı uğurlar göz qabağındadır. İlham Əliyev Avropa və Uzaq Şərq, Afrika və Okeaniya istiqamətlərində nə dərəcədə uğurludursa, Türk dünyası və MDB məkanında da o dərəcədə qəbul ediləndir. Son nümunə Laçının 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsidir. Bu hadisənin dövlətçilik baxımından tarixi əhəmiyyətini aydın dərk etməmiz gərəkdir. Bunun üçün də hadisənin fəlsəfi və siyasi-nəzəri aspektini anlamamız lazımdır.

## Niyə məhz Laçın?

Tale elə gətirmişdir ki, əsrlərlə Azərbaycan dövlətinin coğrafi olaraq ortasında olan Laçın indi sərhəd şəhəridir. Özü də adi sərhəd şəhəri-məntəqəsi deyildir. Qarabağ savaşında Laçının adı çox müxtəlif proseslərdə intensiv hallandırıldı. Ermənistan və havadarlarının "Laçın dəhlizi" deyibən yaxalarını cırmaları da unudulmamışdır. Onlar məhz Laçın ərazisindən istifadə edərək Azərbaycanın dərinliklərinə erməniləri və "ermənilyi" yaymağa çox çalışdılar.

Unudulmamışdır ki, Laçınla sərhəddə Ermənistan və havadarları dəfələrlə müxtəlif xarakterli təxribatlar törətdilər. Azərbaycanın qətiyyəti ilə elə cavab aldılar ki, indi "Laçın" deyəndə tükləri biz-biz olur. Lakin xislət dəyişmir.

İndi Qərbin özünü güclü sayan dövlətləri Laçın və Kəlbəcər tərəfdən "durbin" Azərbaycanı müşahidə edirlər. Laçında Azərbaycanın inşa etdiyi sərhəd məntəqəsi onlar üçün təxribat törətməkdə böyük maneədir. Bundan başqa, Laçın sürətlə inşa edilir və artıq beynəlxalq statuslu hava limanına malikdir. Laçın, sözün həqiqi mənasında, bütün sferalarda dünyaya Azərbaycanın gözəl şəhərlərindən biri kimi açılır! Ora çoxlu sayda rəsmi qonaqlar və turistlər gəlirlər. Onlar bir həqiqətə əmin olurlar: Laçın tam mənası ilə Azərbaycan şəhəridir!

Buradan Laçının indiki tarixi dönəmdə Azərbaycan dövlətçiliyi üçün əhəmiyyətinin fəlsəfi və siyasi-nəzəri özəlliyini aydınlaşdırmaq olar.

## Sərhədin fəlsəfi və geosiyasi mənası

Müasir fəlsəfi və sinergetik tədqiqatlarda "sərhəd zonası" anlayışı prinsipial əhəmiyyət kəsb edir. Tədqiqatçılar müəyyən etmişlər ki, yeni mənalar məhz sərhəd zonasında yaranır. Bura siyasi və geosiyasi mənalar da daxildir. Məsələnin nəzəri tərəfi xeyli mürəkkəb, abstrakt və qəlizdir. Ona görə də sadə məqamlar üzərində dayanaq.

Fəlsəfi və sinergetik araşdırmalar göstərir ki, sərhəd müxtəlif istiqamətli və xarakterli (siyasi, iqtisadi, geosiyasi, mədəni, kommunikativ, informasiya və s.) proseslərin qarşılıqlı təsir sahəsidir. Bu qarşılıqlı təsirlər faktiki olaraq həmin sərhəd zonasının taleyini həll edirlər. Siyasi-diplomatik aspekt üçün bu, hansı tərəfin üstün yeni mənalar yaratmasının əhəmiyyətini göstərir. Yəni həqiqi qalib müasir və yeni "siyasi-diplomatik mənalar" yarada biləndir. Azərbaycan Prezidenti davamlı, düşünülmüş və qətiyyətli siyasi-diplomatik fəaliyyəti ilə məhz real yeni mənalar yarada bilmişdir. Onun təzahürünün bir neçə aspektini vurğulaya bilərik.

Birincisi, Laçın hərbi əməliyyatlar vasitəsilə azad edilmişdir.

İkincisi, Laçın II Qarabağ savaşından sonra intensiv şəkildə Ermənistan və havadarları tərəfindən siyasi-diplomatik avantüralar, spekulyasiyalar müstəvisinə çəkilməyə çalışılmışdır. Bunun qarşısı Azərbaycan tərəfindən alınmışdır.

Üçüncüsü, Laçın sərhəd şəhəri kimi sürətlə inşa edilmişdir.

Deməli, sərhədlərin fəlsəfəsində elə özəl anlam mövcuddur ki, bütövlükdə dövlətin müstəqil və suveren olmasının konkret cəhətlərini özündə ehtiva edir. Yəni müəyyən mənada dövlətin suverenliyi və müstəqilliyi onun sərhəddəki nüfuzundan başlayır. Bu, sərhədlərin fəlsəfəsində başlıca məqamdır. Çünki müstəqil dövlət üçün sərhəd dövlətçiliyin rəmzi kimi qəbul edilir. Sərhədi pozulan dövləti indiki dövlətçilik nəzəriyyələrində real və gerçək dövlət hesab etmirlər.

Buradan sərhədlərin geosiyasi anlamı və əhəmiyyəti alınır. Konkret ifadə edə bilərik: sərhəd zonası ərazinin coğrafi aspekti ilə siyasi aspektini sintez edən geosiyasi faktordur. Sərhəddə dövlətin suverenliyinin, ərazi bütövlüyünün və toxunulmazlığının geosiyasi şərtləri birləşir. O şərtlərin sintezi dövlətin ərazisinin coğrafi aspekti ilə siyasi tərəfini geosiyasi müstəvidə rəmzə və mənaya çevirir.

İndi ümumfəlsəfi təsvirin fonunda bir informasiyanın məzmununa nəzər salaq.

MDB dövlət başçılarınnı Moskva toplantısından sonra müxtəlif KİV-də yayılmış bir informasiya oxucuları həyəcanlandırdı. Ermənisatn media vasitələri adəti üzrə təşviş və birtərəfli şovinist ruhda həmin informasiyanı tirajladı. Azərbaycan mediası isə təmkinli, qürurlu və obyektiv olaraq informasiyanı təqdim etdi. Görünür, zaman-zaman başqa ölkələrin KİV-i də reaksiya verəcəkdir. Bunu həmin informasiyanın məzmunundan görmək olar.

Azərbaycan Prezidenti İlham Əliyev MDB-nin son Moskva sammitində bəyan etmişdir: "MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur rayonunun Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət mərkəzi elan edilib. Laçın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş Azərbaycan şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılıb. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar"!

Bu cəmi dörd cümlədə İlham Əliyev çox mənalar ifadə etmişdir. Hər şeydən öncə, Azərbaycan Prezidentinin qürurlu duruşu ilə lider təmkini diqqəti çəkmişdir. Bu, yeni psixoloji və diplomatik qələbənin əlamətidir. İkinci məna ondan ibarətdir ki, Laçını MDB-nin mədəniyyət paytaxtı kimi MDB-nin "Humanitar Əməkdaşlıq Şurası" adlı altqurumu elan etmişdir. Və onu "Azərbaycanın Şərqi Zəngəzur rayonunun Laçın şəhəri" kimi təqdim etmişdir.

## Humanitarlıq aspekti

Laçını MDB-nin məhz humanitarlığa bağlı qurumunun mədəniyyət paytaxtı elan etməsinin humanitarlığın birbaşa mədəniyyətlə bağlı olması anlamı ilə yanaşı, özəl mənası da vardır. Məsələ onunla bağlıdır ki, Ermənistan və havadarları bir müddət məhz humanitarlıq kontekstində Laçın məsələsini spekulyativ və manipulyativ hallandırmağa çalışdılar. Onlar Azərbaycanı Laçın məsələsində birbaşa humanitar böhran yaratmaqda ittiham edirdilər. Hətta fransız siyasilər avtomobil karvanı ilə Qarabağdakı erməniləri "humanitar fəlakətdən" xilas etmək üçün "Laçın dəhlizi"nə gəldilər. Həm "Laçın dəhlizi", həm də "humanitar fəlakət" qondarma olduğundan başları daşa dəydi və geri qayıtdılar.

Bununla "Laçının humanitarsızlığı" sona çatmadı. Meydana ABŞ və Almaniya daxil oldular. Yenə eyni saxta bayatı: "Qarabağda ermənilər Laçın tərəfdən ciddi humanitarsızlığa düçar olurlar". Bu oyun da Azərbaycan Prezidentinin məharətli siyasəti ilə boşa çıxdı.

Sonrası ermənilər və havadarları üçün əsl humanitarlıq dərsi oldu. Onu iki istiqamətdə görə bildik.

Birincisi, Azərbaycan tərəfi "Laçın yolu" anlamını qəbul etmək istəməyənlərə alternativ yol təklif etdi – Ağdam tərəfdən "humanitar yardımları"nızı "zavallı ermənilərə" çatdıra bilərsiniz. Lakin nə Ermənistanın, nə də havadarlarının nə vicdanları, nə siyasi yetkinliyi, nə də obyektvlikləri çatmadı ki, Bakının bu yüksk humanitar təklifinə müsbət yanaşsınlar. Lakin Rusiya həmin marşrutla Xankəndiyə humanitar yardım göndərdi. Onu da erməni separatçıları boykot etdilər.

Bununla aydın oldu ki, Ermənistan və havadarları bilirlər ki, Xankəndindəki ermənilər üçün heç bir humanitar fəlakət yoxdur. Həmin səbəbdən vurğulanan istiqamətdə humanitar fəlakət oyunundan əl çəkdilər. Bu, rəsmi Bakının böyük qələbəsi idi. İkinci aspekt də çox önəmlidir .

## Ekoloji fəlakətin keçilməz "qala"sı

Azərbaycan rəhbərliyinin çox səmərəli siyasi-diplomatik fəaliyyəti ilə Laçın sözün həqiqi mənasında ciddi ekoloji fəlakətin qarşısında keçilməz və yıxılmaz səddə, "qalaya" çevrildi. Azərbaycan Qarabağın təbii sərvətlərinin qanunsuz istismar edilməsini və bunun regiona vurduğu ciddi ekoloji ziyanın miqyasını konkret faktlarla davamlı və təmkinli surətdə dünya ictimaiyyətinə anlatdı. Minlərlə gənc fəal yuxusuz gecələr keçirdi, lakin mövqeyi tərk etmədi. Bu sivil dirəniş dünya üzrə ekoloji fəlakətlərə qarşı aparılan mübarizələr sırasında xüsusi yer tutur. Çünki, birincisi, mübarizə qeyri-bərabər qüvvələr nisbəti şəraitində aparılırdı, ikincisi, iqlim çox əlverişsiz idi və kənar təsirlər də az deyildi.

Məsələ belə idi ki, etirazçılara, hətta, Qırmızı Xaç da təsir göstərməyə çalışırdı. Bunlarla yanaşı, böyük dövlətlərin siyasi-diplomatik dairələri özlərini həlak edirdilər. Ancaq Azərbaycan ekoloji fəlakətə yol verməmək üçün sona qədər dayandı və qalib gəldi. Bu da Azərbaycan Prezidentinin ciddi siyasi-diplomatik uğuru idi.

Laçın amili burada iki mənada həlledici rol oynadı. Birinci məna onunla bağlıdır ki, Azərbaycanın siyasəti və dinc fəallar hər kəsə sübut etdilər ki, Laçın dəhliz deyildir, sadəcə Azərbaycan ərazisinə daxil olmaq üçün istifadə oluna bilən yoldur! İkinci məna isə Qarabağın ekoloji durumunun müəyyənedicisinin Azərbaycan olduğunu sübut etdi. Həmin dövrdə ermənilər Laşın yolundakı sərhəd məntəqəsində Azərbaycan qanunları çərçivəsində ölkəni tərk edə və ya geri qayıda bildilər. Bir diplomat belə Bakının icazəsi omadan Laçından Azərbaycan ərazisinə daxil ola bilmədi.

Eyni zamanda, məhz Laçında Qarabağ separatçıları bir-bir aşkarlandılar və qolu qandallı Bakıya gətirildilər. Bu hadisənin də iki cəhəti çox əhəmiyyətlidir. Onlardan birincisi ondan ibarət idi ki, məhz Laçında bir müddət Azərbaycan ərazisində separatçılıq və ekoloj mühiti korlamaqla məşğul olan quldurlar həbs edildilər. Xatırlayırsınızsa, Azərbaycan KİV-də erməni separatçıların Qarabağda çayları necə zibillədikləri, nüvə tullantıları ilə çirkləndirdikləri, azərbaycanlıların yaşadıqları istiqamətdə xüsusi olaraq antiekoloji addımlar atdıqları ilə bağlı xeyli informasiyalar gedirdi. Onların sırasında separatçı və terrorçuların nüvə və narkotik qaçaqmalçılıqları ayrıca yer tuturdu.

Digər cəhət isə Azərbaycan dövləçiliyinin Laçından başladığı mesajı verilməsi ilə bağlıdır. Separatçılar orada aşkarlanır və həbs edilirdilər. Bu prosesə isə kimsə mane ola bilmirdi, çünki qəbul etdilər ki, Laçın Azərbaycan dövlətinin sərhədidir. Yeri gəlmişkən, bu həqiqəti zorla qəbul edənlər sırasında Tehran rejimi də vardı. Onlar qəsdən azəbaycanlı sürücüləri Ermənistana yardım aparmağa göndərirdilər və Azərbaycanın ərazi bütövlüyünə qarşı danışdırırdılar. Rəsmi Bakı bunun da qarşısını aldı və sübut etdi ki, Laçın Azərbaycan dövlətinə aiddir, məhz Azərbaycan sərhədidir.

Bütün bunlar birbaşa Azərbaycan Prezidentinin məharətli siyasəti nəticəsində Laçının humnitarlığın yıxılmaz, keçilməz "qalası" olmasının dünya ictimaiyyəti tərəfindən qəbul edildiyini təsdiqləyir. Prezidentin yuxarıdakı fikrində ifadə olunan digər üç yeni məna da bu əsasda məntiqi şəkildə aydın olur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

***Strateji tərəfdaşlarımız***

# Azərbaycan və Çin hegemonluğa, güc siyasətinə qarşıdır

## *Bakı və Pekin bu məramı rəsmi sənədlə bəyan ediblər*

**Əslində, bu sətirləri bir neçə gün əvvəl Azərbaycanda da yüksək səviyyədə qeyd edilən əlamətdar gün – Çin Xalq Respublikasının yaranmasının 75 illiyinə sözardı kimi qələmə almaq istəyirdik. Ancaq Çin mövzulu rəsmi sənədlərə nəzər salarkən üç ay əvvəl – bu il iyulun 3-də Astanada dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin müddəaları ilə tanış olanda fikirləşdik ki, bundan sonra Bakı– Pekin münasibətləri haqqında nə yazsaq, mütləq dostluq və qardaşlıq münasibətlərimizin perspektivi, qarşıdakı böyük layihələr barədə olacaq.**

Həmin birgə bəyannamənin bütün bəndləri bugünkü Azərbaycan reallıqlarının dünya miqyasında tanıdılması və dövlətimizin maraqlarının təmin edilməsi baxımından yüksək səviyyədə əhəmiyyətlidir. Ancaq sənədin birinci maddəsinin birinci bəndində qeyd edilən "Çin tərəfi Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir" abzası dünyanın iqtisadi baxımdan ən güclü ikinci dövlətinin Cənubi Qafqaza sülh gətirilməsi prosesinə sədaqətinin göstəricisi kimi qəbul edilir. Bu məqamda onu da xatırladaq ki, Çin Xalq Respublikası Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür.

Elə sənədin dördüncü maddəsinin beşinci bəndində deyilən: "Çin tərəfi Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığı gücləndirmək səylərini alqışlayır, bu təşkilatda Azərbaycanın hüquqi statusunun yüksəldilməsini dəstəkləyir. Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edir və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayır" qətiyyəti də dövlətimizin xarici siyasətinin şaxələndirilməsinə verilən yüksək qiymətin göstəricisidir.

Dövlət başçımız dəfələrlə xatırlatmışdır ki, bizim xarici siyasətimizin yeni istiqamətləri əvvəllər əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatlar və ya dövlətlərlə təmaslardan əl çəkmək deyil. Biz hamı ilə yaxın dostluq və tərəfdaşlıq etməyə hazırıq. Ancaq kim bizimlə əməkdaşlıqda maraqlı deyilsə, onlara yalvarmayacağıq. Azərbaycan – Çin əməkdaşlığına gəlincə isə xatırladaq ki, dövlət başçımız bir neçə il əvvəl Çin Xalq Respublikasını "Azərbaycanın böyük dostu" adlandırmışdı. Azərbaycan liderinin beynəlxalq aləmdəki nüfuzunu, özünəməxsus xarici siyasət yeritməsini, xüsusilə, Çin Xalq Respublikası ilə münasibətlərdə siyasi uzaqgörənlik nümayiş etdirməsini nəzərə alan Çin dövlət başçısı isə öz ölkəsinin mətbuatına verdiyi müsahibədə "İlham Əliyev Çinin böyük dostudur" ifadəsini dilə gətirməklə, sözün həqiqi mənasında, böyüklük nümayiş etdirmişdi.

Yəni yuxarıda adını çəkdiyimiz bəyannamədə deyildiyi kimi, tərəflər beynəlxalq və regional vəziyyətin mürəkkəb inkişafı fonunda siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə irəlilətməyə dair razılıq əldə ediblər. Fikrimizcə, bu fakt gənc müstəqil Azərbaycan dövlətinin uğurlu xarici siyasətinin nəticəsidir.

Məlum olduğu kimi dünyanın müxtəlif ünvanlarındakı anti-türk, anti-Azərbaycan məqsədli qüvvələr, xüsusən Fransa dövləti və bəzi Avropa siyasətçiləri Cənubi Qafqazda yenidən hansısa münaqişənin yaradılmasına, Ermənistandakı başıpozuq qüvvələrin revanş düşüncəsinin körüklənməsinə çalışırlar. Belə məkrli qüvvələrə xatırladırıq ki, cənab Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycan tək deyil. Türkiyə liderinin həmin ifadəsi bu il iyulun 3-də Astanada bir daha öz təsdiqini tapmış oldu.

Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin imzaladıqları birgə bəyannamədə deyilir ki, Azərbaycan və Çin hegemonluğa və güc siyasətinə qarşıdır, tərəflər terrorizm, separatizm və ekstremizmin bütün beynəlxalq ictimaiyyət üçün ciddi təhdidlər yaratdığını və bu çağırışların qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün ümumi səylərin birləşdirilməsini tələb etdiyini vurğulayırlar.



Xatırladaq ki, bu gün Azərbaycanın beynəlxalq aləmdəki siyasi çəkisini artıran əsas amillərdən biri də bizim təşəbbüsümüz və ya razılığımız əsasında ərsəyə gəlmiş çoxsaylı və çoxistiqamətli nəqliyyat layihələridir. Odur ki, Çin Xalq Respublikasının Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta dəhliz) tikintisində və istismarında fəal iştirak etməyə çalışmasından məmnunuq. Eləcə də, rəsmi Pekin Çin – Avropa və əksinə istiqamətdə cənub dəhlizinin yük qatarları üçün fasiləsiz işini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrut boyu yerləşən digər ölkələrlə daha sıx əməkdaşlıq təklif edir. Üstəlik, Pekin regional praktiki əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyini və sabitliyini birgə təmin etməyə hazır olduğunu bildirir.

Bu arqumenti təsadüfən yada salmadıq. Çünki Azərbaycan, Türkiyə və Rusiya prezidentləri dəfələrlə qeyd ediblər ki, Cənubi Qafqazdan keçən nəqliyyat dəhlizləri regionun bütün ölkələrinin iqtisadi maraqlarına cavab verir və Zəngəzur dəhlizinin açılması həmin maraqların həcmini, miqyasını böyüdəcək. Region ölkələrinin rəhbərlərindən sonra Çin lideri də öz imzası ilə təsdiq etdi ki, rəsmi Pekin regionun digər ölkələri ilə də işləməyə hazırdır. Təbii ki, bütün bunları Ermənistanda da başa düşürlər. Ancaq Makron və bəzi Avropa siyasətçiləri İrəvanın hansısa müstəqil addım atmasını mümkünsüz edirlər.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin yanvarında Davosda Çinin CGTN televiziya kanalına verdiyi müsahibəsində demişdi ki, qlobal arenada Çinin gördüyü işlər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməlidir. Çin dünyada ən çox uğur qazanmış ölkələrdəndir və dünyanın aparıcı iqtisadiyyatlarındandır. Çinlilər buna öz əzmkar əməkləri, xalqın və ölkə rəhbərliyinin müdrikliyi, nəticəyönümlü səyləri sayəsində nail olmuşlar: "Bir kəmər, bir yol" sammiti çərçivəsində Pekində Sədr Si Cinpinlə görüşüm zamanı o məni Çinin böyük dostu adlandırdı... Bu, mənim üçün böyük şərəf idi".

Əvvəllər də qeyd etdiyimiz kimi, hazırda ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın ticarət evləri açılıb. Azərbaycan Çinin müxtəlif bölgələrində ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər. Azərbaycanda 120-dək Çin kapitallı şirkət qeydiyyata alınıb.

Ancaq Prezident İlham Əliyev bu göstəricilərlə razı deyil: "Biz daha çox Çin şirkətini Azərbaycanda görməyə ümid edirik. Onlardan bəziləri müxtəlif sahələrdə artıq kifayət qədər fəaldır. Biz Orta dəhlizlə bağlı Sədr Si Cinpinin təşəbbüslərini tam dəstəkləyirik... Həmçinin biz enerji, kənd təsərrüfatı və yüksək texnologiyalar sahələrində də əməkdaşlıq etməyə ümid edirik. İnformasiya texnologiyaları sektorunu təmsil edən bir çox Çin şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərirlər. Beləliklə, bizim, həqiqətən də, çoxşaxəli münasibətlərimiz var".

**İ.MİRZƏCANOĞLU**

# Hadrutun bəxtinə işıq saçılan gün

## *Dövlət başçımız bu münasibətlə paylaşım edib*

**Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyətə malik olan bir əməliyyat idi. İlk növbədə ona görə ki, bu strateji qəsəbəni işğaldan azad etmək bizim gələcək planlarımıza əlavə dəstək verdi. Çünki əgər biz Hadrutu işğalçılardan azad etməsəydik, gələcək əməliyyatlarımız daha böyük çətinliklərlə üzləşə bilərdi. Təsadüfi deyil ki, işğaldan ilk azad edilmiş şəhər olan Cəbrayıldan sonra ikinci böyük yaşayış məntəqəsi Hadrut olmuşdur.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Hadrut qəsəbəsi, 24 dekabr 2021-ci il**




**Hörmətli oxucu, bu yazının əsas məğzinə keçmədən cənab Prezidentin bir çıxışından seçdiyimiz iqtibasın altındakı tarixə nəzər sal. Yenə də 24 dekabr. Yenə də Prezidentimizin ad günü öz evində, ailəsi ilə birlikdə və ya paytaxtın hansısa guşəsində deyil, məhz otuz il halal süfrə üzünə həsrət qalmış, halal söz eşitməyən Hadrut qəsəbəsində, hərbçilərimizin qarşısında qeyd edilir. Yenə də Ali Baş Komandan ordumuzu salamlayır, əsgərlərimiz onu alqışlayırlar. Dövlət başçımız həmin gün demişdi ki, biz bundan sonra daim qalib xalq, Zəfər çalmış dövlət və müzəffər ordu sözləri ilə daim fəxr edəcək və qürurla yaşayacağıq.**

Elə ona görə də cənab Prezident Hadrut qəsəbəsinin düşmən işğalından azad edilməsinin dördüncü ildönümü münasibəti ilə paylaşım etmişdir. Həmin paylaşımın bir məqsədi o əlamətdar günün daim xatırlanmasına çağırışdırsa, digər məqsədi Ermənistan əhalisində revanşist əhval-ruhiyyə yaratmaq istəyən bəzi məkirli qüvvələrə növbəti xəbərdarlıqdır.

Əslində, cənab Prezident bədxahlarımıza ən kəsərli xəbərdarlığı məhz 2021-ci il dekabrın 24-də Hadrut qəsəbəsində xüsusi hərbi hissənin açılış mərasimindən göndərmişdi. O vaxt Ermənistan mətbuatı




yazırdı ki, İlham Əliyev Hadrutda açılan hərbi hissənin Azərbaycan Ordusu üçün böyük əhəmiyyət kəsb etdiyini demiş və əsgərləri həvəsləndirərək daha böyük uğurlara çağırmışdır. Düşmən ölkə mətbuatının bu ifadəni xüsusi qabartması onu göstərir ki, işğalçılar Azərbaycan Ordusundakı istənilən yeniliyi ən incə məqamlarına qədər izləməyə çalışırlar.

Bəli, dövlət başçımız həmin çıxışında o ifadəni işlətmişdi: "Bu hərbi hissənin açılması çox böyük əhəmiyyət daşıyır. Çünki bu hərbi hissə işğaldan azad edilmiş ərazidə – Xocavənd rayonunda açılır və ordumuzun sərəncamına verilir. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzində idi. Bildiyiniz kimi, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə mənim fərmanımla dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunmuşdur".

Fikrimizcə, erməniləri çox ciddi şəkildə həyəcanlandıran fakt Hadrutda hərbi hissənin açılması yox, hansı məqsədli hərbi hissənin açılması idi. Onlar yaxşı bilirdilər ki, Prezident İlham Əliyev həmin gün Hadrutda Komando briqadasının açılışını edirdi. Ermənilər 44 günlük İkinci Qarabağ müharibəsinin gedişində Azərbaycan Ordusunun Komando birliklərinin əlinin duzunu yaxşı görmüşdülər. Ona görə də Komando əsgərlərimizin Hadrutda məskunlaşması düşmən ordusunun başına daş salırdı.

Məlum olduğu kimi, həmin gün – dövlət başçımızın Hadrutdakı çıxışından sonra Azərbaycan Respublikası Prezidentinin Komando briqadasına döyüş bayrağının verilməsi haqqında təqdimatı oxunmuşdu. Orada deyilirdi: "Əsgəri şərəf, şücaət və şöhrət rəmzi kimi hərbi hissənin hər bir hərbi qulluqçusuna Vətənə sədaqətlə xidmət etmək, öz qanını və canını belə əsirgəmədən onu mərdlik və bacarıqla müdafiə etmək, qoşunlara həvalə olunmuş xidməti döyüş tapşırıqlarını əzmlə yerinə yetirmək, doğma torpağın hər qarışını düşməndən qorumaq borcunu xatırlatmaq üçün təqdim olunur".

Yəni, indiyədək Hadrutun ətrafında hündürlüyü 1468 metr olan Ərgünəş dağı var idisə, indi ucalığını erməni əsgərlərinin daha yaxşı bildiyi Azərbaycan Komando hərbi hissəsi də var.

Bu məqamda onu da xatırlatmaq istərdim ki, ermənilərin Ərgünəş dağının, onun ətrafındakı Xırmancıq kəndinin və ümumilikdə , Xocavənd rayonunun adlarının türk sözlərindən ibarət olduğunu bilə-bilə buralara ərazi iddiası eləməsi xəstəlik əlamətidir. Sonra yadıma düşdü ki, onlar regionun bütün ölkələrinə qarşı ərazi iddiasından əl çəkmirlərsə, hansı türk sözündən xəcalət çəkəcəklər ki?

Mən bu sətirləri qələmə alanda Prezident kitabxanasının elektron resursları arasında hərbi ekspert Azər Bayramovun Hadrut əməliyyatı haqqında dediklərini də oxudum. Ekspert deyir ki, Hadrutda düşmənin Azərbaycan Ordusundan qat-qat çox olmasına baxmayaraq, hərbçilərimiz qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəldi və düşməni darmadağın etdi: "Ermənistan tərəfində belə bir mif formalaşmışdı ki, düzənlik ərazidə Azərbaycan Ordusu uğurlu olsa da, dağlıq və çətin relyefli ərazidə onların qarşısı alınacaq. Ancaq Hadrut döyüşləri onların uydurduğu bu mifi də puç etdi. Döyüşçülərimiz istənilən şəraitdə qarşıya qoyulan tapşırığı yerinə yetirməyə qadir olduqlarını sübut etdilər".

Dövlət başçımızın Hadrutdakı çıxışında da relyef məsələsi qabardılırdı. Qeyd edilirdi ki, Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsində xüsusi əhəmiyyətə malik olan bir əməliyyat idi. İlk növbədə ona görə ki, bu strateji qəsəbəni işğaldan azad etmək bizim gələcək planlarımıza əlavə dəstək verdi. Çünki əgər biz Hadrutu işğalçılardan azad etməsəydik, gələcək əməliyyatlarımız daha böyük çətinliklərlə üzləşə bilərdi… "Burada olan hər bir insan bu qəsəbəni əhatə edən dağları görərkən başa düşə bilər ki, bu, nə qədər böyük, çətin və şərəfli missiya idi. Çünki mənfur düşmən 30 il ərzində işğal altında olan bütün torpaqlarda güclü istehkamlar qurmuşdu, bir neçə xətdən ibarət müdafiə sədləri qurmuşdu. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin təbii relyefi də düşmən üçün əlverişli idi. Çünki bu dağlarda, təpələrdə yerləşərək onlar böyük hərbi üstünlüyə malik idilər. Ona görə bizim hərbçilərimizin həm peşəkarlığı, həm fiziki gücü, mənəvi hazırlığı, vətənpərvərliyi, fədakarlığı bu şərəfli Qələbəmizə nail olmaq üçün bizə imkan yaratdı".

Bəli, uğurlu Hadrut əməliyyatından sonra Azərbaycan Ordusunun Şuşaya gedən yolu açılmışdı. Hərbçilərin fikrincə, bu qəsəbə işğalçılardan azad edilməsəydi, Şuşaya gedib çatmaq çox çətin olardı. Əsgərlərimiz zəfər yolunu davam etdirdilər və müharibə bitəndən sonra dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında müzakirələr başlandı, təhlillər aparıldı.

Sonda bir daha xatırladaq ki, İkinci Qarabağ müharibəsindən cəmi bir il keçəndən sonra Hadrutda yeni hərbi hissənin açılması bizim üçün əlamətdar, düşmən üçün isə qorxulu yuxu effekti yaradan faktdır. Yəni bu hərbi hissə Hadrutda bizim güclü silahlı birləşməmiz olaraq, təhlükəsizliyimizi, ölkəmizin təhlükəsizliyini qoruyacaq. Prezidentin fikrincə, bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq: "Müharibədən sonra imzalanmış yeni kontraktlar icra edilir. Yeni kontraktlar əsasında artıq Azərbaycana Ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir. Biz bunu heç vaxt gizlətmirdik və işğal dövründə hərbi paradlarda dəfələrlə nümayiş etdirmişdik".

Təbii ki, söhbət Hadrutun işğaldan azad edilməsinin ildönümündən getdiyinə görə bu qəsəbədəki Komando briqadası hərbi hissəsinin açılmasından danışdıq. Ancaq son zamanlar ölkəmizdə sayını ictimailəşdirmək istəmədiyimiz qədər Komando briqadaları yaradılır. Ali Baş Komandanımızın fikrincə, həmin briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar.

***İttifaq MİRZƏBƏYLİ***

## Zəfər marafonunun 14-cü günü

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 10 oktyabr



• Oktyabrın 9-da günün ikinci yarısından oktyabrın 10-u səhər saatlarınadək bütün cəbhə boyu hərbi əməliyyatlar müxtəlif intensivliklə davam edib, düşmənə atəş zərbələri endirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Ordusunun hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

• Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə Azərbaycanın bu müharibədə əsas məqsədi ölkəmizin bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılmasıdır. Buna görə bizim məqsədimiz dəyişməz qalır. Sadəcə, bu məqsədə doğru necə getməliyik? Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil.

Ali Baş Komandan daha sonra qeyd edib ki, Azərbaycan döyüş meydanında göstərdi ki, hərbi yol, yəni indiki müharibə olmasa idi, Azərbaycan–Ermənistan danışıqları daha 30 il də davam edərdi. O vaxta qədər nələr baş verərdi? Qanunsuz məskunlaşdırma həyata keçirilərdi. Bu, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarının pozulmasıdır. Təəssüf ki, buna heç kəs – nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin, rayonların inzibati sərhədlərinin dəyişdirilməsi, bir sözlə, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsinə laqeydlik göstərildi.

Prezident İlham Əliyev sözlərinə əlavə edərək deyib: "Yəni, biz daha 30 il gözləməli olardıq, sonra da bizə deyərdilər ki, bilirsiniz, iş belə gətirib, bununla barışın. Bizə belə də deyirdilər. Buna görə düşünürəm ki, hərbi yol və ya onun birinci mərhələsi sona çatıb, indi biz siyasi nizamlama mərhələsinə çatmışıq. Məhz bu mərhələ bizim axıra qədər getməyimizi və hüquqa görə bizə məxsus olanı almağımızı təmin edəcək. Ona görə düşünürəm ki, Azərbaycan cəmiyyəti dünən və bu gecə baş verənləri çox düzgün qəbul edəcək və bizim siyasətimizi bundan sonra da dəstəkləyəcək. Çünki biz həmişə xalqa həqiqəti demişik. Həmişə xalqın mənafelərini müdafiə etmişik. Döyüş meydanında baş verənlər bunu bir daha hamıya sübut etdi".

Ali Baş Komandan müsahibədə diqqətçəkən bir məqama da toxunub. Jurnalistin "Siz bütün bu hadisələrə qədər Ermənistanın baş naziri Nikol Paşinyan ilə bir neçə dəfə görüşmüsünüz. Bu hadisələrdən sonra Siz onunla bir masa arxasına əyləşməyə və ya danışmağa hazırsınızmı?" sualına cavabında bildirib ki, etimad bəsləmədiyin adamla danışmaq çətindir. Mən onun sələfləri, müharibə cinayətkarları hesab etdiyim adamlarla danışıqlar aparmağa məcbur idim. Çünki onlar Xocalıda qanlı soyqırımı törədiblər, onlar Azərbaycanın dinc əhalisini məhv etməkdə, bizim tarixi və mədəni irsimizin dağılmasında təqsirkardırlar. Lakin mən məcbur idim: "Ona görə ki, biz bu münaqişənin nizamlanması yolunu tapmalı idik. Ermənistanda yeni iqtidar, yeni rəhbərlik hakimiyyətə gələndə əvvəlcə onlarla əlaqələrimiz çox ümidverici idi. Mən bir dəfə bu barədə danışmışam, təkrarlamaq istəmirəm. Lakin sonra tamam əks hadisələr baş verdi, yəni, biz özümüzü aldadılmış hiss etdik".

Dövlətimizin başçısı həmin müsahibədə, Ermənistanla danışıqların nəticəsi barədə isə qeyd edib ki, opponentin hər kəlməsi yalandırsa, onun yalanları dünya KİV-lərində yayılırsa, bütün dünyaya translyasiya edilirsə, onunla nə barədə danışmaq olar? Yəqin onlar öz ölkələrində yalan danışmağa adət ediblər. Lakin internet dövründə tarix barədə, münaqişənin mahiyyəti barədə yalan danışanda bu yalan çox tezliklə ifşa olunur: "İndiki mərhələdə mən danışıqları səmərəli hesab etmirəm. Əksinə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Mən istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özümə heç vaxt rəva görməmişəm. Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik".

• Müdafiə Nazirliyi: Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri günorta saatlarında Tuğ kəndi istiqamətindən Hadrut qəsəbəsi, Aragül və Banazur istiqamətlərindən Cəbrayıl istiqamətində hücuma cəhd göstərib. Bölmələrimizin qabaqlayıcı tədbirləri nəticəsində xeyli sayda canlı qüvvə və döyüş texnikası itirən düşmən geri çəkilməyə məcbur edilib. Müdafiəni düzgün təşkil edən bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alıb, onu tələyə salaraq darmadağın edib. Düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını sıradan çıxarılıb.

• Azərbaycan Ordusu Qubadlıda düşmənin "S-300" idarəetmə sistemini məhv edib.

• Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Eyni zamanda, bir sıra yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub. Azərbaycan Ordusunun bölmələri düşmənin bütün hücum cəhdlərinin qarşısını qətiyyətlə alıb.

• Atəşkəs rejimini pozan düşmənin zirehli və digər hərbi texnikası, tank və artilleriya bölmələri, atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri Azərbaycan Ordusu bölmələrinin dəqiq atəşi ilə məhv edilib.

• Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan 9K72 "Elbrus" əməliyyat-taktiki raket kompleksinin ballistik hədəfi Azərbaycan Hava Hücumundan müdafiə sistemləri tərəfindən zərərsizləşdirilib.

• Düşmənin havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyası (RLS) məhv edilib.

• Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 10-da saat 12:00-dək mülki əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını açıqlayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 31 nəfər həlak olub, 171 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1137 ev, 45 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə düşüb.

Rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

***XQ***

# Varşavada Qərbi azərbaycanlıların qayıdış hüququndan söz açılıb

**Qərbi Azərbaycan İcması sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən Varşavada ATƏT-in İnsan Ölçüsü Konfransının plenar sessiyasında çıxış edibr. Öz şəxsi qaçqınlıq hekayəsi, Ermənistandan azərbaycanlıların qovulması, onların qayıdışına imkan verilməməsi barədə məlumat verən R. Həsən, bəzi dairələrin Azərbaycandan könüllü köçmüş ermənilərin məsələsini süni şəkildə gündəliyə gətirdiyi halda, Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı hüququna münasibətdə ayrı-seçkilik nümayiş etdirdiklərini bildirib.**




Qeyd edək ki, ATƏT-in illik əsasda keçirdiyi İnsan ölçüsü Konfransı ATƏT məkanında insan hüquqları və fundamental azadlıqlar məsələsinə həsr edilir. Qərbi Azərbaycan İcması müntəzəm olaraq bu konfranslara qatılaraq, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsini qaldırır. İcmanın bu ilki konfrans çərçivəsində keçirdiyi yan tədbir və plenar sessiyada iştirakı Qərbi azərbaycanlıların qayıdış hüququ üzrə beynəlxalq məlumatlılığın artırılması və baxımından böyük əhəmiyyət kəsb edir.

***XQ***

Aida İmanquliyeva–85

# Şərqi özünə və Qərbə tanıdan görkəmli şərqşünas

**Neçə-neçə filosof və şərqşünas qoca Şərqi oyanışa, dünya ilə yarışa qovuşdurmaq üçün onu Böyük Köçün qopduğu yola - İpək yoluna səsləyib. Bu yolu qəlbinin və qələminin nuruna qərq edənlərdən biri də ərəb-məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçısı, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva idi.**



Aida xanım 1962-ci ildə ali təhsilini başa vurduqdan sonra Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasından aspiranturaya daxil olub. O, şərqşünas alim Rüstəm Əliyevin rəhbərliyi ilə “Qələmlər cəmiyyəti” və Mixail Nüaymənin onun yaradıcılığında rolu” mövzusunda namizədlik dissertasiyası üzərində işləməyə başlayıb.

XIX – XX yüzillərdə Cənubi Amerikaya mühacirət etmiş Suriya və Livan ədiblərinin yaradıcılığına həsr olunan bu mövzunun işlənməsində əsas məqsəd ərəb -məhcər ədəbiyyatının bu qatı ilə bağlı faktları bir araya toplamaq və bu ədəbiyyatı yaradanları dünyaya tanıtmaq idi. İşin əhatə dairəsinin genişliyi, mənbələrin qıt olması gənc tədqiqatçını Moskvaya getməyə məcbur edir. SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna ezam olunan Aida xanım Şərqin məşhur bilicilərindən olan İosif Braginskinin rəhbərliyi ilə dissertasiyasını tamamlayır.

Düşüncə gəmisində dərin dəryaları aşanları bəşəri dəyərlərin ayrılıqda nə Şərqə, nə də Qərbə məxsus olmadığını anlayanların əksəriyyəti bu qənaətdə idi ki, “dünya malı” dünyada qalan kimi, sivil insan da insanlığın duyğu-düşüncəsinin, istedadının və zəhmətinin bəlgəsi olan həqiqətlərin ortağı, şərikidir. Ortaq dəyərlər, müştərək ideyalar anlayışı da məhz bu səbəbdən meydana gəldi.

“Avropa tarixin sonu, Asiya başlanğıcıdır” qənaətinə gəlsə də, çox zaman Şərq - İslam dəyərlərini yetərincə dəyərləndirmək iqtidarında olmayan Hegelə cavab bir əsr sonra Azərbaycandan – Şərqlə Qərbin körpüsü olan Odlar yurdundan verildi. “Şərqdə həyatın təkmilləşməsi üçün yalnız Qərbin həyatı və fəlsəfi idrakın dərinliyi bəs olmadığı kimi, mədəni nailiyyətlər və texniki tərəqqi də hələ insanın mənəvi və sosial dirçəlişi üçün kifayət deyil” qənaəti şərqli Aida İmanquliyevaya məxsus idi. Onu XX yüzilin, Şərqin, Türk dünyasının, müsəlman aləminin səsi kimi də qəbul etmək olardı. Bu bir gerçəklik idi.

XXI əsrdə dünyanı bürüyən qloballaşma siyasəti, sivilizasiyaların dialoqu ideyası, mədəniyyətlərin inteqrasiyası prosesi bu faktın zamanında ortaya qoyulduğunu təsdiq edəcəkdi. 1966-cı ilin martında Şərq özünün gözəl bayramlarından birini – Novruzu qeyd etdiyi ərəfədə Aida xanım hər iki məşhur elmi rəhbərinin – Rüstəm Əliyevin və İosif Braginskinin xeyir-duası ilə dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi aldı. Onun bahar bayramında şərqşünas alim, özü də ilk müsəlman, türk, azərbaycanlı şərqşünas qadın alim kimi özünü təsdiq etməsi Şərqin yeni günəşinin qadın, Ana üzündə parlaması, yurdu nura qərq etməsi idi.

Ötən əsr Azərbaycan ictimai-siyasi fikrinə, ədəbi-mədəni həyatına o qədər böyük istedadlar bəxş edib ki, bu gün onların haqqında, sadəcə, siyasət, elm, mədəniyyət və ədəbiyyat adamları kimi söhbət açmaq olmur. Bu da var ki, 1920-ci ildə Şura hökuməti qurulduqdan, Azərbaycan Demokratik Cümhuriyyətinin süqutundan sonra Azərbaycanı mənəvi terror dalğası bürüdü. Şərqdə ilk demokratik respublika quran Azərbaycan ziyalılarının vətəndə qalanları repressiyalara uğradılaraq Sibirə, Qazaxıstana sürgün edildilər. Vətəndən qırağa çıxan, əslində isə əcəldən macal tapan vətənpərvərlərimiz sonadək mühacirət həyatı yaşadılar. M.Ə.Rəsulzadə, Ə. Topçubaşov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, C.Hacıbəyli, M.Məmmədzadə, Almas İldırım kimi istiqlal fədailəri, müqtədir qələm sahibləri siyasi fəaliyyətlərinin mühacirət üzünü yaşayaraq, milli mənlik və kimlik uğrunda mücadilələrini Türkiyədə, Avropanın müxtəlif ölkələrində davam etdirdilər. Tarixin bu acı səhnəsindən dərs alan, mühitin, zamanın millətinə yasaq buyurduğu haqlar uğrunda mübarizəyə qalxan Aida xanım İmanquliyeva SSRİ məkanında basqılara məruz qalan türklərin - Türküstanda Çolpanın rəhbərlik etdiyi “Cığatay gürüngü” ədəbi birliyinin üzvlərinin, Bakıda Seyid Hüseynin qurucusu olduğu “Yaşıl qələmlər” birliyinin repressiya qurbanı olmuş yazarların haqq səsinə nəfəs verdi.

Şərqdən Qərbə, Latın Amerikasına mühacirət edən ədiblərin yaradıcılığını tədqiq etməklə, onların əsərlərində qoyulan ideyaları müdafiə etməklə Hüseyn Cavid, Cübran Xəlil Cübran kimi ədiblərin əsərlərindəki müştərək ideyaların eyni ağrıdan boy aldığını, vahid amala xidmət etdiyini elmi əsaslarla sübut etməklə mənəvi dəyərlərimizə sahib çıxmış oldu. Şübhəsiz ki, bunun başlıca səbəbi Aida xanımın mənsub olduğu xalqın, millətin söykəndiyi dəyərlər, yaşadığı gerçəklər idi. Bu, adi gerçəklər deyildi: “Harada ki, sülh var, xeyir var, məhəbbət var, orada Allahın özü var”, – deyib Allahsız və mədəniyyətsizcəsinə məscidləri klublara, anbarlara çevirən, “allahsızlar partiyası” yaradıb ciblərə “allahsız knişkası” qoyan quruluşa etiraz idi. Ziyalının, müəllimin, böyük mənada isə Vətəndaş, Alimin etirazı idi.

Çünki o, dünyaya göz açanda Azərbaycanda repressiya, mənəvi terror hələ bitməmişdi. Gecələr gələn qara maşınların ziyalıları gedərgəlməzə apardığı ağır günlər davam edirdi. Əgər II Dünya müharibəsi başlanmasaydı, sovetlər bu müharibəyə sürüklənməsəydi, çox qapılar çırpılacaq, çox evlərin çırağı qaralacaqdı. 1941–45-ci illər müharibəsi də minlərlə sovet adamının ömrünə son qoyub, şikəstə, əlilə çevirdiyi dövrdən Aida xanımında uşaqlığına da pay düşmüşdü. Onun ərəb-məhcər ədəbiyyatına könül verməsinin başlıca səbəbi Azərbaycan mühacirlərinin Vətən, torpaq sevgisini, yurd nisgilini anlamaq və anlatmaq duyğusu idi.

Tədqiq etdiyi ədiblərin yaradıcılıqları ilə bağlı elmi fikirlər irəli sürüb, monoqrafiyalar yazmaqla bərabər, “Dünyanın dərki, əslində, qəlbin dərinliklərindəki gizli qatların oyanışı sayəsində mümkün olur”, – deyən Aida xanımın şərqşünas alim kimi ən böyük uğuru onda idi ki, o, dövrün ictimai-siyasi xəritəsini çəkir, ədəbi-bədii, fəlsəfi mühitlərin mənzərəsini yaradırdı. Bu gün demokratik dəyərlərin inkişaf etdiyi, açıq sözün söyləndiyi bir zamanda bu fikirləri söyləmək çox asan görünə bilər. İnformasiya texnologiyalarının olmadığı, sərhədlərin qapalı qaldığı, ideya döyüşlərinin, soyuq müharibənin tüğyan etdiyi 60-cı illərdə bu fikirləri söyləmək o qədər də asan deyildi. Özü də nəzərə alaq ki, bu fikirlərin sahibi Şərqin bir çox yörələrində müsəlman qadını hələ də dünyanı qara çadranın altından seyr etdiyi vaxtlarda cavan bir alim xanım idi. Aida İmanquliyeva Şərqin, türk dünyasının o qadınlarından idi ki, xatun ucalığından, ana siqlətindən, alim dəyanətindən müsəlman dünyasına boylanır, onun inkişafını, cəhalətdən və səfalətdən qurtuluşunu ideya və məfkurə birliyində görürdü.

Amerikaya, Fransa, Türkiyə və Avropanın başqa diyarlarına mühacirət etsələr də, ruhlarını Vətənə əmanət edən ərəb yazarları Vətən sevgisinə, azadlıq eşqinə söykənib yaşadıqları kimi, Aida xanım da qələminə söykənib qoca Şərqə 60-cı illərdən şərqilər söyləyir: “Qələmlər Birliyi” ilə Avropaya, Latın Amerikasına müsəlman mədəniyyəti və dəyəri gətirən ərəb fədailərinin haqq səsinə dönən Mixail Nüaymə irsinin carçısına çevrilərək söyləyir: “Mixail Nüaymə yeni həyat quruculuğu prosesinə böyük enerji, heyrətamiz fədakarlıqla qoşulan, bu hərəkatda tarixi keçmişinin özünəməxsusluğunu və zənginliyini unutmayan ərəb ziyalılarının ən qabaqcıl, həssas və istedadlı oğulları sırasında olmuşdur”.

“Mixail Nüaymə və “Qələmlər Birliyi” monoqrafiyasından sonra Aida xanımın ikinci ən böyük əsəri 1975-ci ildə işıq üzü görmüş “Cübran Xəlil Cübran” monoqrafiyasıdır. Uzaq Amerikada – Nyu-Yorkda ərəb ziyalılarını birləşdirən ideya və məfkurə birliyindən söhbət açan ünlü müəllif Cübran Xəlil Cübranın da yaradıcısı, qurucusu olduğu cəmiyyətin əhəmiyyətindən danışarkən qeyd edir: “Bu cəmiyyətin yaranması yeni ərəb mədəniyyətinin inkişafında görkəmli rol oynayan təzə və böyük ədəbi məktəbin meydana gəlməsi demək idi”.



Aida xanım Şərqin bu istedadlı qələm və fırça sahibinin haqqa xidmətdə bulunduğunu söyləyir. O, Cübran Xəlilin bu sahədəki xidmətləri barədə yazır: “Cübran Xəlil Cübran hansı məsələdən danışırsa danışsın, o, həmişə mütəfəkkir, böyük sənətkar, söz ustası və öz xalqını, bütün bəşəriyyəti hədsiz dərəcədə sevən bir insan olaraq qalır”. Aida xanım bütün ömrünü “Müasir ərəb ədəbiyyatının korifeyləri” monoqrafiyası ilə yeni bir dünya – müasir ərəb ədəbiyyatı ilə bağlı sanballı mənbə yaratmış oldu. 1992-ci ildə işıq üzü görən kitab bu böyük alimin elmi ictimayyətə təqdim etdiyi son, möhtəşəm əsər idi.

Şərqşünas alim kimi arxada qoyduğu 30 ilə abidə ucaldan Aida xanım ərəb ədəbiyyatı korifeylərinin fikirlərini, düşüncələrini tədqiqata cəlb edə-edə özü də ucalırdı. Akademik üslubdan çox bədii, publisistik ruha köklənən Aida xanım bu əsəri ilə özünün təkcə alim, şərqşünas obrazını deyil, şair, yazıçı, mütərcimliyini də təqdim etdi. Onun bu qüdrəti ərəb məhcər ədəbiyyatının müxtəlif sahələrinə həsr olunmuş məqalələrində, özünün təşkil etdiyi konfrans və simpoziumlarda təsdiqlənirdi. Şərqşünas alimlər Ziya Bünyadov, Vasim Məmmədəliyev, İosif Braginski, İrina Bılik, Anna Dolinina, Aleksandr Kudelin, Valeriya Kripçenko, Malik Qarayev, İ.Filiştinski, O.Frolova dəfələrlə onun hökmlərinə şərik çıxırdılar.

Bir vaxtlar təhsil aldığı Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəb filologiyasından mühazirələr oxuyan Aida xanım pedaqoq alim kimi Azərbaycan, ərəb, rus və Avropa ədəbiyyatlarının müqayisəsini verir, biri digərindən qidalanaraq formalaşan bu ədəbiyyatların bəşəriyyətə bəxş etdiyi dəyərlərdən soraqçı olur, müasir ərəb ədiblərinin əsərlərinin tərcüməsini ədəbi-mədəni əlaqələrimizin inkişafında körpü hesab edirdi. Aida xanım ömrünün 30 ilini təmənnasız sərf etdiyi, məhəbbətlə bağlışladığı şərqşünaslıq elmində öz möhürünü vurdu. Adını Azərbaycanın və dünyanın tanınmış şərqşünaslarının, ərəbşünas alimlərin cərgəsinə yazdı.

Tanrının ona bəxş etdiyi istedadın, zahiri və batini kamilliyin, gözəlliyin işığını elmimizin üstünə salan Aida xanım əhatəli yaradıcılığı ilə “Ərəb filologiyası məsələləri”, “Yaxın və Orta Şərq”, “Sovet şərqşünaslığının problemləri və perspektivləri”, “Şərqin problemləri: tarix və müasirlik”, “Romantizmin problemləri və Şərq” adlı əsərləri, məqalələri ilə Şərqin təkcə ədəbi-fəlsəfi baxışlarına deyil, ictimai-siyasi quruluşuna, yaşam tərzinə də aydınlıq gətirdi.

Sent Bövün bioqrafik, İppolit Tenin mədəni, Vilhelm Dilteyin mənəvi tarixi, Yunqun analitik psixoloji, Bartın strukturalizm metodlarından, Şərqin böyük filosofu, düşüncə sahibləri olan Nizami Gəncəvinin İnsan sevgisindən, Məhəmməd Füzulinin İlahi eşqindən, İmadəddin Nəsiminin “Haqq mənəm, Haqq məndədir” ucalığından, rus klassiklərinin, Mirzə Fətəli Axundzadənin maarifçilik ideyalarından, Cəlil Məmmədquluzadənin realizmindən, Məhəmməd Hadinin romantizmindən keçərək özünün bütöv Dünya Modelini yaradan professor Aida İmanquliyeva ictimai, fəlsəfi sistemlərin mövcud olduğu elm, mədəniyyət, mənəviyyat və düşüncə səmasında Ağlının, Məntiqinin ulduzu ilə parladı.

Onun cismani yoxluğunu 1992-ci ilin payızından, sentyabrın 19-dan hesablayırlar. Əslində o, hər yazısından sonra bir dəfə mələklər kimi köç edir, sonradan yazı masasına qayıdıb bir başqa nəğmə oxuyur, dastan bağlayırdı. Yarım əsrdən azca çox, qısa, lakin mənalı ömür yolu ilə örnəyə çevrilən, əcəl şərbətini Şərqin qüdrətli sənət-söz adamları, fikir və düşüncə sahibləri kimi eşq badəsindən içərək ölümsüzlüyə qovuşan, “Məhəbbət və gözəllik, ağıl və kamal elə mənəvi işıqdır ki, qəlbi nurlandırır”, deyən elmi əsərləri, daxili və zahiri gözəlliyi, ömrünün yarısından çoxunu həsr etdiyi əsərləri ilə dəyərlər aynasına çevrilən Aida xanım Şərqlə Qərbin ortaq dəyərlərinin aynası olan əsərlərində yaşayır. Onun ünvanına tam uyğun gələn bir fikir də var. Qərbli filosof Emerson deyir: “Dahilərin bioqrafiyası qısa olur, çünki onların bütün həyatı yaradıcılığındadır”...

“İnsanın etdiyi xeyirxahlıq zahiri mərasimlərə riayət etməkdən yüksəkdə durur və buna görə onu mükafatlandıran Allah üçün daha əziz, daha istəniləndir” kəlamı ilə yerin və göyün mükafatına, Tanrının lütfünə layiq görülən Aida İmanquliyeva indi həm də övladlarının – bütün həyatını milli-mənəvi dəyərlərin qorunmasına, bəşəri idealların təntənəsinə həsr edən, batini kamilliyinə, şərqli məlahətinə, qərbli cizgiləri əlavə etməklə Qərbə şərqli badəsindən şərbət, Şərqə qərbli təfəkküründən nemət paylayan, dünyanın nicatını xeyirxahlıqda, mərhəmət və məhəbbətdə görən, Avropa və Asiyada xoşməramlı səfir kimi sonsuz hörmət və ehtirama layiq görülən Azərbaycan Mədəniyyəti Fondunun, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban xanım Əliyevanın Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, Azərbaycan – İngiltərə Dostluq Cəmiyyətinin sədri, elmin nizamişünaslıq və qafqazşünaslıq istiqamətlərini yenidən müəyyənləşdirən, silahları kitabların əvəz etməsi üçün ümumbəşəri dəyərlər sistemini zənginləşdirən, ÜNS Yaradıcılıq Səhnəsinin qurucusu, akademik Nərgiz xanım Paşayevanın həyata keçirdikləri genişmiqyaslı layihələrdə, sevimli nəvələri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın, “Bakı” Media Mərkəzinin qurucusu Arzu xanım Əliyevanın Vətən sevgisində, YARAT Müasir İncəsənət Məkanının rəhbəri Aida xanım Mahmudovanın, “Nargis” jurnalı ilə incəsənəti dəbə gətirən Ülviyyə xanım Mahmudovanın yazılarında, sənət əsərlərində, bir də yetirmələrinin, tələbə və aspirantlarının duyğularında yaşayır.



***Şəraf CƏLİLLİ,***
***yazıçı-publisist,***
***fəlsəfə doktoru***

# 9 aylıq vergi gəlirləri 12 milyard manatı keçib

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə cari ilin yanvar–sentyabr aylarında 12 milyard manatdan çox vergi daxil olub. Qurumun verdiyi məlumata görə, bu müddətdə vergi daxilolmalarının 8 milyard 418 milyon manatı və yaxud 70,2 faizi (ötən ilin müvafiq dövrünə nisbətən 13,4 faiz çox) qeyrineft–qaz sektorunun payına düşüb.**



Xatırladaq ki, son illərdə ölkədə tətbiq edilən vergi güzəştləri və sosial sığorta üzrə fərqli rejim bu sahədə şəffaflaşmanı gerçəkləşdirib. Bu istiqamətdə həyata keçirilən islahatlar qeyri–neft sektorunun özəl bölməsində münasibətlərin şəffaflaşmasına, sahibkarların yükünün azaldılmasına, daimi iş yerlərinin və sosial təminatı olan işçi qüvvəsinin yaradılmasına müsbət təsir göstərib. Nəticədə məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə daxilolmaların artımı nəzərə çarpıb.

Ölkədə sahibkar–dövlət münasibətlərində etimad da getdikcə güclənir. Bu isə vergi öhdəliklərinin könüllü yerinə yetirilməsində müsbət dinamika ilə müşahidə olunur. Son vaxtlar aparılan inzibatçılıq və qanunvericilik islahatları isə vergi öhdəliklərinə əməletmənin asanlaşmasını şərtləndirir, eyni zamanda, qeyri–neft sektoru üzrə büdcəyə vergi daxilolmalarının artım tempi qeyri-neft ÜDM-nin artım tempini üstələyir.

Ümumiyyətlə, hazırda sosial-iqtisadi sahələrdə həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir. İqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, "kölgə iqtisadiyyatı"nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, intizamlı biznes üçün mühitin təmin edilməsi vergi siyasətinin əsas istiqamətləridir.

Məhz bunun nəticəsidir ki, son bir neçə ildə biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, əgər 2018-ci ilə, yəni vergi sistemində "yeni keyfiyyət başlanğıcı" adlandırılan dövrün əvvəlinə qayıtsaq, istər vergi sistemində, istərsə də biznes–dövlət münasibətlərində böyük dəyişikliklər qeydə alınıb.

Azərbaycanda iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində müəyyənləşdirilən hədəfə nail olmaq üçün dövlət–sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilir. Bütün bunların nəticəsində qeyri-neft sektorunun inkişafında əhəmiyyətli irəliləyişlərə nail olunur.

Son illərdə bütün bu istiqamətlərdə gerçəkləşdirilən təşəbbüslər ölkəmizin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırıb, sahibkarlıq sahəsində sürətli inkişafın davamlılığını təmin edib və rəqabət qabiliyyətini möhkəmləndirib, eyni zamanda, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırıb.

Azərbaycanda hazırda "kölgə iqtisadiyyatı"nın azaldılması məqsədilə vergi qanunvericiliyində dəyişikliklər edilməklə yanaşı, vergi inzibatçılığında da mütəmadi olaraq təkmilləşdirmələr aparılır. Bu, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsini, vergiödəyicilərinə xidmətlər çeşidinin artırılmasını və özəl bölmədə biznesin fəaliyyətinə səmərəli şəraitin yaradılması şərtləndirir.

Yeri gəlmişkən, vergi xidməti strukturunda aparılan islahatlar çərçivəsində yeni vergi orqanları təsis edilib– əvvəllər işğal altında olan rayonların vergi şöbələrinin bazasında Qarabağ Ərazi Vergilər Baş İdarəsi və Şərqi Zəngəzur Ərazi Vergilər İdarəsi yaradılıb. Burada əsas məqsəd işğaldan azad olunan ərazilərdə vergi inzibatçılığının və idarəetmə modelinin respublikanın digər regionlarına və ümumi idarəetmə modelinə uyğunlaşdırılması, Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafının stimullaşdırılması, vergi ödəyicilərinin vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı rahatlığının təmin olunması, vergi xidmətlərinin əlçatanlığının gerçəkləşdirilməsi, həmin ərazilərin ölkə iqtisadiyyatına reinteqrqsiyasının sürətləndirilməsidir.

Dövlət Vergi Xidmətində həyata keçirilən struktur islahatları sırasında Vergi Risklərinin İdarə Edilməsi Baş İdarəsi yaradılması da mühüm əhəmiyyətə malikdir. Bu idarənin təsis edilməsində əsas hədəf vergi nəzarətinin səmərəliliyinin artırılması məqsədilə vergidənyayınma risklərinin əvvəlcədən təhlil olunması və aşkarlanan risklər əsasında tədbirlərin keçirilməsi mexanizminin qurulmasıdır.

Xatırladaq ki, bununla da vergi ödəyicilərinin vaxtına qənaət olunacaq, vergi orqanlarının resursları risk potensialı daha yüksək olan vergi ödəyicilərinə yönəldiləcək, resursların bölüşdürülməsi optimallaşdıracaq. Eyni zamanda, vergi inzibatçılığının təkmilləşdirilməsi və çevik nəzarət mexanizmlərinin formalaşdırılması sahibkarlıq subyektlərinin vergi öhdəliklərinin icrasında mümkün risk amillərini aradan qaldırmağa, vergi nəzarəti tədbirlərinin ünvanlılığının təmin edilməsinə, riskli vergi ödəyiciləri ilə işin sürətləndirilməsinə müsbət təsir göstərəcək.

Vergi Ombudsmanı Xidməti Baş İdarəsinin yaradılmasında isə əsas hədəf vergi orqanlarında vergi ödəyicilərinin hüquqlarının pozulmaması üçün preventiv tədbirlərin görülməsi, pozulmuş hüquqların bərpası və şikayətə səbəb olan halların aradan qaldırılması ilə bağlı səmərəliliyin artırılması, sahibkarların qarşılaşdığı çətinliklərin həllində onlara əlavə dəstək verilməsidir.

Dövlət Vergi Xidmətində həyata keçirilən islahatlar çərçivəsində bəzi funksiyalar da mərkəzləşdirilib. Yeni struktur əvvəllər fərqli vergi orqanları daxilində fəaliyyət göstərən funksiyaları vahid çətir altında birləşdirərək vahid vergitutma çərçivəsini yaradacaq. Bu konsolidasiya prosesləri sadələşdirmək, izafi resurs sərfini aradan qaldırmaq və vahid vergi inzibatçılığı sistemi yaratmaq üçün nəzərdə tutulub. Bununla əlaqədar olaraq Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Baş İdarəsinin bazasında Bakı şəhəri Operativ Vergi Nəzarəti və Uçotun Təşkili Baş idarəsi yaradılıb. Qeyd olunan dəyişikliklə Bakı şəhəri üzrə vahid uçot fəaliyyətini və operativ nəzarəti həyata keçirəcək vergi orqanı təsis edilib.

Bütün bunlardan başqa 4 ərazi vergi orqanının səyyar və kameral vergi yoxlamalar ilə bağlı funksiyaları Bakı Şəhər Lokal Gəlirlər Baş İdarəsinin müvafiq funksiyalarına birləşdirilib. Pilot olaraq tətbiq edilən bu layihə səyyar və kameral yoxlamalar sahəsində yeni yanaşmanın tətbiq edilməsi, yoxlamaların effektivliyinin artırılması, həmçinin qərarların qəbul edilməsi müddətlərinin optimallaşdırılmasına imkan verəcək.

Ümumiyyətlə, son illərdə ölkədə reallaşdırılan vergi islahatları qeyri-neft sektorunun özəl bölməsində münasibətlərin şəffaflaşmasına, sahibkarların yükünün azaldılmasına, daimi iş yerlərinin və sosial təminatı olan işçi qüvvəsinin yaradılmasına müsbət təsir göstərib. Nəticədə məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə daxilolmaların artımı nəzərə çarpıb.

Ölkədə sahibkar–dövlət münasibətlərində etimad da getdikcə güclənir. Bu isə vergi öhdəliklərinin könüllü yerinə yetirilməsində müsbət dinamika ilə müşahidə olunur. Son vaxtlar aparılan inzibatçılıq və qanunvericilik islahatları isə vergi öhdəliklərinə əməletmənin asanlaşmasını şərtləndirir, eyni zamanda, qeyri-neft sektoru üzrə büdcəyə vergi daxilolmalarının artım tempi qeyri-neft ÜDM-in artım tempini üstələyir.

Beləliklə, göründüyü kimi, son illərdə iqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, "kölgə iqtisadiyyatı"nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, əlverişli biznes şəraitinin yaradılması vergi siyasətinin əsas istiqamətləri kimi diqqət mərkəzində saxlanılıb. Hazırda isə vergi sahəsi ilə bağlı əsas hədəflərin, ilk növbədə, iqtisadi təşviq, effektiv nəzarət, rəqəmsallaşma prinsipləri əsasında reallaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub. İqtisadi diversifikasiya və investisiyaların cəlbində vergi siyasətinin tənzimləyici rolunun davam etdiriləcəyi və "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizənin yenə də əsas prioritet olaraq qalacağı nəzərdə tutulub.

# Paytaxt sənayesində özəl sektorun payı 82 faizi ötüb

**Bakı Şəhər Statistika İdarəsindən aldığımız məlumata əsasən, cari ilin yanvar–avqust aylarında paytaxt sənayesində istehsal olunan malların və göstərilmiş xidmətlərin həcmi 35,4 milyard manat təşkil edib. Sənaye məhsulunun 75,9 faizi mədənçıxarma, 20,9 faizi emal, 2,3 faizi elektrik enerjisi istehsalı və təchizatı, 0,9 faizi isə su təchizatı sektorlarının payına düşüb.**



Sənayedə qeyri-dövlət sektorunun payı 82,5 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 90,1 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 9,9 faiz təşkil edib.

İstehsal edilən məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranan ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 sentyabr 2024-cü il vəziyyətinə 470,2 milyon manatlıq hazır məhsul ehtiyatı olub.

Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınan və satış üçün nəzərdə tutulan 31,4 milyon manat məbləğində digər məhsullar da saxlanılıb.



# Bakıda ticarət həcmi 5 faiz artıb

**Bakıda ticarət dövriyyəsinin həcmi cari ilin yanvar–avqust aylarında 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz artaraq 21 milyard 521 milyon manat olub.**

Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz artaraq 11 milyard 722,1 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 6,2 faiz artaraq 9 milyard 798,9 milyon manata bərabər olub.

İstehlak məhsullarının 37,2 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 47,8 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 15 faizi isə paytaxtın əmtəə bazarlarında satılıb.

# Ölkəmizdə də "Halal" sertifikat veriləcək

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutunun "AZSTANDART Halal" Sertifikatlaşdırma Orqanı Türkiyə Respublikasının Halal Akkreditasiya Qurumunda akkreditasiyadan keçib. Bununla da AZSTANDART beynəlxalq akkreditasiya tələblərinə cavab verən "Halal" sertifikatı vermək hüququ əldə edib.**

İnstitutdan aldığımız məlumata görə, "Halal" sertifikatının verilməsində əsas məqsəd istehsal olunan məhsul, xidmət və idarəetmə sistemlərində müvafiq qaydaların tətbiqi, həmçinin istifadəsinə şəraitin yaradılması, istehlakçıların halal məhsullar üzrə tələb və gözləntilərinin təmin edilməsi, eləcə də həmin məhsullarla bağlı etimadın formalaşdırılması, habelə halal məhsulların dövriyyəsinin stimullaşdırılmasıdır.

Xatırladaq ki, 2022-ci ildən etibarən Azərbaycanın İslam Ölkələrinin Standartlaşdırma və Metrologiya təşkilatında üzvlüyü təmin olunub. Bunun da AZSTANDART Türkiyə Respublikasının Halal Akkreditasiya Qurumunun 17 standartlaşdırma üzrə texniki komitəsində təmsilçiliyə başlayıb. İndiyədək AZSTANDART-da halal məhsullar və xidmətlərlə bağlı adıçəkilən qurumun standartları əsasında 6 yeni dövlət standartı qəbul edilib.




# Əmək müqaviləsi işçinin hüquqi müdafiəçisidir



**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflılığın təmin edilməsi, işçinin hüquqlarının qorunması istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 452 min artaraq bu il sentyabrın 1-nə 1 milyon 855 minə çatıb.**

Məlumata görə, qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 970 mini keçib.

# 9 ayda 167,6 milyon manat güzəştli kredit

**Sahibkarlığın İnkişafı Fondu müvəkkil kredit təşkilatları vasitəsilə cari ilin 9 ayı ərzində 4116 layihənin maliyyələşdirilməsinə 167,6 milyon manat güzəştli kredit ayırıb.**

Fonddan aldığımız məlumata əsasən, yanvar–sentyabr aylarında sahibkarların investisiya layihələrinə verilmiş güzəştli kreditlərin sayına görə "Bank Respublika", "Rabitabank", "AccessBank", "Yelo Bank" və "Aqrarkredit" maliyyə qurumları fərqləniblər.



Qeyd edək ki, sahibkarlar fondun güzəştli kreditlərindən yararlanmaq üçün müvəkkil kredit təşkilatlarına müraciət etməlidirlər. Müvəkkil kredit təşkilatlarına fondun əməkdaşlıq etdiyi banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları aiddir.

# "ƏDV al" – 130 milyon 574 min manat!

**Bu ilin yanvar–sentyabr aylarında pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdiyi tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 130 milyon 574 min manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, "ƏDV geri al" layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində istehlakçılar tərəfindən ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam edir. 9 ay ərzində nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan məbləği 16 milyon 463 min manatdan çox olub.



# Ticarət evimiz hər il Belarusa 1 milyon dollarlıq mal satır

**"Azərbaycan Ticarət Evi" MMC-nin təsisçisi Vasif İsmayılovun əməkdaşımıza bildirdiyinə görə, rəhbərlik etdiyi qurum 2017-ci ildə fəaliyyətə başlayıb və Belarusa göndərilən məhsullarla bu ölkənin bazarında geniş alıcı rəğbəti qazanıb. O əlavə edib ki, Ticarət evi Belarusun ticarət şəbəkələri ilə məhsul ixracı haqqında çoxsaylı müqavilələr imzalayıb. V.İsmayılov daha sonra hazırda Belarusun bütün mağazalarında Azərbaycan malları satıldığını, hər il bu ölkəyə 1 milyon dollarlıq mal göndərildiyini vurğulayıb.**

Belarusun Baş naziri Roman Qolovçenko Azərbaycanın Baş naziri Əli Əsədovun başçılıq etdiyi nümayəndə heyəti ilə birlikdə sahəsi 540 kvadratmetr olan Ticarət evinin ekspozisiyası ilə tanış olub. Burada respublikamızın 20-dən çox müəssisəsinin məhsulları nümayiş etdirilir. Çeşidlərə şərab, konyak, çay, şirə, konserv, kabel məhsulları, xalça, ipək, tekstil və kosmetika daxildir.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




# Qlobal iqlim konfransının Bakı Zirvəsi

## *Azərbaycan paytaxtı ekoloji fəlakətlə savaşa 14 əsas təşəbbüslə gedir*

**Katibliyi Bonnda yerləşən və 1995-ci ildə Berlin şəhərində ilk toplantısı keçirilən COP-un sonuncu–28-ci konfransı ötən il Dubayda reallaşıb. Yüz minə yaxın nümayəndəni bir araya gətirən COP28 BMT tarixində ən genişmiqyaslı tədbir olub. Konfrans çərçivəsində təşkil edilən Zirvə toplantısına 120-dən artıq dövlət və hökumət başçısı qatılıb.**

Yeri gəlmişkən, COP-a evsahibliyi müəyyən qayda əsasında həyata keçirilir. Belə ki, evsahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edilir. Hər regional qrup üzvləri tərəfindən bu konfransı gerçəkləşdirəcək bir ölkəni seçmək üçün konsensusla qərar qəbul olunur. 2024-cü il COP29-a evsahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupu üzərinə düşüb. Həmin qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsini təklif edib. Respublikamızla yanaşı, Ermənistan və Bolqarıstan da öz namizədliklərini irəli sürüb.

Xatırladaq ki, 2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Ofisi arasında aparılan birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyindən geri çəkilib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri çəkmək qərarına gəlib və beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu tərəfindən Azərbaycan 2024-cü ildə COP-a evsahibliyi edəcək ölkə kimi müəyyənləşdirilib. Rəsmi qərar isə dekabrın 12-də plenar iclas zamanı verilib.

Burada diqqətçəkən bir məqamı da xatırlatmaq istərdik. Yuxarıda vurğulandığı kimi, COP konfranslarının ev sahibi ölkələrinin müəyyənləşdirilməsi dövlətlərin BMT-də üzv olduqları coğrafi qruplara əsaslanır. Həmin ardıcıllıqla dövlətlərin evsahibliyi müəyyənləşdirilir və etimad göstərilən ölkə 24 aya yaxın bir müddətdə üzərinə düşən missiyadan xəbərdar olur. Həmin vaxtdan da iqlim konfransına hazırlıq başlayır.

Azərbaycanın belə bir nüfuzlu tədbirə sahiblik edəcəyi proseduruna başlaması isə seçim şərtlərinin sərtləşməsi və mürəkkəb regionda yerləşməsi üzündən bir qədər fərqli olub. Buna görə də tədbirin təşkilini gerçəkləşdirməyə 11 aydan da az bir müddət lazım gəlib. Amma buna baxmayaraq qısa müddətdə genişmiqyaslı hazırlıq layihələri gerçəkləşdirilib, Bakı Olimpiya Stadionu əsas tədbir məkanı kimi seçilib, hazırlıq dövründə tədbirin təşkilati məsələlərinin həlli məqsədilə COP29 Sədrliyinin ofisi formalaşdırılıb, Əməliyyat Şirkəti yaradılıb.

İqlim konfransına hazırlıq mərhələsində COP29 Sədrliyi 14 əsas təşəbbüs irəli sürüb. Həmin təşəbbüslərin müəyyənləşdirilməsində də dünya ictimaiyyətinin gözləntiləri nəzərə alınıb və aktual problemlərə xüsusi diqqət yetirilib. Builki COP üçün isə iqlim maliyyələşməsi əsas mövzu kimi seçilib.

Ekspertlər bildirirlər ki, iqlim maliyyələşməsinin gerçəkləşməsində maliyyəni verən və qəbul edən tərəflər müəyyənləşir. Həmin tərəflər arasında fikir ayrılığı belə müşahidə edilsə də, proseslərin şəffaflığı diqqət mərkəzində saxlanılır. İqlim maliyyəsi deyəndə isə əsasən, onun şəffaf mexanizmlər əsasında tərəflər arasında bölünməsi və maliyyə resurslarının cəlbi nəzərdə tutulur. Bu, COP Sədrliyinin diqqətində olan ən mühüm məsələlərdən biri kimi dəyərləndirilir.




COP29-da şəffaflıq prinsipini artırmaq üçün “Bakı qlobal iqlim şəffaflığı platforma”sı təsis edilib. Platforma çərçivəsində kommersiya tərəfi olan ölkələrin iqlim konfransına qədər öz şəffaflıq hesabatlarını təqdim etmələri qarşıya əsas vəzifə kimi qoyulub. Bununla bağlı bütün tərəflərlə danışıqlar aparılıb. Toplantılar Bakı Olimpiya Stadionu ilə yanaşı, digər məkanlarda da keçiriləcək. Tədbir ərazisi iki zonadan ibarət olacaq. Bunlardan biri BMT üçün nəzərdə tutulan “mavi”, digəri isə iqlim ictimaiyyəti və şirkətlərin cəlb olunacağı “yaşıl” zonalardır.

İqlim konfransından əvvəl, oktyabrın 10–11-də PreCOP adlanan tədbir keçiriləcək. Müxtəlif ölkələrin ekologiya nazirlərinin iştirak etdikləri bu toplantıda qarşıda duran məsələlər barədə müzakirələr aparılacaq. İqlim konfransı zamanı “Tematik gün”lərdən istifadə ediləcək. COP29-da reallaşacaq bütün tədbirlər, məsləhətləşmələr, danışıqlar həmin günlərdə müvafiq qaydada qruplaşdırılacaq.

İqlim konfransı çərçivəsində noyabr ayının 12 –13-də Liderlər Sammitinin təşkil olunması nəzərdə tutulur. Bu, BMT-nin Baş Assambleyasından sonra ən çox dövlət və hökumət başçısının qatıldığı tədbirdir və mahiyyət etibarilə də bütün dünya ictimaiyyətinin diqqətində olur.

COP29-a yüksək səviyyədə hazırlıq işlərinin görülməsini BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının konfrans işləri şöbəsinin direktoru Vasim Mir yüksək dəyərləndirib. Onun sözlərinə görə, Azərbaycanın COP29-a hazırlaşmaq üçün az vaxtı olsa da, böyük irəliləyiş əldə edib.

Vasim Mir bununla bağlı deyib: “Yanvar ayında Bakıya faktaraşdırıcı missiyanın rəhbəri kimi gəlmişdim və həmin vaxt biz COP29-un keçirilməsi üçün müxtəlif yerlərə baxdıq, sonda isə yekdilliklə ən uyğun yerin Olimpiya Stadionu olduğu qərarına gəldik. Həmin vaxtdan etibarən biz COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə Olimpiya Stadionunun COP-a hazırlanması istiqamətində sıx işləyirik. Bu gün isə görülən işləri qiymətləndirmək üçün buradayam. Ötən müddət ərzində məkanda hazırlıq baxımından xeyli irəliləyiş əldə olunub. Düzü, Azərbaycanın COP29-u uğurla həyata keçirmək üçün çox yaxşı bir vəziyyətdə olduğuna inanıram. Hazırda bizim nəqliyyat, qidalanma, təhlükəsizlik, yaşayış yerləri və COP üçün yerinə yetirilməsi lazım olan bütün istiqamətlər üzrə inkişaf planlarımız mövcuddur”.

BMT nümayəndəsinin sözlərinə görə, COP BMT-nin hər il keçirilən ən böyük konfransıdır və COP29-da iştirak üçün Bakıya 40–50 min insanın gələcəyi proqnozlaşdırılır. Təbii ki, bu, həyata keçirilməsi kifayət qədər mürəkkəb olan bir tədbirdir. Ona görə hazırlıq işləri çoxşaxəlidir. Qısa bir müddətdə yaşayış yerlərindən tutmuş təhlükəsizlik, qidalanma, IT və kommunikasiya kimi 25 fərqli istiqamət üzrə iş aparılır və bu istiqamətlərin hər birində irəliləyiş əldə olunur.

Vasim Mir maraqlı bir məqama da toxunub: “COP-la bağlı əsas məsələlərdən biri hər bir ölkədən nümayəndələrin tədbirdə iştirak edə bilməsi üçün onun inklüziv bir proses olmasını təmin etməkdir. Bunun bir hissəsi olaraq İştirak Üçün Etimad Fondu adlanan bir mexanizmimiz var. Bu fond inkişaf etməkdə olan ölkələrin, xüsusilə də dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr və kiçik ada dövlətlərinin nümayəndələrinin iştirakını maliyyələşdirir. Cari il COP29 üçün biz 144 ölkədən iştirakın maliyyələşdirilməsini təmin edəcəyik”.

# Beynəlxalq təşkilatlar ekoloji çağırışları dəstəkləyir

**Son illərdə iqlim dəyişikliyi mövzusu ərzaq təhlükəsizliyi məsələləri ilə daha sıx əlaqələndirilir ki, bu da COP və BMT-nin Dünya Ərzaq Proqramı arasındakı əməkdaşlığın əhəmiyyətini şərtləndirir. Bu təşkilatların birgə səyləri aclıqla mübarizəyə və xüsusilə iqlim dəyişikliyinin təsirlərindən əziyyət çəkən həssas regionlarda milyonlarla insanın həyat şəraitini yaxşılaşdırmağa yönəlib.**




Uğurlu əməkdaşlığın parlaq nümunələrindən biri “Fəallar üçün ərzaq yardımı” proqramıdır. Bu təşəbbüs çərçivəsində iqlim risklərinə məruz qalan icmalarda dayanıqlı gəlir mənbələrinin yaradılması və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması üçün qüvvələr birləşdirilir. Layihələri arasında deqradasiyaya uğramış torpaqların bərpası, suvarma sistemlərinin yaradılması və dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi də yer alır.

Uğurlu təşəbbüslərdən biri də “Ərzaq təhlükəsizliyi üçün iqlim adaptasiyası və dayanıqlılığı” proqramıdır. Bu proqram çərçivəsində iqlim dəyişikliyinə ən həssas olan ölkələrdə ərzaq sistemlərinin dayanıqlığını artıran adaptasiya tədbirləri hazırlanır və həyata keçirilir. Məsələn, Malavidə kənd təsərrüfatının uyğunlaşdırılması layihəsi çərçivəsində dayanıqlı kənd təsərrüfatı üsullarının tətbiqi və su təminatının yaxşılaşdırılması sayəsində məhsuldarlığı xeyli artırmaq və quraqlıq səbəbindən məhsul itkisi riskini azaltmaq mümkün olub.

COP-un əməkdaşlığı yalnız BMT-nin Dünya Ərzaq Proqramı ilə məhdudlaşmır. Belə ki, COP və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında əməkdaşlıq dayanıqlı kənd təsərrüfatının təşviqi və iqlim dəyişikliyi şəraitində ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Tərəflər arasında əməkdaşlığın ən mühüm nümunələrindən biri iqlim dəyişikliyini nəzərə alan dayanıqlı kənd təsərrüfatını təşviq edən “İqlimə dayanıqlı kənd təsərrüfatı” təşəbbüsüdür. Proqram ekstremal hava şəraitinə qarşı dayanıqlığı artıran, su resurslarının idarə edilməsini yaxşılaşdıran və biomüxtəlifliyi qoruyan metodların tətbiqini əhatə edir. Nepalda bu təşəbbüs sayəsində fermerlər təsərrüfatlarını dəyişən iqlim şəraitinə uyğunlaşdıraraq məhsuldarlığı artırmağa və təbii fəlakətlərdən itkiləri azaltmağa müvəffəq olublar.

Bundan əlavə, “Qlobal torpaq tərəfdaşlığı” COP və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə səylərini birləşdirdiyi daha bir uğurlu təşəbbüsdür. Bu layihə ərzaq təhlükəsizliyini gerçəkləşdirən torpaq resurslarının mühafizəsi və bərpasına yönəlib. Ən müasir tenoloji sistem çərçivəsində torpaqların eroziyasının qarşısının alınması, onların məhsuldarlığının artırılması və torpaqlarda karbonun saxlanması kimi tədbirlər həyata keçirilib ki, bu da iqlim dəyişikliyinin təsirlərinin yumşalmasına kömək edib. Məsələn, Latın Amerikası ölkələrində torpaq idarəçiliyinin yaxşılaşdırılması məhsuldarlığın artmasına və istixana qazı emissiyalarının azalmasına gətirib çıxarıb.

COP-un Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu ilə əməkdaşlığı isə iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalan kənd icmalarının yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəlib. Bu baxımdan ən uğurlu təşəbbüslərdən biri COP-un dəstəyi ilə hazırlanan “Kiçik fermer təsərrüfatları üçün adaptasiya proqramı”dır. Bu proqram kiçik fermerlərə dəyişən iqlim şəraitinə uyğunlaşmağa kömək etmək məqsədi daşıyır. Məsələn, Nigerdə həmin proqram əsasında müasir aqromeşəçilik üsulları və suya qənaət sistemləri hesabına kənd təsərrüfatının quraqlığa davamlılığı xeyli yaxşılaşıb və məhsuldarlıq artıb.

Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu COP ilə birgə həyata keçirdiyi “Kənd yerləri üçün bərpaolunan enerji” layihəsini də kənd ərazilərində bərpaolunan enerji mənbələrinin inkişafına yönəldib. Nepalda bu təşəbbüs günəş panelləri və mini hidroelektrik stansiyaların tətbiqini reallaşdırıb, bu da uzaq kəndlərin enerji təminatını gerçəkləşdirib və kənd təsərrüfatının inkişafını sürətləndirib. Bərpaolunan enerji mənbələrindən istifadə, həmçinin istixana qazı emissiyalarını azaltmağa və yerli sakinlərin yaşayış şəraitini yaxşılaşdırmağa müsbət təsir göstərib.

COP konfranslarında indiyədək qəbul edilən bir sıra önəmli qərarların icrası da beynəlxalq təşkilatların diqqət mərkəzində olub. Məsələn, 1997-ci ildə keçirilən COP3-də “Çeviklik mexanizmi” adlandırılan qərarın reallaşdırılmasına xüsusi əhəmiyyət verilib və Kioto protokolu çərçivəsində 2008–2012-ci illər arasında istixana qazı emissiyalarının 1990-cı ilin səviyyəsindən 5 faiz aşağı salınması öhdəliyi götürülüb. 2006-cı ildə Nayrobidə keçirilən COP12-də inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə uyğunlaşma qabiliyyətlərini artırmaq üçün Nayrobi Adaptasiya Proqramı işə salınıb. COP15-də (Kopenhagen, 2009-cu il) isə qlobal istiləşmə səviyyəsinin 2°C-dən aşağı səviyyədə saxlanılması qərarı verilib.

Bütün bunlarla bərabər, Kankunda (COP16, 2010-cu il) inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinin nəticələrinin yumşaldılmasına və onlara uyğunlaşmalarına kömək etmək üçün “Yaşıl” İqlim Fondu təsis edilib. Durbanda keçirilən iqlim konfransında (COP17, 2011-ci il) isə bütün ölkələri əhatə edəcək yeni qlobal iqlim sazişinin hazırlanması üçün Durban Platforması qəbul olunub. Sonradan bu, 2015-ci ildə Paris Sazişinin qəbulunu şərtləndirib.

COP konfranslarında iqlim təşəbbüslərinin maliyyələşdirilməsi də diqqət mərkəzində saxlanılıb və bu məqsədlə hər il 100 milyard dollar toplanılması razılaşdırılıb. Yeri gəlmişkən, COP29 çərçivəsində maliyyələşmənin 150 milyard dollara qədər artırılması məsələsinin müzakirə ediləcəyi də nəzərdə tutulub.

# BMT COP29-a hazırlığı yüksək dəyərləndirir

**Bosniya və Herseqovinanın BMT yanında daimi nümayəndəsi, bu ölkənin sabiq baş naziri Zlatko Laqumdzija mediaya müsahibəsində Azərbaycanın COP29-a evsahibliyi etməsinin tarixi hadisəyə çevrildiyini və bu tədbirə yüksək səviyyədə hazırlaşdığını bildirib.**



Diplomat vurğulayıb ki, COP29-un əsas məsələlərindən biri iqlim dəyişikliyinin maliyyəsidir. Bu mövzuda Azərbaycan paytaxtında dünyanın çox böyük gözləntiləri var: “Ötən müddət ərzində COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayevin rəhbərliyi altında uğurlu danışıqların və görüşlərin keçirilməsi diqqətəlayiqdir. Azərbaycanın sədrliyi ilə keçirilən COP29-da iqlim maliyyəsi ilə bağlı əhəmiyyətli irəliləyiş olacağına böyük inam bəslənilir”, – deyə diplomat söyləyir.

COP29-un mövzu baxımından çox geniş və fərqli təşəbbüslərlə zəngin olduğunu bildirən Z.Laqumdzija qeyd edib ki, bu gün Azərbaycanda səhiyyə, təhsil, innovasiya, elm, texnologiya, iqlim dəyişikliyinə qadınların cəlb olunması, gender məsələləri və digər mövzular geniş müzakirə edilir. Bu sahələrdə aparılan paralel danışıqlar COP29-da vahid bir platformada birləşəcək. Hər bir təşəbbüsün uğurlu nəticələrini təhlil etmək vacibdir.

COP29-u digərlərindən fərqləndirən ən əsas cəhətlərdən biri də daha çox maraqlı tərəflərin iştirak etməsidir. Müxtəlif qeyri–hökumət təşkilatları, biznes ictimaiyyəti və digər bir sıra qurumlar bu tədbirdə təmsil olunacaq. Artıq yüzdən çox ölkə liderinin və dövlət nümayəndələrinin COP29-da iştirak edəcəkləri məlumdur. Hər kəs anlayır ki, əgər iqlim dəyişikliyinə qarşı təcili addımlar atılmasa, nəticələri çox ağır olacaq və bütün sektorlar bu təsirlə üzləşəcək”.

# AİB ilə “yaşıl” enerji sahəsində əməkdaşlıq



**Energetika nazirinin müavini Elnur Soltanov Asiya İnkişaf Bankının (AİB) Mərkəzi və Qərbi Asiya İdarəsinin baş direktorunun müavini Xiaohong Yangın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, söhbət zamanı ölkəmizin bankla uğurlu əməkdaşlıq əlaqələri, xüsusilə energetika sektorunun inkişafı üzrə həyata keçirilən birgə layihələr yüksək qiymətləndirilib.

Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində görülən işlər, “yaşıl” enerji istehsalı və ixracı üzrə hədəflər, həmçinin COP29 beynəlxalq konfransına hazırlıqlar barədə məlumat verilib, enerji sahəsində yeni istiqamətlər üzrə əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




# İqlim savaşı: milli öhdəliklər, qlobal hədəflər

**Son illər ərzində iqlim dəyişikliyi qlobal səviyyədə ən çox müzakirə olunan və aktual problemlərdən birinə çevrilib. İqtisadi artım, sənayeləşmə və əhalinin sayının çoxalması istixana qazlarının emissiyalarının yüksəlməsinə təsir göstərib və bu, planetdə iqlim tarazlığının pozulması ilə nəticələnib.**



Beynəlxalq aləmdə iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin və ölkələrin bu sahədə öhdəliklərinin icrasına nəzarət mexanizmlərinin işlənib hazırlanması artıq qlobal zərurətə çevrilib. Ekspertlər bildirirlər ki, iqlim dəyişikliyi ilə mübarizədə əsas vasitələrdən biri 2015-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində qəbul edilən Paris sazişi olub. Bu saziş qlobal istiləşməni 2°C-dən aşağı saxlamağı və potensial olaraq 1,5°C ilə məhdudlaşdırmağı hədəfləyib. Paris sazişi ilə bağlı hər bir iştirakçı ölkə emissiyaların azaldılması və iqlim dəyişikliyinə adaptasiya üzrə səyləri əks etdirən “Milli səviyyədə müəyyənləşdirilən töhfələr” hazırlamağı və həyata keçirməyi öhdəsinə götürüb. Burada adı çəkilən sazişdə nəzərdə tutulan məqsədləri gerçəkləşdirmək üçün müəyyən planlar hazırlamaqla yanaşı, həm də onların icrasına ciddi nəzarətin diqqətdə saxlanılması qarşıya önəmli vəzifə kimi qoyulub.

İqlim öhdəliklərinin icrasına nəzarət mexanizmlərinə monitorinq, hesabatlılıq və yoxlama sistemləri, maliyyə və texniki dəstək, eləcə də öhdəliklərin qiymətləndirilməsi, habelə nəzərdən keçirilməsi mexanizmləri kimi müxtəlif yanaşma və vasitələr daxildir. Bu mexanizmlər şəffaflığın, hesabatlılığın gerçəkləşdirilməsində və ölkələr arasında etimad səviyyəsinin artırılmasında mühüm rol oynayır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının iqlim sahəsində tədbirlərinin monitorinqi sənədində Beynəlxalq İqlim Fəaliyyəti Proqramının əhatə etdiyi və 51 ölkəyə yönələn iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin icmalı verilib. Bu, siyasətçilər və praktiklərdə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərindəki tendensiyalar haqqında aydın təsəvvür yaratmaq üçün hazırlanıb.

Adı çəkilən təşkilatın son hesabatı göstərir ki, “Milli səviyyədə müəyyənləşdirilən töhfələr” sənədi çərçivəsində iqlim dəyişikliyinin nəticələrinin azaldılması üzrə öhdəliklər Paris sazişinin məqsədlərinə nail olmaq üçün lazımi səviyyəyə çatmır.

Paris sazişinin yüzilliyin sonuna kimi temperaturu 1,5°C-ə qədər məhdudlaşdırmaq hədəfinə nail olmaq üçün 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını qlobal miqyasda 2019-cu illə müqayisədə 43 faiz azaltmaq lazımdır. Lakin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri 2020-ci il emissiyaları ilə müqayisədə tullantıları 28 faiz, bu təşkilata tərəfdaş ölkələr isə 5 faiz azaltmağı öhdələrinə götürüblər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının hesabatında bildirilir ki, Paris sazişinin hədəfinə nail olmaq üçün proqnozlaşdırılan azalmalara nail olmaq məqsədilə bu qurum və onun tərəfdaş ölkələri emissiyaların azaldılması üzrə hədəflərini, ümumilikdə, ən azı daha 30 faiz artırmalıdır.

Sözügedən təşkilatının riayət etdiyi iqlim qərarlarının artım sürəti 2022-ci ildə ləngiyib. Bu qurum ilə tərəfdaş ölkələrin milli iqlim tədbirlərinin artım sürəti 2022-ci ildə yalnız 1 faiz artıb. 2000–2021-ci illər ərzində imzalanan qərarların orta artım sürəti isə 10 faiz təşkil edib.

2022-ci ildə artımın ləngiməsi ölkələrin iqlim siyasətlərinə mənfi təsir edib. Məhz bunun nəticəsidir ki, dövlətlərin əvvəlki kimi mövcud siyasətləri sərtləşdirmək və ya hazırda geniş istifadə olunmayan yeni strategiyalar qəbul etmək üçün bir çox variantları (məsələn, tikinti və nəqliyyat sektorlarında karbon qiymətlərinin müəyyənləşdirilməsi, qadağalar və qazıntı yanacağı hasilatı, yaxud yaxud qazıntı yanacağına əsaslanan infrastrukturdan mərhələli imtina) yenidən nəzərdən keçirilib.

2010–2020-ci illər ərzində 14 ölkə emissiyalarını artırıb. Braziliya, Çin Xalq Respublikası, İndoneziya və Hindistan kimi ölkələrdə emissiyalar yüksəlsə də gözlənilən pik həddə çatmayıb. 2020-ci ildə emissiyaların artımı 2010-cu il səviyyəsi ilə müqayisədə Çində 34 faiz, Hindistanda isə 37 faiz təşkil edib. Ölkələr Paris sazişinin məqsədlərinə çatmaq üçün növbəti 10 il ərzində emissiyalarını əhəmiyyətli dərəcədə azaltmalı olacaqlar.

Beynəlxalq Enerji Agentliyinin (BEA) icraçı direktroru Fatih Birol Azərbaycan mediasına müsahibəsində dediyi kimi, ölkələr yeni milli səviyyədə müəyyən olunan töhfələr verməlidirlər. “Bütün yollar Bakıya aparır. Ölkələr yeni milli səviyyədə müəyyənləşdirilən töhfələr verməlidirlər. 2035-ci ilə qədər nə edəcəkləri barədə qəti qərara gəlməlidirlər. Bu planlarda qlobal istiləşmənin 1,5 dərəcə səviyyəsində saxlamaq məqsədi önə çıxarılmalıdır”, – deyə F.Birol bildirib.

BEA-nın icraçı direktoru qeyd edib ki, COP29-da o, zəngin və aşağı gəlirli ölkələrin, eləcə də Şimal və Cənubun bu qlobal problemin öhdəsindən gəlmək üçün bir araya gəlməsini görmək istəyir: “Bu, təkcə varlılar üçün deyil, həm də yoxsul ölkələr üçün, təkcə Şimal üçün deyil, həm də Cənub üçün, bir sözlə, bütün ölkələr üçün bir çağırışdır. Əgər biz geosiyasi parçalanmaları, geosiyasi fikir ayrılıqlarını bir kənara qoyub qlobal məsələyə diqqəti yönəldə bilsək və bəzi konkret qərarlar qəbul edib konkret məqsədlər üzərində razılaşa bilsək, COP29 bu qlobal məqsədə çatmaqda uğurlu mərhələ kimi yadda qalacaq”.

BEA-nın icraçı direktrorunun sözlərinə görə, iqlim öhdəliklərinin icrasına səmərəli nəzarət mexanizmləri Paris sazişinin məqsədlərinə və qlobal iqlim dayanıqlılığına nail olmaq üçün əsasdır. Monitorinq, hesabatlılıq və yoxlama ölkələrə və beynəlxalq ictimaiyyətə irəliləyişi izləmək, problemləri aşkarlamaq və iqlim dəyişikliyi ilə daha səmərəli mübarizə üçün strategiyaları tənzimləmək imkanı verir.

Bu sahədə beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin əhəmiyyəti qiymətləndirilməlidir. Texniki və maliyyə potensialının inkişafı, eləcə də inkişaf etməkdə olan ölkələrə dəstək iqlim öhdəliklərinin uğurla həyata keçirilməsində əsas rol oynayır. Bundan başqa, qiymətləndirmə və nəzərdən keçirmə mexanizmləri ölkələrin öz planlarını təkmilləşdirməsinə və əldə edilən təcrübə və yeni elmi sübutlara əsaslanaraq ambisiyalarını yüksəltməyə imkan verir.

Gələcəkdə ölkələrin iqlim dəyişikliyi çağırışlarına adekvat cavab verə bilmələrini gerçəkləşdirmək üçün nəzarət mexanizmlərinin gücləndirilməsi və təkmilləşdirilməsi davam etdirilməlidir. Beynəlxalq ictimaiyyət iqlim hədəflərinə nail olmağa və ortaq gələcəyimizi qorumağa müsbət təsir göstərəcək daha ədalətli və dayanıqlı sistemin qurulması üzərində fəal şəkildə çalışmalıdır.

# İstiləşmənin “qara” kabusu ilə “yaşıl” mübarizə

**Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən 5 milli prioritetdən biri–respublikamızın təmiz ətraf mühit və “yaşıl” artım ölkəsi olması məqsədi qarşıya mühüm vəzifə kimi qoyulub.**




Bu tarixi sərəncam imzalanan gündən Azərbaycanın perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi ilə əlaqədar layihələrin icrası diqqət mərkəzində saxlanılıb. Azərbaycan hökuməti sözügedən prioritet daxilində strateji dövrdə iki məqsədin – yüksək keyfiyyətli ekoloji mühitin yaradılmasına və ölkəmizin “yaşıl” enerji məkanına çevrilməsi üçün ən zəruri tədbirlərin reallaşdırılmasını önə çəkib. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ində də vurğulandığı kimi, iqtisadi artımla ekoloji mühitin tarazlı olmasına xüsusi önəm verib.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin sözlərinə görə, yüksək keyfiyyətli ekoloji mühitin məqsədi ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılmalıdır.

Bu prioritetlərə nail olunması isə respublikamızda “yaşıl” iqtisadiyyat məsələsini aktuallaşdırıb. Bu baxımdan 2021-ci ildə Şotlandiyanın Qlazqo şəhərində keçirilən iqlim konfransında (COP26) Azərbaycan qlobal iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması ilə bağlı yeni təşəbbüslə çıxış edərək, 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azaldılmasını və işğalçıdan təmizlənən ərazilərdə 2050-ci ilə qədər “netto sıfır emissiya” zonasının yaradılması niyyətini bildirib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların dirçəldilməsi istiqamətində “yaşıl” enerji zonası, “yaşıl” kənd təsərrüfatı, “yaşıl” nəqliyyat, həmçinin “ağıllı” şəhər və kəndlərin salınması yanaşmalarının tətbiqi, minlərlə hektar sahədə meşələrin bərpası burada 2050-ci ilə qədər “netto sıfır emissiya” hədəfinə çatmaqda böyük rol oynayacaq.

Muxtar Babayevin fikrincə qloballaşan dünyada insanların rifah səviyyəsinin artırılması və tələbatlarının ödənilməsində davamlılığın təmin olunması üçün iqtisadi, sosial və ekoloji aspektlərin hər birinin nəzərə alınması vacibdir. Məhz iqtisadi ədəbiyyatda bu aspektlərə vahid yanaşmanı təmin edən konsepsiya “yaşıl” iqtisadiyyat adlanır. “Yaşıl” iqtisadiyyat anlayışı, ilk növbədə, ekoloji iqtisadiyyat istiqaməti ilə birbaşa əlaqədədir.

Zaman keçdikcə qeyd olunan bu problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi daha da aktuallaşır. Vaxtında həllini tapmayan, kiçik bir təbiət hadisəsi kimi izah olunan çətinliklər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilir.

Azərbaycan Respublikasında da ekoloji problemlərin həlli vacib sayılır və bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir. Ölkəmiz mütərəqqi bəşəriyyətin qəbul etdiyi “Dayanıqlı inkişaf” konsepsiyasının prinsiplərinin həyata keçirilməsinə töhfə verir və iqlim dəyişmələrinə təsirlərin yumşaldılması istiqamətində fəaliyyət göstərir .

Azərbaycan Prezidentinin 11 mart 2020-ci il tarixli müvafiq sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq fəaliyyət planı çərçivəsində tədbirlər həyata keçirilir. Qarşıya qoyulan hədəflərə çatmaq üçün Azərbaycanda iqlim dəyişmələrinə təsirlərin azaldılması istiqamətində bərpaolunan və alternativ enerji mənbələrindən və enerji səmərəli texnologiyalardan istifadənin artırılması, meşə ərazilərinin genişləndirilməsi və digər tədbirlər həyata keçirilir.

## BMT baş katibinin müavini Bakıda




**COP29-un prezidenti Muxtar Babayev BMT baş katibinin müavini Əminə Məhəmmədlə görüşüb.**

Bu barədə COP29-un “X” sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım edilib: “COP29 sədrliyi Bakıda keçirilən Yüksək Səviyyəli Dialoq çərçivəsində Əminə Məhəmmədlə səmərəli müzakirələr aparıb”.

## İslam maliyyəsinin perspektivləri



**Azərbaycan Mərkəzi Bankı və İslam Ticarət və İnkişaf Palatası arasında ölkədə islam maliyyəsi ilə bağlı perspektivlər müzakirə edilib.**

Mərkəzi Bankın sədri Taleh Kazımov bununla bağlı “X” sosial şəbəkəsindəki hesabında İslam Ticarət və İnkişaf Palatasının baş katibi və Albaraka Banklar Qrupunun baş icraçı direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə Azərbaycanın bank sektoru ilə potensial əməkdaşlıq imkanları, ölkədə islam maliyyəsi sahəsində görülən işlər və perspektivlər ətrafında fikir mübadiləsi aparıldığını qeyd edib.



## COP29 Əməliyyat Şirkəti idarəçilik nümunəsi yaradır

**COP29 üçün ISO 20121:2024 sertifikatının əldə olunması dayanıqlı tədbir idarəçiliyinə bağlılığı nümayiş etdirir. Bununla da tədbirin ətraf mühitə təsirini minimuma endirmək və sosial məsuliyyəti artırmaq təmin olunur. Üstəlik, COP29 zamanı yaradılan praktikalar gələcək tədbirlərin daha dayanıqlı fəaliyyətlərə yönəlməsinə kömək edərək Azərbaycanda məsuliyyətli tədbir idarəçiliyinin əhəmiyyətini gücləndirə bilər.**

Bu sözləri QHT-lər üçün COP29-da “yaşıl” bölgə ilə bağlı təşkil olunan informasiya sessiyasında COP29 Əməliyyat Şirkətinin Dayanıqlılıq Əməliyyatları və Təminat üzrə menecer Könül Qaraşlı söyləyib.

O bildirib ki, COP29 Azərbaycan Əməliyyat Şirkəti ölkəmizdə ISO 20121:2024 dayanıqlı tədbir idarəçiliyi sertifikatını əldə edən ilk şirkət olacaq. Bu, digər tədbir idarəçiliyi təşkilatlarının dayanıqlı tələblərinə riayət etmələri üçün nümunədir.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*

# Bu yerlərdə tariximizin çox sirləri yatır

## *Bundan sonra haqq-ədalətdən danışmayın, cənablar!*

**Qarabağ Azərbaycanın, onun dilbər guşəsi olan Şuşa isə bütövlükdə, Cənubi Qafqazın mirvarisidir. Oraya ilk səfərim nə az, nə də çox düz 55 il öncə olub. İnstitut rəhbərliyi birinci kurs tələbələri olaraq Şuşaya ekskursiyamızı təşkil etmişdi. Məhz o zaman bu gözəl şəhərin daş döşənmiş küçələri ilə addımlamaq, buz bulaqlarından su içmək, hər döngəsi, hər dalanı, mükəmməl memarlıq üslubu ilə insanı valeh edən bir-birindən yaraşıqlı binaları, pioner düşərgələri, sanatoriya və istirahət məkanlarını görmək xoşbəxtliyi mənə də nəsib olub. Ürəyimdən o da keçib ki, kaş nə vaxtsa yenidən bu yerlərə gələ biləydim, Cıdır düzünü doyunca gəzə biləydim, oradakı sıldırım qayaların başında duraraq Şuşa kanyonlarını təkrar-təkrar seyr etmək, əfsanəvi Şuşa qalası önündə foto çəkdirmək fürsəti olaydı!**



İllər ötdü, qayğılar artdı, növbəti dəfə Şuşaya getmək planları da beləcə ildən ilə qaldı. İşlərimin sahmana düşdüyü, yenidən Şuşaya getmək məqamı yetişəndə də lənətə gəlmiş şeytan xisləti üzdəniraq qonşular aranı qatdılar, havadarlarının himayəsi və dəstəyi sayəsində Şuşanı da, Qarabağı da işğal etdilər. Beləliklə, Azərbaycan xalqının Qarabağsız, Şuşasız keçən o ağır və nisgilli günləri başladı.

Otuz ilə yaxın davam edən ağır və nisgilli günlərdə Azərbaycanın haqq səsini eşitməzliyə vuran dünya sanki lal, kar və kor olmuşdu. Yalnız 44 günlük müharibənin getdiyi, Azərbaycan Ordusunun bir-birinin ardınca şəhər və kəndlərimizi düşməndən azad etdiyi, Ermənistana məxsus ordu birləşmələrinin və komanda qərargahlarının ard-arda məhv etdiyi zaman dünyanın müxtəlif qütblərindən olan lal, kar və korların qulağı da, gözü də, dili də açıldı. Hər yandan üstümüzə şər və böhtan dolu od püskürməyə başladılar.

O dönəmdə ağır ürək əməliyyatı keçirdiyimdən işə çıxa bilmirdim, bu səbəbdən də daha çox evdə olurdum. Bütün günü televiziya qarşısında oturub cəbhə xəbərlərini izləyirdim, Ali Baş Komandanın müsahibə və çıxışlarını dinləyirdim. Qələmə sarılıb Qarabağ savaşına dair silsilə məqalələr yazırdım. 44 günlük müharibə dönəmində ayrı-ayrı mətbuat orqanlarında və saytlarda 40-dan çox yazım dərc olundu. Hədəf isə təbii idi ki, ermənilər və onların havadarları idi.

*

2022-ci ildə "Miras" İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə Şuşanın tarixinə dair elə Şuşanın özündə keçirilmiş beynəlxalq simpoziumda iştirak edə bilməsəm də, simpoziumun materiallarını mən redaktə edəsi oldum və o zaman sanki Şuşanı, onun gəzməli, görməli yerlərini, tarixi məkanlarını təkrar-təkrar ziyarət etdim. Bu yerlərin çox erkən tarixinin dərindən də dərin qatlarına vardım, Şuşanın əvvəlcə bir yaşayış məskəni, daha sonra şəhər olaraq inkişaf mərhələlərini izlədim, onun təkcə Qarabağ, Azərbaycan üçün deyil, bütövlükdə, böyük türk dünyası üçün önəmini daha dərindən anlamış oldum. Şuşadan ətrafa yayılan ecazkar muğam sədaları ilə sehrləndim, bu diyarın fitri istedad sahibi olan çox görkəmli elm, mədəniyyət və incəsənət xadimləri ilə sanki təmas qurdum, onların zəngin irsindən nələrisə özüm üçün əxz etdim.

Uzun fasilədən sonra yenidən Şuşaya gedənədək ermənilərin orada törətmiş olduqları dağıntıların yalnız videoçəkilişlərini görmüşdüm. Qarabağın işğaldan azad olunduğu ilk vaxtlarda o yerləri, o dağıntıları görmək və ona dözmək həqiqətən çox çətin idi. Amma indi vəziyyət bir qədər başqadır. Yəni bir tərəfdə erməni vandalizminin tükürpədən acı mənzərəsi, digər tərəfdə Azərbaycan dövlətinin hər yanda həyata keçirdiyi geniş quruculuq işlərinin qəlboxşayan qürur dolu mənzərələri!

Türk Dövlətləri Akademiyasının təşəbbüsü və AMEA Arxeologiya və Antropologiya İnstitutunun dəstəyi ilə 15–18 sentyabrda "Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyi"nin (ARİCA) birinci toplantısında iştirak etmək məqsədilə Şuşaya gedərkən yol boyu bütün bunları öz gözlərimizlə görmək fürsətimiz oldu. Bakıdan bir yerdə yola çıxdığımız Qazaxstan, Özbəkistan, Qırğızıstan, Monqolustan, Macarıstan və Tatarıstandan olan alimlərdən ibarət geniş heyət də bütün bunları gördü.

Avtobusumuz yenicə çəkilmiş son dərəcə rahat Bərdə–Ağdam şossesini sanki bir an içərisində keçərək bizi dağıntılar içərisində olan Ağdama çatdırdı. Sağa baxarsan dağıntı, sola baxarsan dağıntı! Evlərdən, ictimai binalardan qalan uçuq divarlardan başqa heç nə gözə dəymir. İşğala qədər Cənubi Qafazın ən çox qaynayan, çağlayan şəhərlərindən olan Ağdam indi ucu-bucağı görünməyən viranəyə çevrilmişdir. Avtobusdakılar sürücünü tələsməməyə səsləyərək ürəkağrıdan o "mənzərələri" telefonlarına köçürməyə səy edirdilər. Düşmənin 30 il ərzində silah-sursat ambarı kimi istifadə etdiyi, konstruksiyasını bir neçə yerdən ciddi surətdə zədələmiş olduğu, Qarabağ azad edildikdən sonra isə ətrafı minalardan təmizlənərək əsaslı şəkildə bərpa və konservasiya edilmiş olan Ağdam Cümə məscidinə çatanda sanki hər kəs dərindən nəfəs aldı. Seyr etdikləri vandalizm aktlarının təsiri altında üzlərində, gözlərində oxunan qəzəb və nifrət cizgiləri bir an içərisində rəğbət və məmnunluq cizgiləri ilə əvəz olundu. Dağıdanlara qəzəb, nifrət, yaradanlara sayğı və rəğbət!

Ağdam Cümə məscidi ilə tanışlıqdan sonra Tunc dövrünə aid Üzərliktəpə arxeoloji kompleksinin yanından ötərək Şahbulaq istiqamətinə yol aldıq. Şahbulağa qədər hər tərəf büsbütün dağıntılardan ibarətdir. Baxdıqca adamın ürəyi ağrıyır. Yəni bu dərəcədə də vəhşilik olar?! Xoş olan odur ki, o yerlərin hər qarışı minalardan təmizlənir, yollar çəkilir, yeni kənd və qəsəbələr salınır. İşlərin miqyası və sürətini dərk etmək üçün yol boyu Bakıda olduğundan da betər tıxac yaradan və ətrafı toz-dumana bürüyən maşın karvanını seyr etmək kifayət edər. Adama elə gəlir ki, sanki ölkədəki bütün iri tutumlu maşın, traktor və ekskavatorların hamısını Ağdama toplayıblar.

Budur, artıq Şahbulaq qalasındayıq. Xatırladım ki, artıq üç ildir, Dövlət Turizm Agentliyinin sifarişi ilə Şahbulaq ərazisində arxeoloji tədqiqatlar aparılır. Qonaqlar tədqiqat aparılan və aparılmayan yerlərlə tanış olur, yeri gəldikcə hər kəs özünün təklif və təəssüratlarını bir-biri ilə bölüşür. İşğal dönəmində Şahbulaq qalası yaxınlığındakı qədim şəhər yerində ermənilər tərəfindən aparılmış üzdəniraq tədqiqatlar və dağıntıları da hər kəs təəssüf və təəccüb hissi ilə seyr etməli oldu. Görəsən, oradan əldə olunmuş nadir tapıntılar indi haradadır, hansı vəziyyətdədir?!

Şahbulaqdan Əsgərana, oradan da Xocalıya gəldik. Ölkə prezidentinin 13 yanvar 2024-cü il tarixli sərəncamına uyğun olaraq çəkilməkdə olan Ağdam–Əsgəran–Xocalı–Xankəndi avtomobil yolu hələ ki, hazır deyil. Amma çox qızğın iş getdiyini nəzərə alsaq, deməli, lap yaxın gələcəkdə bu yol da digər yollarımız kimi abad və gözoxşayan olacaq.

Biz Xocalıda olanda artıq qaranlıq düşmüşdü. Elə bil zülmət və qaranlıq Xocalı və xocalıların taleyinə yazılıb. Orada rastımıza çıxan hər şey sanki 1990-cı ildə ermənilərin törətdiyi soyqırımından xəbər verir. Xoş olan odur ki, 30 illik ayrılıq və zülmətdən sonra doğma yurda dönən Xocalı ailələrinin mənzillərindən də bu gün ətrafa işıq saçır.

Arxeoloq alimlərimizin orada başladığı tədqiqatlar isə həm də Xocalı tarixinin qaranlıq səhifələrinə işıq salmağa imkan yaradacaq. Amma Xocalı abidələrində, xüsusilə də oradakı kurqan çölündə yan-yana boy verən Tunc dövrünə aid çoxsaylı kurqanlarda da hələ ki, tariximizin çox sirləri yatmaqdadır.

Yolüstü qonaqlara təqdim olunan növbəti abidə Azərbaycan hərb sənətinin möhtəşəm yadigarlarından olan Əsgəran qalası oldu. 1751-ci ildə Şuşanın 5 kilometrliyində Qarabağ xanı Pənahəli xanın tapşırığı əsasında inşa edilmiş Əsgəran qalası Qarabağ xanlığının şərq qapısı hesab olunurdu. Divarlarının qalınlığı 2, hündürlüyü 9 metr olan Əsgəran qalası ərazinin relyefinə uyğun inşa edilməklə Qarqar çayının sahilində inşa edilmişdir. Pənahəli xanın əmri ilə Əsgəran qalası ilə eyni vaxta Şuşa qalasının inşasına da başlanıldı və şəhər infrastrukturunun formalaşdırılması işi həyata keçirildi. Qarabağ xanının Şuşada başladığı tikinti, quruculuq və xeyriyyə işlərini daha sonralar onun qızı Natəvan xanım davam etdirmiş oldu. Şəhərin içməli suya olan ehtiyacını nəzərə alaraq onun sifarişi ilə Şuşanın 7-8 kilometliyində olan Sarıbaba dağının ətəyindən saxsı borularla şəhərə su kəmərinin çəkilişinə başlanıldı, iki yerdə bulaq inşa edildi. 18 avqust 1873-cü ildə 5000 nəfər şuşalının iştirakı ilə şəhərin Çöl qala məhəlləsindəki 12 gözlü bulağın təntənəli açılışı oldu. Bulağın çəkilişinə 100000 manat qızıl pul xərcləyən xan qızı açılış mərasimində bu işdə zəhməti olan insanlara 180 qoyun və 20 dəst bahalı geyim hədiyyə etmişdir. 1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal edildikdən sonra baxımsız vəziyyətdə qaldığından, ayrı-ayrı yerlərdə su kəməri zədələndiyindən Xan qızı bulağı qurudu. Şuşa düşməndən azad edildikdən sonra Xan qızı bulağı yaradan əllərin sehri ilə əsaslı şəkildə bərpa edilərək yenidən şuşalıların istifadəsinə verildi. İndi hər gün Şuşaya gələn minlərlə turist sözsüz ki, Xan qızı bulağından su içərkən, həm də olub-keçənlər barədə məlumat əldə edir və bu kontekstdə kimlərin yaradıcı, kimlərinsə dağıdıcı toplum olduğuna dair obyektiv təəssürat əldə etmiş olurlar.

Avtobusumuzdakılardan bir çoxu həddən artıq yorularaq mürgülədiyindən Xankəndinin yanından keçərək Şuşaya nə vaxt çatdığımızı bəlkə də heç hiss etmədilər. Bir də möhtəşəm "Şuşa" hotelinə daxil olanda hər kəsin gözlərinə işıq gəldi. İnanın, çoxumuzun Avropanın gözü olan iri şəhərlərdə gördüyümüz çoxulduzlu hotellərdən daha komfortlu bir hoteldir. Yaxınlıqdakı "Qarabağ", "Xarı bülbül" hotelləri və digərləri də həmçinin. İşğaldan yeni azad olunmuş bu şəhərdə 2-3 il ərzində belə möhtəşəm hotellərin inşa edilərək istifadəyə verilməsi sözsüz ki, həm də Azərbaycan dövlətinin qüdrətindən xəbər verir.

Əvvəlki günlərdə olduğu kimi, sentyabrın 16-da da Şuşada bir neçə mühüm tədbir keçirilməkdə idi. Onlardan yerli əhəmiyyətli olanlarla yanaşı, ölkə və beynəlxalq əhəmiyyətli olanları da vardı. Bizim toplantının işə başladığı "Şuşa" hotelindən bir qədər aralıda isə Elm və təhsil nazirinin də iştirak etdiyi yeni tam orta məktəb binasının açılışı oldu. Telekanalların əməkdaşları, digər media qurumlarının təmsilçiləri mikrofon və kameralarını götürərək o tədbirdən bu tədbirə tələsməkdə idi. Nə xoş ki, ötən hər gün Şuşa belə əlamətdar hadisələrə evsahibliyi edir! Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyinin birinci toplantısı kimi mühüm beynəlxalq tədbirin də məhz Şuşada keçirilməsinin xüsusi əhəmiyyəti olduğu yəqin ki, hər kəs üçün başadüşüləndir. Fikrimizcə, bu, Şuşanın təkcə bizim üçün deyil, bütövlükdə Türk dünyası insanları üçün son dərəcə əziz, həm də müqəddəs bir məkan olduğunun göstəricisidir.

Toplantını giriş sözü ilə Azərbaycanın görkəmli şərqşünas alimi, Türk Dövlətləri Akademiyasının prezidenti, akademik Şahin Mustafayev açdı. O, son vaxtlar türk xalqları və dövlətləri arasında gedən sürətli inteqrasiya prosesi və bu proses çərçivəsində elm adamları qarşısında duran hədəflərdən bəhs edərək ilk toplantının məhz Şuşada keçirilməsinin önəmini xüsusi olaraq vurğuladı. AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, dosent Fərhad Quliyev müstəqillik illərində Azərbaycanda aparılan arxeoloji tədqiqatlardan bəhs etdi. Tədbirdə iştirakçı ölkələrin salamlama nitqi ilə çıxış edən nümayəndələri Azərbaycanın Qarabağ Zəfəri, Şuşanın fəthi, işğal dönəmində şəhər və kəndlərimizin ermənilər tərəfindən viran edildiyi, tarixi-mədəni dəyərlərimizin vandalcasına məhv olunduğu, torpaqlarımız azad edildikdən sonra qısa zaman kəsiyində Azərbaycan dövləti tərəfindən həyata keçirilməkdə olan genişmiqyaslı abadlıq və quruculuq işləri barədə fikir, mülahizə və təəssüratlarını bildirdilər.

Toplantı çərçivəsində dinlənilən məruzə və çıxışlar Türk dünyası məkanına daxil olan ölkələrdə arxeoloji tədqiqatların miqyası və səviyyəsini öyrənmək baxımından hər kəs üçün çox əhəmiyyətli oldu. Məsələn, Macarıstan nümayəndəsinin çıxışında ölkə ərazisində 140 minə qədər arxeoloji məkan olduğu, Monqolustan arxeoloqların isə hər il 15 ölkədə aparılan arxeoloji qazıntılarda iştirak etdiyi, ölkə daxilində isə xarici donorların iştirakı ilə 100-ə qədər arxeoloji ekspedisiyanın fəaliyyət göstərdiyi bildirildi. Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tatarıstan alimlərinin arxeoloji tədqiqatlarda müasir texniki və texnoloji üsul və vasitələrdən istifadə, öyrənilən abidələrin konservasiyası, muzeyləşdirilməsi və nəhayət, elmi axtarışların nəticələrinin nəşrinə dair məruzə və çıxışları da maraqla dinlənildi. Geniş və işgüzar müzakirələr əsasında Türk dünyası arxeoloqlarının gələcək fəaliyyətinə yönəlik rəsmi sənəd – deklarasiya qəbul olundu. İştirakçılar vaxtaşırı toplanmaq, müştərək ekspedisiyalar təşkil etmək, ortaq nəşrlər, o cümlədən ortaq arxeoloji terminlər lüğətinin və Türk dünyasının görkəmli arxeoloq alimləri seriyasından ensiklopedik nəşrlərin hazırlanması barədə razılığa gəldilər. Növbəti ildən başlayaraq ilkin olaraq Qarabağ ərazisindəki abidələrdən birində Türk dünyası arxeoloqlarının iştirakı ilə kompleks ekspedisiyanın fəaliyyətə başlayacağı barədə qərar da hər kəs tərəfindən rəğbətlə qarşılandı.

Qonaqların Şuşa gəzintisi də çox maraqlı və təsirli anlarla yadda qaldı. Genişmiqyaslı abadlıq və quruculuq işlərinə rəğmən şəhərin bütün məhəllələrində çoxsaylı dağılmış, uçurulmuş evlər və iri ictimai binalar erməni vandalizminin qara ləkələri olaraq hələ də göz dağlamaqdadır. Yəni, bir "dövlət", bir "xalq" nə qədər cəllad xislətli olmalıdır ki, bu dərəcədə vəhşiliklər törədə bilsin?! Bunu edən ermənilərdir, Ermənistan adlı bədnam, oyuncaq və bufer dövlətdir! Bunu görməmək, lənətləməmək olarmı?! Fikrimizcə, səfər çərçivəsində Cıdır düzündə, Daşaltı kanyonları fonunda, Xan qızı bulağı önündə, əzəmətli Gəncə qapıları qarşısında yaşanan qürur dolu anlar, çəkilən fərdi və kollektiv fotolar da Qəhrəman Şuşamızın ən yeni tarixinin bir parçasına çevrilmiş oldu.

Gəncə qapıları önündə gəzişərkən, ciyər dolusu dərindən nəfəs alaraq və ətrafdakı ecazkar təbiət mənzərələrini seyr edərkən sanki bir anlığa məst olan qonaqların Şuşadan hələ də doymadığı onların üz-gözündən çox aydın hiss olunmaqda idi. Amma xudahafizləşmək zamanı da yetmişdi. Əminliklə deyə bilərəm ki, o insanlar Şuşamızı, onun ecazkar təbiət və tarixi lövhələrini görmək üçün yenə də oraya gələcəklər. Özü də təkcə rəsmi toplantılara deyil, həm də ailələri, dostları və əzizləri ilə birlikdə bu yerləri təkrar-təkrar gəzməyə, görməyə, burada dincəlməyə gələcəklər.



Hələlik isə Şuşaya xudahafiz deməklə Zəfər yolu ilə Bakıya istiqamət alırıq. Yolun sağında və solundakı dağıdılmış, viranəyə çevrilmiş yaşayış məntəqələrini görüncə adamın ürəyi ağrıyır. Amma maşınımız dağları, qayaları çaparaq, eniş-yoxuşlara sığal çəkilərək salınan Zəfər yolu ilə irəlilədikcə ürəyimiz həm də dağa dönür. Çətin relyef şəraitində inşa edilmiş bu körpülər, tunellər, su ötrücüləri insanın yaradıcı əməyinin nəyə qadir olduğunun bariz göstəricisi deyilmi?! Bu düşüncələrin ağuşundaykən maşınımız Füzuli rayonu hüdudlarına daxil olur. Hər tərəfdə Ağdam, Xocalı və Şuşada gördüyümüzdən daha dəhşətli dağıntılar görünür. Sanki əraziyə atom bombası atılıb. Ermənilər Füzulidə ABŞ-nin Naqasaki və Xirosimada törətdiyindən daha ağır faciə törədiblər. Bu dəhşət saçan vandalizm səhnələrinin yanından ötərək, onu törədənləri hamılıqla lənətləyə-lənətləyə yeni salınmış Füzuliyə daxil oluruq. İlahi, Azərbaycan dövləti qısa zaman kəsiyində burada nələr qurub-yaradıb?! Bir-birindən yaraşıqlı çoxmərtəbəli binalar, özünəməxsus memarlıq dizaynı ilə diqqətçəkən hava limanı, təhsil, mədəniyyət, səhiyyə və digər xidmət obyektləri! Bunları kimlər və nə zaman tikdilər?! Əhsən o quruçu insanlara! Əhsən onlara bu yolu göstərən, şərait yaradan insanlara! Əhsən Azərbaycan dövlətinə!

Qarabağın işğaldan azad olunması uğrunda davam edən mücadiləmizdə, daha sonra isə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan bütün səviyyələrdə Türk dünyası tərəfindən açıq-aşkar mənəvi dəstək gördü. İndi isə Qarabağda apardığımız quruculuq işlərində qardaş Türk cümhuriyyətləri birbaşa əməli layihələrlə iştirak edirlər. Qazax və özbək qardaşlarımızın Füzulidə inşa etdikləri nadir memarlıq nümunəsi olan uşaq əyləncə mərkəzi və məktəb binaları deyilənlərə əyani misaldır.

Füzulidən çıxaraq Bakı istiqamətində hərəkət edərkən bələdçimiz yolun sağ tərəfindəki bədnam "Ohanyan səddini" göstərdi. 44 günlük müharibə zamanı Azərbaycan Ordusu bir həmlə ilə onları aşaraq düşmən mövqelərini ələ keçirdi. Əfsuslar olsun ki, "Ohanyan sədləri" keçiləndən sonra qarşımızda növbəti, həm də daha məkrli sədlər görürük. Fransa, ABŞ, Avropa qurumları özlərini ermənilərdən daha artıq erməni kimi aparırlar. Makron, Okampo, Şvabe, Bayden administrasiyası, ABŞ konqresmenlərinin, Kanada, Niderland, İsveçrədən olan bəzi rəsmilərin erməni sevgisi və Azərbaycana qarşı qərəzi bitib-tükənmək bilmir. Bu insanlar, onları birləşdirən siyasi dairələr Azərbaycanın Qarabağ zəfərini hələ də həzm edə bilmirlər. Azərbaycan dövlətinin beynəlxalq səviyyədə artan nüfuzu onları daha da qıcıqlandırır. Qərbi Azərbaycanda yaşayan yüz minlərlə soydaşımız kütləvi şəkildə deportasiya ediləndə, Qarabağın şəhər və kəndləri ermənilər tərəfindən işğal olunanda, Ermənistanda – tarixi Azərbaycan torpaqlarında olan tarixi-mədəni irsimiz dağıdılanda, məhv və talan ediləndə kar olan, lal olan, kor olan həmin dairələrin indi nə əcəb gözü, dili, qulağı açılıb?! Qarabağın işğal altında olduğu dönəmdə və işğala son qoyulduqdan sonra Azərbaycan az qala bütün dünyaya səsləndi: gəlin, baxın, görün ermənilər şəhər və kəndlərimizi, tarixi-mədəni irsimizi necə viranəyə çevirib? UNESCO-ya səsləndik, gəlmədilər. Prezident İlham Əliyev ən yüksək tribunalardan "UNESCO haradasan, hara baxırsan?! Niyə gəlmirsiniz, niyə erməni vandallarının dağıtdıqlarını, viran etdiklərini görmək istəmirsiniz?!", – deyə bütün dünyaya səsləndi. Utanmadan, xəcalət çəkmədən bu gün guya "erməni irsini, xristian irsini" dağıtdığımıza görə Azərbaycanı ittiham edirlər, sanksiyalarla hədələyirlər. Cənablar, siz özünüzü nə hesab edirsiniz?! Siz Ermənistanla istədiyiniz formada davrana bilərsiniz. Amma Azərbaycana münasibətdə ehtiyatlı olun! Gəlin baxın, görün Şuşanın ən görkəmli yerində tikilmiş erməni kilsəsinin bir daşına, bir pəncərə şüşəsinə belə toxunulmayıb. Bakının mərkəzindəki erməni kilsəsini görmüsünüzmü?! Onu kim mühafizə edib qoruyur?! Ermənilər isə Qarabağdakı müqəddəs məkanlarımızı vəhşicəsinə dağıtdılar, talan etdilər, məscidlərimizdə donuz bəslədilər. Daha əvvəllər Qərbi Azərbaycandakı müqəddəs məkanlarımızda da analoji vandal hərəkətlər törətmişdilər.

Azərbaycanı ittiham etmək istəyində olan cənablar, siz nə vaxtdan mədəni irs qədri bilən olmusunuz?! Ağdamı, Füzulini, Cəbrayılı, Şuşanı, Qubadlını, Kəlbəcəri, Laçını, Qarabağdakı yüzlərlə kəndi, bütün infrastrukturu, minilliklərin yadigarı olan tarixi abidələri kim dağıdıb?! Əgər o torpaqlar, o ərazilər sizin düşündüyünüz kimi ermənilərin idisə, onda niyə dağıdıb viran edirdilər?! Bəsdir, cənablar! Əlinizi bir ovuc erməni lobbisinin cibindən çıxarıb gec də olsa yaxşı-yaxşı düşünün! Nə vaxta qədər ağa qara deyəcəksiniz?! Nə vaxta qədər haqqı nahaqqa qurban verəcəksiniz? Nə vaxtadək bəşəri ədaləti özünüzün çirkin siyasi oyunlarınıza qurban edəcəksiniz?!

Məşhur atalar sözündə deyildiyi kimi "ağa durur, ağacan durur". Qarabağ da yerindədir, oradakı dağıntılar da göz qabağındadır. Özünüz gəlin, emisarlarınızı göndərin, hər şeyi öz yerində görüb dəyərləndirsinlər. Azərbaycan dövlətinin verdiyi hər cür zəmanətə rəğmən daxildən və xaricdən olan məsləhətçilərinin təkidi ilə mütəşəkkil şəkildə Qarabağı tərk edən ermənilərlə 30–40 il öncə Qarabağ və Qərbi Azərbaycandakı tarixi torpaqlarımızdan vəhşicəsinə qovulan, əmlakı qarət olunan, çoxsaylı itkiləri və qurbanları olan azərbaycanlıları yanaşı qoyaraq müqayisə və dəyərləndirmələr aparın! Amma onu da unutmayın ki, bu vicdan tələb edən, ədalət tələb edən bir işdir. Onu da siz bacarmazsınız. Ötən illərdəki ədalətsiz davranışlarınız buna sübutdur. Yaxşı olar ki, bundan belə haqq-ədalətdən, beynəlxalq hüquq və insan haqlarından bir daha danışmayasınız. Sizin güclü olduğunuzu, hər kəs kimi, biz də çox yaxşı bililirik. Amma siz haqsız və ədalətsiz olduğunuzu bilmək istəmirsiniz. Halbuki bütün mütərəqqi dünya bunu görür, bilir və sizi o ki var lənətləyir. Eyb etməz, həyat və zaman özü bunu sizə də öyrədər!

***Qafar CƏBİYEV,***
***tarix elmləri doktoru,***
***professor***

# Təzminat Azərbaycanın qanuni haqqıdır

## *Əlbəttə, dünyada ədalət varsa...*

**(əvvəli 1-ci səhifədə)**

**Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi – Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olundu. Ermənistanın işğalı nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, 20 min nəfərdən çox azərbaycanlı öldürüldü, 50 min nəfərdən çoxu isə əlil oldu. Amma bunlar da son deyildi.**

**I Qarabağ müharibəsi nəticəsində aralarında 71 uşaq, 267 qadın, 326 qoca olmaqla, itkin düşmüş 3890 azərbaycanlının, o cümlədən əsir və girov götürüldüyü müəyyən edilmiş 872 nəfərin (2020-ci il dekabrın 1-nə olan məlumata əsasən) sonrakı taleyi məlum olmadı.**

**Dağıntıların və vandalizm aktlarının miqyası isə daha dəhşətli və fəlakətli idi. İşğal illərində Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdıldı.**

**Azərbaycan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğala son qoyub öz ərazi bütövlüyünü tam bərpa etdi. İşğaldan azad edilən ərazilərdə Ermənistanın törətdiyi vəhşiliklərə şahid olandan sonra ölkənin təzminat haqqı məsələsi hüquqi və mənəvi aspektləri olan son dərəcə aktual bir məsələyə çevrildi. Əlbəttə, bu sadə bir məsələ deyil. Birinci yazımızda açıqladığımız kimi, əgər işğalçı və hətta müstəmləkəçi ölkələr 1-2 əsr əvvəl törətdikləri cinayətlərə və zorakılıqlara, hərbi təcavüzə görə belə təzminat ödəməyi beynəlxalq ədalətin bərqərar olmasında mühüm addım hesab edirlərsə, Azərbaycanın təzminat haqqı niyə tanınmamalı və işğalçı Ermənistan azərbaycanlılara qarşı törətdiyi cinayətlərin hesabını verməməlidir?!**



Tanış olduğumuz bir çox sənədlərdə ölkələrin təzminat hüququ artıq bir əsrə yaxın dövrdə qəbul edilmiş beynəlxalq hüquqi çərçivədə təsbit edilməkdədir. Bilavasitə beynəlxalq hüquq dövlətlərə dəymiş ziyana görə təzminat tələb etməyə icazə verir. Bu məsələni tənzimləyən sənədlərə diqqət yetirək:

**1. Cenevrə konvensiyaları:** 1949-cu ildə qəbul edilmiş və bu günə qədər dünyanın bütün ölkələrinin, o cümlədən Ermənistanın da imzaladığı beynəlxalq humanitar hüququn əsası olan Cenevrə konvensiyaları və əlavə protokollar müharibədə mülki şəxslərin və obyektlərin mühafizəsini tənzimləyir. Mülki obyektlərin və mədəni irsin dağıdılması, habelə insan hüquqlarının kütləvi şəkildə pozulması beynəlxalq humanitar hüququn pozulması kimi qiymətləndirilə bilər ki, bu da təzminat hüququnu doğurur.

**2. Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında Haaqa Konvensiyası.** Azərbaycan ərazisindəki mədəni və tarixi obyektlərin qeyri-qanuni şəkildə məhv edildiyi sübut olunarsa, ilk növbədə, bu konvensiyanın pozulmasına istinad edilməlidir. Şübhəsiz, bununla bağlı Azərbaycan tərəfində kifayət qədər dəlil -sübutlar və faktlar var.

**3 İnsan hüquqları haqqında beynəlxalq qanunlar:** Bu qanunlara əsasən, mülki əhalinin öldürülməsi və onların əmlakının məhv edilməsi kimi insan hüquqlarının pozulması təzminat tələbinə səbəb ola bilər. Belə hallarda İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyası kimi beynəlxalq hüquqi sənədlərdən istifadə oluna bilər.

Beynəlxalq hüququn bu sənədləri əsasında Azərbaycan dağıntıların və insan itkilərinin miqyasına görə təzminat tələb etmək haqqına malikdir. Bu təzminat haqqının arqumentləri kifayət qədərdir.

**Birincisi, dağıntıların miqyası:** 1988–1993-cü illərdə 900-ə yaxın yaşayış məntəqəsi, 150 min ev, yüzlərlə məktəb, uşaq bağçası, tibb müəssisəsi, mədəni-tarixi obyektlər dağıdılıb. Bu hərəkətlər mülki infrastrukturun və mədəni irsin məqsədyönlü şəkildə məhv edilməsi kimi qiymətləndirilməlidir.

**İkincisi, zərərçəkmiş vətəndaşların hüquqları:** 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Məcburi köçürmə, əmlakın məhv edilməsi, insanlara qarşı cinayətlər və itkin düşmüş şəxslər kimi kütləvi insan hüquqları pozuntuları təzminat üçün ciddi əsaslardır.

**Üçüncüsü, beynəlxalq təcrübədə presedentlər.** Biz bunu birinci məqaləmizdə geniş şərh etmişdik. Artıq dünya praktikasında münaqişələr zamanı dövlətlərin və xalqların dəymiş ziyanın ödənilməsini tələb etməsi halları kifayət qədərdir.

Bütün bunlardan sonra belə bir sual meydana çıxır ki, Azərbaycan təzminat hüququnun həyata keçirilməsi üçün hansı yollardan istifadə etməlidir?

**1. Beynəlxalq məhkəmələrə müraciət:** Beynəlxalq Ədalət Məhkəməsi və ya Avropa İnsan Hüquqları Məhkəməsi təzminat və kompensasiya ilə bağlı işlərə baxa bilər. Azərbaycan münaqişə zamanı həyata keçirilən hərəkətlərə hüquqi qiymət verilməsi üçün dağıdıcılıq, qətllər və digər qanun pozuntularına dair sübutlar təqdim edib, buna hüquqi qiymət verilməsini tələb etməlidir.

**2. Beynəlxalq danışıqlar və vasitəçilik:** BMT və ya ATƏT kimi beynəlxalq təşkilatların vasitəçiliyi ilə Ermənistanla birbaşa danışıqlar təzminat məsələsini həll etmək üçün effektiv yol ola bilər. Bu cür danışıqlar həm təzminatın ödənilməsini, həm də dağıdılmış obyektlərin bərpasını əhatə etməlidir.

**3. Beynəlxalq komissiyanın yaradılması:** Dağıntıların və itkilərin miqyasını müəyyən etmək üçün müstəqil beynəlxalq komissiya yaradıla bilər. Onun araşdırmaları və tapıntıları təzminat tələbləri və sonrakı danışıqlar üçün əsas ola bilər.

Amma təzminatların alınması yolunda çətinliklər və problemlər də az deyil. Onlardan bəzilərinə diqqət çəkmək istərdik:

**Siyasi vəziyyət:** Təzminat məsələsi Ermənistan və Azərbaycan arasındakı siyasi əlaqələrlə sıx bağlıdır. Qarabağ münaqişəsi sona çatsa da, sülh müqaviləsi imzalanmadığından tərəflər arasında münasibətlər gərginlikdən elə də uzaqlaşmamışdır və davam edən ərazi mübahisələri təzminatla bağlı razılığın əldə olunması imkanlarını çətinləşdirir.

**Məsuliyyətin müəyyən edilməsi:** Təzminat tələb etmək üçün dağıntı və tələfata görə qarşı tərəfin, yəni Ermənistanın məsuliyyətini müəyyən etmək lazımdır. Bunun üçün hərtərəfli araşdırmalar və ciddi sübutlar tələb olunur.

Nəzərə almaq lazımdır ki, beynəlxalq aləmdə təzminat məsələlərinə münasibətdə bu sahənin mütəxəssisləri və ekspertlərinin fikirləri müxtəlifdir. Məsələn, **T.Şefçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq hüquq kafedrasının dosenti, hüquq elmləri namizədi Zaxar Tropin yazır:** "Beynəlxalq hüquqda təzminatın həyata keçirilməsi qaydasını, formaları və əsaslarını tənzimləyən beynəlxalq müqavilələr yoxdur. Hələ ki, yalnız 2001-ci ildən etibarən dövlətlərin beynəlxalq hüquqa zidd hərəkətlərinə görə məsuliyyəti haqqında məqalələrin mətni var. Bu sənəd BMT Baş Assambleyasının qətnaməsi ilə təsdiq edilib və dövlət məsuliyyətinə dair beynəlxalq ənənələrin kodifikasiyası hesab olunur. Bu sənəd təzminat anlayışına iddia etmir, bunun əvəzinə o, təzminat terminini zərərçəkmiş dövlətə qanunsuz hərəkət nəticəsində dəyən zərərin ödənilməsi forması kimi istifadə edir.

**Təzminatların həyata keçirilməsi üçün əsas beynəlxalq hüquqi baza silahlı münaqişədə iştirak edən dövlətlər arasında bağlanmış beynəlxalq müqavilədir**. Məhz bu müqavilədə təzminatların həcmi və formaları müəyyən edilir. Belə bir müqavilə silahlı münaqişə bitdikdən sonra bağlanır. Bu müqaviləni bağlamış dövlətlər onun həyata keçirilməsini özləri təmin edirlər. Lakin bu, belə bir müqavilənin üçüncü dövlət və ya beynəlxalq təşkilat tərəfindən həyata keçirilməsinə təminat verilməsinin mümkünlüyünü inkar etmir".

Təzminatın ödənilməsi məsələsində iqtisadi komponent də mühüm rol oynayır. Çünki təzminatın məbləğinin müəyyən edilməsi və onun ödənilməsi üçün mənbələrin tapılması təzminatın ödənilməsində problemli məsələlərdəndir. Qərb havadarları təzminat məsələsi ortaya çıxanda bildirirlər ki, Ermənistanın iqtisadi vəziyyəti potensial ödəniş öhdəliklərini yerinə yetirməyi çətinləşdirə bilər. Amma müharibədən sonra bu ölkədə rəsmi dövlət səviyyəsində revanşizm meyllərinin güclənməsi və külli miqdarda silah alınması onun iqtisadi cəhətdən heç də zəif olmadığını sübut edən əsaslar sayıla bilər.

Bu baxımdan Ermənistanın təzminat ödəməyə qadir olmadığını arqument kimi irəli sürənlərin fikirlərində heç bir məntiq yoxdur. Ermənistan 3 il ərzində Azərbaycan ərazisində ordu saxlamaq üçün ildə 400 milyon dollar ödəyən, iqtisadi artım nümayiş etdirən və maliyyə ehtiyatlarını artıran, Hindistandan və Fransadan silahlar almağa milyardlar xərcləyən bir ölkədir. Bu onu göstərir ki, Ermənistanın sanballı maliyyə mənbələri var. Digər tərəfdən, bu ölkəni ayırdıqları maliyyə yardımı ilə silahlandıran bir çox himayədar dövlətlər, İrəvanın əvəzinə Azərbaycana təzminat ödəməyi öhdələrinə götürə bilərlər ki, bu da Ermənistana ən böyük kömək olar. Əlbəttə, buna nail olmaq üçün, əvvəldə qeyd etdiyimiz kimi, Bakının təzminat prosesini məhkəmələrdə real təhlükə səviyyəsinə çatdırması və ya təzminat mövzusunu sülh müqaviləsinin şərti kimi irəli sürməsi məqsədəuyğun olardı.

Yeri gəlmişkən, bir faktı da diqqətdən qaçırmaq olmaz ki, Ermənistan sivil ölkələrdən fərqli olaraq, bu günə qədər işğal faktına görə Azərbaycandan rəsmən üzr istəməyib.

Yekun olaraq tam əsasla demək olar ki, Azərbaycan dağıntıların və insan itkilərinin miqyasına əsaslanaraq, Ermənistanın işğalçılıq müharibəsinin davam etdiyi illərdə özünə dəymiş ziyanın ödənilməsini tələb etmək hüququna malikdir. Beynəlxalq hüquq, o cümlədən Cenevrə konvensiyaları və digər beynəlxalq sənədlər bu cür iddialar üçün əsas yaradır.

Hüquqşünaslar belə real bir variant irəli sürərək bildirirlər ki, təzminatla bağlı mübahisəni səlahiyyətli beynəlxalq qurum həll etməlidir və hərbi təcavüz nəticəsində cinayətlər törətmiş tərəf beynəlxalq ictimaiyyətin ciddi sanksiyalarına məruz qalmamaq üçün təzminat ödəməlidir.







Beynəlxalq hüququn ən ciddi pozuntularından biri hərbi təcavüz hesab edilir. Nürnberq tribunalının qaydalarını kodlaşdıran "Nürnberq prinsipləri" təcavüzkar müharibənin başlanılması və aparılmasını beynəlxalq cinayət kimi təsnif edir. Təcavüz aktlarının qadağan edilməsi BMT Nizamnaməsinə daxil edilib və orada təşkilatın əsas məqsədlərindən biri kimi "təcavüz aktlarının və ya sülhün digər pozuntularının qarşısının alınması" xüsusi qeyd olunub.

Amma bu sənədlər hərbi təcavüzün formal tərifini vermir. Bu tərif 1974-cü ildə BMT Baş Assambleyasının 3314 saylı qətnaməsində verilmişdir. Xüsusi yaradılmış komitə bu tərifin işlənib hazırlanması üzərində tam yeddi il çalışdı. Ümumiyyətlə, tərif haqqında hələ Millətlər Liqasında düşünməyə başlamışdılar.

Qətnamənin elə birinci maddəsində təcavüz ən ümumi ifadələrlə müəyyən edilir, sonra dəqiqləşdirmələr gəlir: **"Təcavüz bir dövlət tərəfindən başqa bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı və ya bu tərifdə müəyyən edilmiş Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olmayan hər hansı digər şəkildə hərbi güc tətbiq edilməsidir".**

Tərif kifayət qədər genişdir: "təcavüz aktları", xüsusən də "bir dövlətin silahlı qüvvələri tərəfindən başqa bir dövlətin ərazisinə basqın və ya hücum", "başqa dövlətin ərazisinin və ya onun bir hissəsinin güc yolu ilhaq edilməsi", "bir dövlətin silahlı qüvvələri tərəfindən başqa dövlətin ərazisinin bombalanması", həmçinin "bir dövlət tərəfindən... başqa dövlətə qarşı silahlı qüvvələrdən istifadə etmək məqsədilə silahlı dəstələr, qruplar, nizamlı olmayan qüvvələr və ya muzdlular göndərməsi".

Tərif daha sonra aydınlaşdırır ki, istər siyasi, istər iqtisadi, istərsə də hərbi (tarixi bir yana qalsın) heç bir mülahizə təcavüzə haqq qazandıra bilməz. Sənəddə təcavüzkar müharibə beynəlxalq sülhə qarşı cinayət kimi təsnif edilir və müvafiq beynəlxalq məsuliyyət nəzərdə tutur. Maraqlıdır ki, qətnamədə təsnif olunanlar Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı istifadə edilib. Bunlar danılmazdır.

Məsələnin texniki tərəfinə gəldikdə isə, bu cəhətdən təzminatlar Beynəlxalq Ədalət Məhkəməsi kimi səlahiyyətli orqanın qərarı və ya münaqişə tərəfləri arasında sülh müqaviləsi ilə müəyyən edilə bilər. Doğrudur, hələ süh müqaviləsi müzakirə mərhələsindədir. Lakin Beynəlxalq Ədalət Məhkəməsinin yurisdiksiya ilə bağlı da böyük problemləri var. O, dövlətlər arasında mübahisələri yalnız onların razılığı ilə və ya beynəlxalq müqavilələr əsasında həll edir.

Bununla belə, təzminatların toplanması prosesi beynəlxalq səviyyədə tanınma, aydın sübutlar və mürəkkəb danışıqlar tələb edir ki, bu da davam edən sülh danışıqlarının gərginliyi fonunda ciddi çətinliklər yaradır.

Doğrudur, hüquqi nöqteyi-nəzərdən indi İrəvanda dövlət səviyyəsində ciddi müzakirələrə səbəb olan Ermənistan Konstitusiyası Azərbaycanın təzminat tələbi üçün sübut bazasına çevrilə bilər. Əslində iki ölkə arasında sülh müqaviləsinin əsas şərtlərindən biri Azərbaycanın Ermənistanın öz konstitusiyasında revanşizmə əsas verən maddələrin çıxarılması tələbidir. Bakının bu tələbi müəyyən mənada Ermənistan rəhbərliyi üçün Azərbaycanın təzminatlarla bağlı mövqeyini hansısa şəkildə yumşaltmağa əsas verə bilər. Yox, əgər rəsmi İrəvan konstruktivlik nümayiş etdirməsə, o zaman ölkənin qanunvericiliyindəki müvafiq maddələr Ermənistan üçün çox ağır təzminat ödəməsinə əsas sübut ola bilər.

Hazırda münaqişələrin həlli məsələlərində Qərb, xüsusilə ABŞ, təzminat iddiaları mövzusuna böyük diqqət yetirir. Məhz bu üzdən Vaşinqtonda nümayəndə heyətlərinin tərkibinə beynəlxalq məhkəmələrdə qaldırılan iddialar üzrə Xarici İşlər nazirliklərinin məsul şəxsləri də daxil edilib ki, bu da Birləşmiş Ştatların tərəflərin qarşılıqlı iddialardan çəkinməyi təklif etdiyini güman etməyə əsas verir.

Bununla belə, danışıqlar prosesinin öz dinamikası var. Və burada təzminat mövzusu yeni məna kəsb edə bilər. Azərbaycanın çoxmilyardlı təzminat tələbi Ermənistanın revanşizminin, təcavüzkarlığa cəhdlərinin qarşısını almaq üçün zəruri şərtə çevrilə bilər. İkinici bir tərəfdən, Bakı bu tələbi irəli sürmədən Ermənistanın qərb himayədarları ikili standartalardan əl çəkib hərəkətə keçməyəcəklər. Çünki Azərbaycanın dağıdılmış şəhər və kəndləri, ərazilərinin minalanması, öz doğma torpaqlarına qayıtmaq istəyən yüz minlərlə azərbaycanlı onların vecinə deyil.

Təzminat mövzusu regionda ədalətin bərpasına və sülhün möhkəmlənməsinə kömək edə biləcək müharibədən sonrakı nizamlanmanın mühüm hissəsi olmalıdır. Bu məsələnin həllini təkcə hüquq deyil, həm də münaqişənin uzunmüddətli və davamlı həllinə nail olmağa yönəlmiş siyasi səylər tələb edir. Amma işğala və hərbi cinayətlərə məruz qalmış Azərbaycanın təzminat haqqının tanınması həm də siyasi vəziyyət və tərəflərin dəymiş ziyanın ödənilməsi barədə razılığa gəlmək istəyi ilə sıx bağlıdır.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Kiçik Dəhnənin böyük şairi

**Şəkinin Kiçik Dəhnə kəndindən boy göstərən istedadlı şair-tərcüməçi Namizəd Xalidoğlu – Qoca Xalid 70 yaşının tamamında “Rus poeziyası. Seçmə şeirlər” kitabını oxuculara ərməğan eləyib.**

Onun imzası elə ilk yaradıcılıq nümunələrindən başlayaraq tanınıb və oxucu rəğbətini qazanıb.

**Boyu balacadır sətrinə görə,**
**Bununçün kimsəyə bir işi düşməz.**
**Mənim şeirlərim ətrinə görə**
**Heç kəsin şeiriylə dəyişik düşməz –**
**Kövşən iyi gəlir şeirlərimdən.**

Belə gözəl misraların müəllifi Moskvada, Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda ali təhsil alsa da, Rusiya Elm və İncəsənət Akademiyasının müxbir üzvü, Rusiya xalqlarının VII Artiadasının və Beynəlxalq N.Rubtsov mükafatlarının laureatı olsa da, dogma Dəhnəni tərk etməyi heç vaxt ağlına sığışdıra bilməyib. “Şairin şəklini şəhərdə qəzet, kənddəsə arxlardan axan su çəkir”, – deyərək özünün təbii Dəhnə ilhamına sığınmağa üstünlük verib. Doğrudur, Moskvada təhsil alarkən rus şairlərinin poeziyası ilə yaxından tanış olaraq qələmini onların tərcüməsi sahəsində də uğurla sınayıb. Yesenin, Tütçev, Fet, Vısotski, Rubtsov, Kuznetsov, Sokolov, Peredreyev, Kazantsev və başqa görkəmli söz sənətkarlarından etdiyi tərcümələri ilə məşhurluğunu daha neçə misqal artıra bilib.

Bu günlərdə baş redaktorumuz məni otağına çağıraraq orada əyləşmiş nurani bir kişini tanıyıb-tanımadığımı soruşdu.

– Suyu şirin gəlir, amma qorxuram, yanılam, – dedim.

Qonaq ayağa qalxıb əl uzatdı: – Qoca Xalid, – dedi. Mən də həmən: – Hə, Namizəd Xalidoğlu, özüdür ki, var, – deyə cavab verdim. Təsəvvürümdəki gənc şair bir az yaşlı göründüyü üçün məni “çətin”ə salmışdı. Sonra səmimi söhbətimiz oldu və yeni “Rus poeziyası. Seçmə şeirlər” kitabını redaksiyamıza hədiyyə edib getdi.

Həmin kitabı vərəqləyir, şeirlərin tərcümə deyil, sanki Azərbaycan dilində yazıldığı qənaətinə gəlirəm. Bəri başdan onu da qeyd edim ki, Qoca Xalidin bu kitabına mərhum həmkarımız İlham Abbasov “Böyük şairlərin “rəqibi” adlı gözəl bir ön söz yazıb və tərcüməçini az qala şeirlərin həmmüəllifi kimi ustalıqla səciyyələndirib. İlham yazıb ki, onun tərcümələrinin “alınmasının” sirri həm də orijinalın “poetik koduna” məhrəm olmasındadır: “Moskvada keçirdiyi illər Qoca Xalidin rus dili bilgisinin və mədəni səviyyəsinin, dünyagörüşünün daha da genişlənməsinə müsbət təsir göstərməklə yanaşı, onun Moskva və ümumən Rusiya ədəbi mühitinə daha dərindən bələd olmasına, orada tanınmasına, həm özü, həm də ədəbiyyatımız üçün yeni dostlar və tərcüməçilər tapmasına imkan yaratdı”.

Təsəvvür edin ki, Namizəd Moskvada oxuyarkən müəllimi Yuri Kuznetsov onun bədii çevirmələrindən məmnun qalıb və Ədəbiyyat İnstitutunun tarixində ilk dəfə olaraq, seminar rəhbəri öz tələbəsinin şeirlərini tərcümə edərək “Xatirə yağışı” adı ilə kitab halında nəşrinə də nail olub. Bu, həm də Q.Xalidin tərcümələrinə Y.Kuznetsovun cavab jesti idi.

Həmin rus şairinin dahi Nizami Gəncəvi haqqında yazdığı şeirə Qoca Xalidin tərcüməsində nəzər salaq:

**Baxır maddım-maddım boynunu burub,**
**Hamı fağırlaşır söz ölkəsində.**
**Nizami günəşlə yanaşı durub,**
**Hamını gizləyir öz kölgəsində.**

Yaxud Sergey Yesenindən tərcüməyə baxaq:

**Axşamüstü yorulub hey fınxıra-fınxıra,**
**Təpəli sahillərə səpələnir ilxılar.**




Həqiqətən də, orijinalların rus dilində yazıldığına adamın inanmağı gəlmir. Qoca Xalidin yaşadığı zamanla barışa bilməyən məşhur aktyor-şair, hit mahnılar müəllifi Vladimir Vısotskidən çevirmələri də xarakterikdir. Məsələn, onun həbsxana həyatı barədə yazdığı şeirdən bir bəndin tərcüməsi, görün, necə uğurlu alınıb:

**Dostlar, yenə uzatdılar vaxtımı,**
**Nə ağlayın, nə qaş-qabaq sallayın.**
**Yazı yazan qara yazıb baxtımı,**
**Heç olmasa, tez-tez məktub yollayın…**

Bəli, Bakıda, Moskvada qərar tuta bilməyən, öz şair şöhrəti ilə Kiçik Dəhnə kəndinə böyük başucalığı gətirən, orada hamının “Şair” deyə çağırdığı Qoca Xalidin ilk qələm təcrübələrindən yazılarına hopmuş kövşən iyi rus poeziyası nümunələrindən etdiyi tərcümələrə də hopub, onlardakı yasəmən ətri ilə uyuşaraq gözəl bir sənət rayihəsi yaradıb.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Bakı Beynəlxalq Film Müsabiqəsi başa çatdı





**Nizami Kino Mərkəzində XV Bakı Beynəlxalq Film Festivalının bağlanış mərasimi keçirilib. Tədbirdə festival müddətində nümayiş olunan filmlər mükafatlarla təltif olunublar.**

Ən yaxşı film nominasiyasında rejissor Rufat Rayın “Quyu”, ən yaxşı rejissor işinə görə Azər Quliyevin “Qırmızı planetin ikinci rəngi”, ən yaxşı ssenari üzrə İlkin Umarovun “Şam bağı”, ən yaxşı sənədli film kateqoriyasında Leylaxanım Qənbərlinin “Babamın evi” filmləri mükafata layiq görülüblər. Rejissor Nicat Qulamın ərsəyə gətirdiyi “Baba haqqı” sənədli ekran işi isə münsiflər heyətinin xüsusi mükafatını qazanıb.

Tələbə filmləri arasında rejissorlar Murad Allahverdiyev, Ruhulla Rəhimov, Fərid Ayvazov, İlahə Nurullayeva, Şahin Hüseynli, Tural Ələsgərli, Mirtalib Həsənov, Sevinc Quliyeva, Səadət Qurbanova və Sərxan Nəciyevin çəkdikləri “Qəfəs” filmi diploma layiq görüldü.

Beynəlxalq Debüt Bədii Film Müsabiqəsində qazaxıstanlı rejissor Asxat Kuçinçirekovun “Bauryna Salu” filmi ən yaxşı tammetrajlı bədii film nominasiyasında qalib olub. Tammetrajlı bədii film kateqoriyasında ən yaxşı rejissor işinə görə Baran Gündüzalpın “Rosinante”, ən yaxşı ssenariyə Şokir Xolikovun “Bazar günü”, ən yaxşı təsvir rejissoru işinə görə isə təsvir rejissoru Daniel Quliyevin və rejissor Emin Əfəndiyevin “Tək adamın monoloqu” filmləri mükafatlandırılıblar. Bu müsabiqədə münsiflər heyətinin xüsusi qeydinə görə, ən yaxşı tammetrajlı film nominasiyasında rusiyalı rejissor İra Basın “Balam” filmi seçilib.

Müsabiqənin qısametrajlı filmlər kateqoriyasının qalibləri siyahısında

ən yaxşı sənədli film xorvatiyalı rejissor Sara Jurinçikin “Valeriya”, ən yaxşı animasiya filmi fransalı rejissor Aleksey Evstigneevin “Atamın məktubları”, ən yaxşı film rejissoru işinə görə isə almaniyalı rejissorlar Oliver Şvabe və Kristian Bekkerin “Çuxur “ filmləri yer alır. Bu film kateqoriyasında münsiflər heyətinin xüsusi qeydinə görə isə iranlı rejissorlar Behzad Alavi və Süsən Salamat Çaqoşinin “Taksidermist” filmi seçilib.

Asiya istedadları müsabiqəsində ən yaxşı film nominasiyasında fələstinli rejissorlar Nur Ben Selem və Jülyen Menantunun “Fələstin adaları” filmi qalib olub. Münsiflər heyətinin xüsusi mükafatına isə iranlı rejissor Əlirza Şəkərinin “Bədən Satıcısı” filmi layiq görülüb. Bu nominasiyada yerli müsabiqənin qalibləri və münsiflər heyətinin qeydinə görə hindistanlı rejissor Puca Kaulun “Umeşin xronikası” və koreyalı rejissor Şinyu Kanın “Səsin arzusu” filmləri mükafatlandırılıblar. Festivalın ən yaxşı bədii filmi isə türkiyəli rejissor Cansu Baydarın ərsəyə gətirdiyi “Demək olar tamamilə yanlışdır” filmi olub.

Sonra beynəlxalq müsabiqəyə daxil olan filmlərdən kadrlar göstərilib.

Münsiflər heyətinin üzvü, özbək film ustası Eldar Yuldaşev XQ-yə festivalla bağlı təəsuratlarını danışdı: - Builki festival eyni anda həm qısametrajlı, tammetrajlı, animasiya və sənədli filmlərin nümayişi ilə yadda qaldı. Bu da hər il festivalın və burada iştirak edən yaradıcı insanların daha da təkmilləşməsi baxımından əhəmiyyətlidir. Azərbaycanda belə tədbirlərin yeni və müasir formada tamaşaçılara, iştirakçılara təqdim olunması çox önəmlidir. Çünki, texnologiya günbəgün inkişaf edir və onun film sənayesində istifadə edilməsi bu sahədə ciddi irəliləyişlərə yol açır. Özbəkistanda da bu sferada yeni texnoloji avadanlıqlardan istifadə olunur. Bu mənim çox xoşuma gəlir.

Bakı Beynəlxalq Qısa Filmlər Festivalının direktoru, prodüser Fehruz Şamıyev: – Builki festivalda yeniliklər çox oldu. Əvvəlki festivallarda qısametrajlı filmlər nümayiş olunurdusa, bu il tammetrajlı filmlərə də yer verildi. Bu filmlər həm də dünyanın mötəbər film festivallarında iştirak edib və mükafatlara layiq görülüb. Artıq bu cür filmləri izləməkdən ötrü dünyanın hər hansı yerinə getmək lazım deyil. Çünki, ölkəmizdə də bu imkan var. Festivalda qalib gələn hər kəsi təbrik edirəm.

Xatırladaq ki, festival çərçivəsində 5 gün müddətində ümumilikdə 26 ölkədən 79 film nümayiş olunub.

*Fidan SALMANOVA*
*XQ*

# Dilçilik İnstitutunun əməkdaşı BMT-nin sammitində

**ABŞ-nin Nyu-York şəhərində keçirilən BMT-nin Gələcək Sammitində (Summit of the Future) UNESCO-nun Elektoral qrupunun eksperti, Dünya dilləri atlası layihəsinin koordinatoru, AMEA-nın Nəsimi adina Dilçilik İnstitutunun Nitq mədəniyyəti və monitorinq şöbəsinin müdiri vəzifəsini icra edən, filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva-Nəbiyeva da iştirak edib.**

O, UNESCO-nun xarici platformasında Azərbaycan təmsilçisi kimi Assambleyanın gənclərlə bağlı sessiyalarında SDG, təhsildə dayanıqlılıq, elmdə süni intellekt kimi müxtəlif mövzularda çıxış edib. Vəfa Abdullayeva-Nəbiyeva Azərbaycan Respublikasının BMT yanındakı Daimi Nümayəndəliyində olub, "Divanü lüğat-it türk" əsərinin 3 cildliyini, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin tərtibçisi olduğu “Böyük Azərbaycan şairi Nizami Gəncəvi” (10 dildə), “Nizami Ganjavi almanac” əsərlərini, Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsi tərəfindən hazırlanmış “Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası”nı daimi nümayəndə Yaşar Əliyevə təqdim edib.



*XQ*

31 ildən sonra

# Cəbrayılda dərslər başlandı

**Dünən Cəbrayıl şəhərində yenidən istifadəyə verilmiş Mehdi Mehdizadə adına tam orta məktəbdə dərslər başlanıb. Açılış mərasimdə iştirak edən Elm və Təhsil nazirinin müavini Firudin Qurbanov, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin müdiri Fuad Bədəlov, məktəb kollektivini və valideynləri təbrik ediblər.**

Bu barədə “XQ”-yə Elm və Təhsil Nazirliyindən verilən məlumatda bildirilir ki, nazir müavini Firudin Qurbanov Qarabağda tədris prosesinin qısa zamanda bərpasını ölkəmizdə təhsilin inkişafına göstərilən yüksək diqqət və qayğı olduğunu söyləyib. O, məktəbin pedaqoji heyətinin bütünlüklə Cəbrayıl sakinlərindən ibarət olduğunu sevindirici hal kimi vurğulayaraq 2 il sonra 150 yaşı tamam olacaq təhsil ocağının ölkəmizin gələcəyi üçün layiqli nəsil yetişdirəcəyinə əminliyini ifadə edib.



Çıxış edənlər qeyd ediblər ki, bu gün özüldən qurulan Cəbrayılda bir sıra infrastruktur layihələri həyata keçirilir. İşğaldan azad olunan bölgələrin yenidən qurulması və dirçəlməsi üçün həyata keçirilən davamlı tədbirlər, xüsusən müasir standartlara cavab verən təhsil müəssisələrinin yaradılması gələcəyin zəruri təməlidir.

31 il əvvəl oxuduğu təhsil ocağına direktor kimi geri dönən Şəlalə Qasımlı yaradılan şəraitə görə cəbrayıllıların məmnunluğunu ifadə edib. O deyib ki, 960 şagird yerlik məktəbdə bu tədris ilində 133 şagird və hazırlıq qrupuna cəlb olunan 16 nəfər uşaqla 23 nəfərlik pedaqoji heyət məşğul olacaq. Ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Vahid kart tələbənin həyat açarı olacaq

**Dünyanın müxtəlif ölkələrində tələbələr vahid kartlardan istifadə edirlər. Oktyabrın 15-dən Azərbaycanda da tələbələrə “Tələbə plus” adlanan vahid tələbə kartının verilməsinə başlanacaq. Bu kartların ilkin olaraq 11 universitetin tələbələrinə təqdim ediləcək.**

Təhsilin İnkişafı Fondu İdarə Heyətinin sədri Elnur Nəsibov jurnalistlərə açıqlamasında həmin ali məktəblərin adlarını açıqlayıb. Buraya Azərbaycan Dövlət Pedaqoji, Azərbaycan Texniki, Bakı Mühəndislik, Sumqayıt Dövlət, Azərbaycan Dövlət Neft və Sənaye, Türkiyə–Azərbaycan, Fransa–Azərbaycan, Azərbaycan Memarlıq və İnşaat, Bakı Dövlət, Bakı Slavyan, Azərbaycan Dillər universitetləri daxildir. O bildirib ki, daha sonra regionlarda yerləşən ali təhsil müəssisələrinin tələbələri də prosesə cəlb ediləcəklər.

Veriləcək vahid tələbə kartından yeraltı və yerüstü nəqliyyatda, digər xidmətlərdə, eləcə də tələbə bileti kimi istifadə ediləcək. Bu sənədlə tələbələr müxtəlif ictimai iaşə obyektlərində, kafe və restoranlarda, kitab satışı yerlərində də endirimlərdən yararlana biləcəklər.

**ADPU-nun Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədov isə dedi ki,** kart çox olanda bəzən tələbə hansını isə unudur və yaxud bir kart digər yerdə işlək olmur. Lakin vahid tələbə kartı bütün imkanları bir kartda cəmləşdirəcək. Eyni zamanda, müxtəlif profilli şirkətlər də böyük tələbə kütləsinə birbaşa çıxış əldə edərək endirimlər təklif etməkdə maraqlı olacaqlar.




**Bəs vahid tələbə kartı nədir və hansı üstünlükləri olacaq? Bu sualın cavabında Təhsilin İnkişafı Fondunun ictimaiyyətlə əlaqələr üzrə aparıcı mütəxəssisi Nərgiz Qədirova “XQ”-yə bildiridi ki,** bu kartlar tələbələr üçün xüsusi endirimləri, müxtəlif sahə xidmətlərindən rahat istifadəni nəzərdə tutur. Vahid kart universitetə giriş-çıxışı təmin edəcək, debet bank kartı, eyni zamanda, tələbələrin təqaüd kartı olacaq. Tələbələr bütün bank əməliyyatlarını bu kart vasitəsilə rahat şəkildə yerinə yetirə biləcəklər. Gələcəkdə isə bu işləklik nəqliyyat, sosial və s. kimi xidmətlərə də şamil ediləcək sənəd mərhələli şəkildə I, II, III, IV kurs tələbələrinə, eləcə də magistraturanın I və II kurs tələbələrinə veriləcək. Buraya əyani, qiyabi, ödənişli və ödənişsiz əsaslarla təhsil alan bütün tələbələr daxildir.

Qeyd edək ki, Azərbaycanın 51 ali təhsil məktəbində 187 min, 54 orta ixtisas təhsili ocağında isə 60 minə yaxın tələbə təhsil alır və onlar gündəlik həyatlarında müxtəlif kartlardan istifadə edirlər. Tələbələrə bir kartda cəmləşdirəcək. Eyni zamanda, müxtəlif profilli şirkətlər də böyük tələbə kütləsinə birbaşa çıxış əldə edərək endirimlər təklif etməkdə maraqlı olacaqlar.

Vahid tələbə kartı ilə bağlı tələbələr arasında da sorğu apardıq. Onlar da bu kartların faydalı olacağını düşünürlər. **Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi Rəhman Qulubəyli bu kartın təhsil həyatında müsbət dəyişiklik yarada biləcəyini söylədi:** “Ehtiyacımı ödəmək üçün işləmək məcburiyyətindəyəm. Bu da dərslərimə yaxşı hazırlaşmağa mane olur. Amma bizim üçün güzəştlər olarsa, işləməyimə ehtiyac qalmır. İnanıram ki, tələbə kartı bizə endirim və güzətlər qazandıracaq”.

Nəticə olaraq, vahid tələbə kartı layihəsinin məqsədi tələbələrin rahatlığı və rifahının yaxşılaşdırılmasıdır. Bu kartla tələbələr həm də dərsdənkənar fəaliyyət zamanı xüsusi imtiyazlardan faydalana biləcəklər.

*R.FİKRƏTOĞLU*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# BMT çağdaş dünyanın tələblərindən geri qalır

**ABŞ BMT Baş Assambleyasının işində iştirak etmək Nyu-Yorka dəvət olunan Rusiya nümayəndə heyətinin bəzi üzvlərinə yenidən viza verməyib. Rusiya isə Vaşinqtonun bu hərəkətini qəbuledilməz hesab edir. Bu barədə dünən Rusiyanın xarici işlər nazirinin müavini Sergey Verşinin "Lenta.ru"ya müsahibəsində bildirib.**



Verşinin deyib: "BMT-nin mərkəzi orqanlarına evsahibliyi edən ölkənin üzv ölkələrə münasibətdə necə davranmalı olduğuna dair razılaşma və müddəalar mütəmadi olaraq pozulur, təəssüf ki, Vaşinqton bundan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışır. Bu, yolverilməzdir".

Verşinin bir sıra digər şəxslərlə yanaşı, Rusiya rəsmi nümayəndə heyətinin üzvü, Dövlət Dumasının komitə rəhbəri Leonid Slutskiyə də viza verilmədiyini təsdiqləyib.

Vaşinqton tərəfindən atılan bu cür addımlar, təbii ki, Rusiyanın Ukrayna ərazisində həyata keçirdiyi xüsusi hərbi əməliyyatla bağlıdır. Görünən budur ki, Rusiya və ABŞ arasında münasibətlərin kifayət qədər ciddi və təhlükəli şəkil alması təkcə ikitərəfli məsələlərdə deyil, qlobal miqyasda narahatlıqlar yaradır.

Məhz buna görədir ki, RF XİN başçısının müavini BMT-də ciddi islahatlara ehtiyac olduğu barədə iddialar irəli sürənlərin səsinə səs verməli olub. "Lenta.ru"ya müsahibəsində Rusiya diplomatı bu barədə də danışıb. Verşinin bəyan edib ki, hazırda əksər ölkələrin maraqlarını nəzərə almaqla, BMT-ni müasir şəraitə uyğunlaşdırmaq lazımdır. Qurumda islahatlar aparılmalıdır. Onun fikrincə, BMT islahatları çərçivəsində Afrika və Latın Amerikası ölkələrinin səsi nəzərə alınmalıdır. Əksər ölkələrin maraqlarına hörmət edilməlidir.

Xarici işlər nazirinin müavini əlavə edib ki, BMT-də islahatlara başlanması əslində "gecikmiş" məsələdir. Bununla bağlı artıq hökumətlərarası danışıqlar aparılır. Təşkilatın yeni reallıqlara uyğunlaşdırılması üçün konsensus lazımdır, çünki bu prosesdə səhvlər yolverilməzdir.

Bundan bir qədər əvvəl, sentyabrın 28-də Rusiyanın xarici işlər naziri Sergey Lavrov da qeyd etmişdi ki, BMT-nin Baş katibi Antonio Quterreş qlobal əməkdaşlığın yenidən qurulması təklifi ilə çıxış edib, ancaq Qərbin günahı üzündən bu ideya həyata keçirilmir. Lavrov qeyd edib ki, Qərbin özü uzun illərdən bəri digər ölkələrə təlqin etdiyi qloballaşma ilə bağlı bütün dəyərləri ayaqlar altına atıb. İndi də Qərb dövlətləri BMT-ni özlərinin eqoist maraqlarının təşviqi alətinə çevirmək istəyirlər.

***Paşa ƏMİRCANOV***
***XQ***

SAĞLAMLIQ



# Başın ağrıyır – bitki çayı iç...

**Nevropotoloqların fikrincə, bitki çayları baş ağrılarını aradan qaldırmaq üçün sakitləşdirici vasitə ola bilər. Bəzi otlar ümumi baş ağrısı yaradan gərginliyi, iltihabı və ya stresi azaltmağa kömək edən xüsusiyyətlərə malikdir. Mütəxəssislər bu əlamətləri aradan qaldıran 8 bitki çayını təqdim ediblər:**

1. Nanə çayı. – Əzələləri rahatlaşdıran və baş ağrılarını azalda bilən mentol ehtiva edir. O, həmçinin sinus təzyiqini azaldan soyuducu təsirə malikdir.

2. Zəncəfil çayı. – Bitki iltihab əleyhinə xüsusiyyətlərə malikdir və tez-tez baş ağrıları ilə əlaqəli olan miqren şiddətini və ürəkbulanmanı azaldır.

3. Çobanyastığı çayı. – Sakitləşdirici xüsusiyyətləri ilə tanınır və ümumi baş ağrısı yaradan narahatlığı azaldır. Həmçinin yüngül antiinflamatuar təsiri var.

4. Lavanda çayı. – Lavanda rahatlaşdırıcı və stresi aradan qaldıran xüsusiyyətlərə malikdir. Sakitləşdirici təsir stresdən qaynaqlanan baş ağrılarını azaltmağa və daha yaxşı yuxuya kömək edə bilər.

5. Söyüd qabığı çayı. – Adətən "təbiətin aspirini" adlandırılan söyüd qabığında ağrıkəsici və iltihab əleyhinə xüsusiyyətlərə malik salisin var.

6. Limon balzamı çayı. – Limon balzamı yüngül sakitləşdirici təsirə malikdir. Stres və narahatlığı aradan qaldırır, baş ağrıları üçün faydalı edir.

7. Rozmarin çayı. – Qan dövranını yaxşılaşdırır, bu da zəif qan axınından yaranan baş ağrılarını azaldır. O, həmçinin iltihabı azaltmağa kömək edir.

8. Mixək çayı. – Mixək iltihab əleyhinə və ağrı kəsici xüsusiyyətlərə malikdir, bu da baş ağrısını azaldır.

Mütəxəssislər təkrarlanan və ya şiddətli baş ağrısı olanda həkimlə məsləhətləşməyi tövsiyə edirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

# Qanlı savaşların məlhəm deposu

## *Yaralılar özünə gələn kimi döyüşə can atırdılar...*

**Vətən müharibəsi günlərində yaralı əsgərlərə yardım göstərən həkimlər arasında Elmi-Cərrahiyyə Mərkəzinin anestezioloq-reanimatoloqu, tibb üzrə fəlsəfə doktoru Kəmalə Namazova da olub. O, 2020-ci ilin yayında Tovuz hadisələrindən sonra döyüş bölgəsinə getmək üçün onlayn qeydiyyatdan keçsə də, haqq savaşının ilk günləri onu cəbhəyə aparmayıblar. Bir neçə dəfə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə müraciət edəndən sonra istəyinə çatıb. Oktyabrın 5-dən 6-na keçən gecə o, artıq ən ağır döyüşlərin getdiyi Füzuli rayonunun Böyük Bəhmənli kəndindəki Diaqnostika Mərkəzində çalışmağa başlayıb.**



***– Kəmalə xanım, ilk xəstənizi necə xatırlayırsınız?***

– Təxminən, axşam saat 10 radələrində xəstəxanaya çatdım. Hələ çantamı yerbəyer etməmişdim. Gördüm yaralı bir əsgər gözlərimin içinə baxır, bir əli ilə qolunun yuxarı hissəsindən tutmuşdu, barmaqlarının arasından qan sızırdı. O, üzünü mənə tutub soruşdu: –"Kəmalə xala, məni tanımadın?"

Çaşdım, özümü itirən kimi oldum. Yaralı əsgər özünü təqdim etdi: –"Mənəm, Nurlanam, Gülalının oğlu. Heç yatsam yuxuma da girməzdi ki, qapıbir qonşum, hər gün məhəllədə üz-üzə gəldiyim gənclə burada rastlaşa bilərəm və ilk xəstəm ola bilər. Müharibə belə qəribəliklərlə doludur..."

***– Cəbhə bölgəsində anestezioloq-reanimatoloq kimi işiniz nədən ibarət idi?***

– Belə bir deyim var: cərrahiyyə sənət, anesteziologiya elmdir. Əslində, heç bir əməliyyatı anestezioloqsuz aparmaq düzgün deyil. Bu, çox dəqiqlik və incəlik, eyni zamanda, yüksək məsuliyyət tələb edən bir işdir. Cərrah yaralını qəbul edə, hətta bəzən əməliyyat da apara bilər. Lakin elə prosedurlar var ki, anestezioloq-reanimatoloqsuz keçinmək mümkün deyil. Birdən eyni vaxtda 60–70 yaralı gətirirdilər.

Belə olanda seçim aparmalı olurduq. İlk növbədə, ən ağır vəziyyətdə olanları təcili əməliyyat stoluna götürürdük. Bəzən yaralılar xəstəxanaya çatana qədər onlarda ürək dayanması baş verirdi. Bir dəfə xəstəxanaya çatdırılan yaralıların içərisində kliniki ölüm keçirən bir əsgər var idi. O, mədəsində olanları qaytardığından qusuntu kütləsi nəfəs yoluna dolmuşdu. Əlimi əsgərin ağzına salaraq təmizlədim, təcili olaraq onu süni nəfəs aparatına qoşduq, ürəyini masaj etdim, digər lazımi tibbi prosedurları yerinə yetirərək, onu əməliyyat stoluna çıxardıq. Xoşbəxtlikdən həmin əsgər sağdır, yaşayır...

Bir deyil, iki deyil, çoxlu belə misallar çəkə bilərəm. Amputasiya edilən əsgərlər var idi ki, döyüş meydanına qayıtmaq üçün bizdən protez tələb edirdi. Eləsi də var idi ki, ayağına şina qoyulmasına baxmayaraq, döyüşə getmək istəyirdi. Heç yadımdan çıxmaz, Asim Quliyev adlı bir döyüşçünün iki ayağı sınmışdı, lakin həmin vəziyyətdə 4 gün ac-susuz neytral zonadan sürünərək yol gəlmişdi.

***– Həm dəhşətdir... həm də fədakarlıq nümunəsidir...***

– Yaralı döyüşçülər arasında yüksək partlayışdan barotravma alanlar çoxluq təşkil edirdi. Onlar yüksək təzyiqlə ətrafa çırpıldıqlarından görmə, eşitmə, kəllə-beyin travmaları alır, hematoma baş verir, hətta daxili qanaxmalar olurdu. Həmin vəziyyətdə olanlara dərhal tibbi yardım göstərmək, ağrıkəsici zərdablar vurmaq lazım idi. Bəzən hər şeyi dəqiqələr, saniyələr həll edirdi. Bir an gecikmək bir həyatı itirməyə bərabər idi...

Gecələr qaranlıqda işləmək məcburiyyətində idik, çünki düşmənlər işıq gələn yerləri atəşə tuturdular. Gecələr xəstəxananın da işıqları söndürülürdü. Süni tənəffüs aparatları, digər tibbi avadanlıqlar elektrikə qoşulu vəziyyətdə olsa da, reanimasiya şöbəsində telefon işığının altında işləyirdik.

***– Bəs dərman təchizatı nə səviyyədə idi?***

– İşğaldan azad olunmuş zonadan düşmənlərə məxsus tibbi çanta gətirmişdilər, içərisində ancaq yod və çürümüş bintdən başqa heç nə yox idi. Bizdə isə bu sahədə vəziyyət son dərəcədə yüksək idi. Hər şeylə tam təmin olunurduq: dərman, qan, plazma... Elə döyüşçülər olurdu ki, ona üç paket, yəni 900 milliqram qan, çoxlu plazma vururduq. Tibbi cəhətdən hər şey yüksək səviyyədə idi, heç nədən korluq çəkmirdik. Buna baxmayaraq, bəzən günlərlə ac-susuz qalırdıq. Ona görə yox ki, yemək yox idi, əvvəla, yaralıların əlindən baş qaşımağa macal olmurdu.

Həm də əsgər ön cəbhədə ölümlə üzbəüz döyüşür, sənin yeyib-içdiyin boğazından necə keçə bilər? Damar cərrahı İlqar Namazov səhər saat 9-da əməliyyat otağına girirdi, arada çıxıb əlcəyini dəyişib növbəti əməliyyata başlayırdı. Onun gün ərzində bir qurtum su içməyə də vaxtı yox idi. Gecə yarısına kimi fasiləsiz əməliyyat aparır, döyüşçülərin həyatını xilas edirdi. Məhz həmin xəstəxanada Bakıdan ezam olunmuş anestezioloq Fazil Cəniyev, damar cərrahları İlham Budaqov, Rasim Quliyev kimi həkimlərin fədakarlığı sayəsində neçə-neçə əsgərin ayağı amputasiya olunmaqdan xilas oldu.

***– 2020-ci ilin payızından yadınızda daha nələr qalıb?***

– Xəstəxananın altında zirzəmi var idi və hərbi dövrün qaydalarına uyğun olaraq atışma vaxtı ora düşməli idik. Bir dəfə çox güclü atışma başladı, necə oldusa mən zirzəmiyə düşmək əvəzinə yuxarı mərtəbədəki reanimasiya şöbəsinə qalxdım. Ə.D.Məlikov adına 6 saylı birləşmiş şəhər xəstəxanasında işləyən reanimatoloq Elşən Əliyev var idi, ondan soruşdum: "Həkim, siz zirzəmiyə düşmürsünüz"? Süni tənəffüs aparatına qoşulmuş yaralı əsgərləri göstərib dedi ki, bunları qoyub hara düşüm? Bax belə fədakarlıq göstərən həkimlər var idi...

Diaqnostika Mərkəzinə giriş var idi. Təcili yardım maşınları gələndə hamımız xəstəxananın pəncərələrindən baxırdıq. İki yoldan biri xəstəxanaya, digəri meyitxanaya gedirdi. Cəbhədən gələn maşın xəstəxanaya tərəf dönəndə hamımız sevinirdik ki, şükür sənə, ilahi, yaralı gəlir. Mən bir dəfə o biri yola dönüb şəhid çadırına getdim. Çox dəhşətli, xatırlamaq, danışmaq çətin olan mənzərə ilə üzləşdim...

***Süleyman QARADAĞLI***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Rəssamlıq Akademiyası**

*Kafedralar üzrə boş olan kafedra müdiri vəzifəsini tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

- Heykəltaraşlıq
- Memarlıq

Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına yazılmış ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Müvafiq struktur bölmənin inkişafı ilə bağlı kafedra müdirinin platforması.

**Qeyd**-müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər.

Ünvan: Bakı, H.Əliyev prospekti 58.

***REKTORLUQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki "Bibiheybət" GTZ üçün boya qatqılarının satın alınması məqsədilə*

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il oktyabrın 15-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.

Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

*2024- cü il üzrə planlaşdırılmış infrastruktur, təmir-tikinti işləri və Ələt inzibati binasının idarəetmə mərkəzində infrastrukturun təkmilləşdirilməsi xidmətlərinin satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 30 oktyabr 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

"Səbail Mebel" ASC səhmdarlarının nəzərinə!

12 noyabr 2024-cü il saat 10.30-da "Səbail Mebel" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2021-2023-cü illərin maliyyə hesabatlarının təsdiq edilməsi.

**2.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə əlaqədar sənədlərlə hər həftənin iş günləri, 050-370-71-17 nömrəli telefonla əlaqə saxlayaraq tanış ola bilərlər.

Əlaqə telefonu- 050–370–71–17.

Ünvan- Bakı şəhəri, Səbail rayonu, Ə.Əlizadə küçəsi 6/8.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 222 (30626) 10 oktyabr 2024-cü il, cümə axşamı

## İdman xəbərləri

### İsveçdə qızıl medal

**Qılıncoynatmanın şpaqa növü üzrə yeniyetmələrdən ibarət Azərbaycan millisinin üzvü Vahab Fətullayev beynəlxalq turnirdə uğurla çıxış edib.**



İdmançımız İsveçin Örebro şəhərində keçirilən "Örebro Masters – Nordic Championships" turnirində fərqlənib. Ölkəmizlə yanaşı, İsveç, Norveç, Danimarka, Litva, Estoniya, Kanada, İtaliya, Finlandiya və Yaponiyadan 100-ə yaxın iştirakçının qatıldığı yarışda qrup mərhələsini 5 qələbə ilə başa vuran Vahab 17 yaşadək oğlanların fərdi mübarizəsində pley-offa yüksəlib.

Finala gedən yolda Norveç, Danimarka, Estoniya və İsveçi təmsil edən rəqiblərinə qalib gələn təmsilçimiz həlledici qarşılaşmada İsveç idmançısı Filip Zimmermana 15:10 hesabı ilə qalib gələrək qızıl medal qazanıb.

### Güləşçimiz 3-cü yeri tutub

**Azərbaycanın yunan-Roma güləşçisi Kamran Rəcəbli (72 kq) Qazaxıstanın Çimkənd şəhərində keçirilən beynəlxalq turnirdə bürünc medal qazanıb.**



Akademik Mərdan Saparbayevin xatirəsinə həsr olunan ənənəvi yarışda məşqçi Akif Əliyevin rəhbərliyi altında çıxış edən U-20 millimizin digər 3 üzvü isə mükafatçılar sırasına düşə bilməyib.

Yarışda Azərbaycan və Qazaxıstanla yanaşı, Rusiya, Özbəkistan, Qırğızıstan, Tacikistan və Çin güləşçiləri də mübarizə aparıblar.

*L.AZAD*
*XQ*

### Yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və axşam bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 15-19°, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 25-30, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Maraq dünyamız

# Yaxşı ki, Arktikada buzlaqlar əriməyə o qədər də tələsmir...

**Söhbət ondan gedir ki, 4-5 il əvvəl bu məzmunda verilən proqnozların bəziləri indi təkzib edilir. Bir neçəsinin isə min illər sonra reallaşacağı söylənilir. Doğrudur, iqlim dəyişməsi dünyanın başı üstündə Damokl qılıncı kimi dayanıb. Bu məsələ ən mötəbər beynəlxalq təşkilatların gündəliyindən düşmür. Hətta heç bir beynəlxalq təşkilata dəxli olmayan ayrı-ayrı alimləri də ciddi şəkildə narahat edir.**

Yadımdadır, 2019-cu ildə Danimarkanın mötəbər elmi ekspedisiyasında təmsil olunan alimlər Şimali Avropanın yuxusuna "haram qatan " bəyanat yaymışdılar. (Yaxşı ki, sonradan o proqnoz yalan oldu). Onların 2019-cu ilin iyun ayında Qrenlandiya yaxınlığında çəkdiyi bir fotoşəkil bütün dünyada yayılmışdı. Həmin fotoda ərimiş buzlaqlardan yaranmış suda dizə qədər bataraq tədqiqatçılarla kirşə çəkən xizək itləri görünürdü.



Təbii ki, Arktika buzlaqlarının əriməsinin əsas səbəbi iqlim dəyişikliyidir. Atmosferə buraxılan çoxlu miqdarda antropogen emissiyalar səbəbindən hava qızır və qlobal istiləşmə başlayır. Bununla belə, planetin bütün hissələri buzları eyni sürətlə əritmir. Aparıcı elmi mərkəzlərin iqlimşünasları müəyyən ediblər ki, Arktikanın Rusiya hissəsində buzlar Amerika hissəsinə nisbətən daha tez əriyir. Şimal Buzlu Okeanına göndərilən ekspedisiya və peyk məlumatlarının təhlili elm adamlarına bu faktın səbəblərini öyrənmək imkanı verib.

Moskva Dövlət Universitetinin, Hidrometeorologiya Mərkəzinin və Rusiya Elmlər Akademiyasının Atmosfer Fizikası İnstitutunun klimatoloqu Mixail Varentsov izah edir ki, bu balanssızlıq Arktikada hava kütlələrinin sirkulyasiyasının xüsusiyyətləri ilə əlaqədardır. Belə ki, sentyabrın ikinci yarısında bu okean Günəşdən istiliyi aktiv şəkildə toplayır. Ancaq soyuq hava qütbdən və ya Qrenlandiyadan gəlirsə, istiliyin bir hissəsi itir. Və ya əksinə – qitədən isti hava axını okeanın istiləşməsini artırır.

Bəzi alimlərin fikrincə, qlobal istiləşmə ilə yanaşı, müxtəlif regionların iqliminə uzunmüddətli hava dalğalanmaları da təsir edir. Bu amillər həm birbaşa təsir göstərə bilər, həm də atmosferdə istixana qazlarının konsentrasiyasının artmasının nəticələrini gücləndirə bilər ki, bu da daim Arktika buzlarının əriməsinə səbəb olur.

Alimlərin müşahidəsində deyilir ki, son 2–3 il ərzində ABŞ-nin şimalında və Kanadanın cənubunda güclü qar yağması və çox aşağı temperaturla anomal soyuq qışlar yaşanıb. Eyni şey Şimali Çin və Yaponiyada da müşahidə olunub. Şimali Amerikada bunun Çukçi və Şərqi Sibir dənizlərində, Asiyada isə Kara və Barents dənizlərində (Şimal Buzlu okeanın ən ucqar dənizləri) buzların əriməsi ilə əlaqəli olduğu əsas kimi göstərilir.

Hər halda Arktika buzlaqlarının əriməsi nəticəsində dünyanın xeyli hissəsinin su altında qalacağını söyləyənlər hələ də öz sözlərinin üstündə dururlar. Şimali Avropanı, Rusiyanın xeyli ərazisini, Pribaltikanı, Hindistan və Çinin bir hissəsini ciddi təhlükə gözlədiyini proqnozlaşdıranlar Xəzər və Qara dəniz hövzələrinin də həmin təsirdən kənarda qalmayacağını deyirlər. Elm adamlarının fikrincə, Arktikadan gələn təhlükədən ən az zərər şəkən Afrika ölkələri olacaq.

Bütün bunlar öz yerində. Dünən "Xakasiya İnform" agentliyində daha yeni olan bir materiala rast gəldim. Orada deyilir ki, Arktika buzlaqlarının əriməsi beş min il çəkəcək. Bu isə o deməkdir ki, həmin təhlükənin qarşısını almaq istəyən dünya alimlərinin vaxtı hələ çoxdur.

*İ.QAÇAYEV*

# Uşaqlara voleybolu necə sevdirək?

**Dünən Azərbaycan Voleybol Federasiyasının (AVF) 2024–2025-ci illər mövsümünün başlanması ilə bağlı keçirdiyi tədbirdə bu idman növünün inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən və gələcək planlardan söhbət açıldı.**




Mərasimdə çıxış edən AVF-nin prezidenti Şahin Bağırov federasiyanın fəaliyyəti ilə bağlı geniş məlumat verdi, həmçinin ölkə çempionatının son mövsümünün yekunlarından danışdı. Bildirildi ki, regionlarda voleybola maraq xeyli artıb. Uşaq voleybolunun inkişafı istiqamətində həyata keçirilən layihələrin gələcəkdə də davam etdiriləcəyi vurğulandı. Qeyd edildi ki, əsas hədəf kütləvilik və populyarlıqdır. Uşaqlara voleybolu sevdirmək üçün onun gözəl tərəfləri göstərilməlidir. Kütləviliyin təmini istiqamətində görülən işlərdən biri də bu idman növünün regionlarda inkişaf etdirməkdir:

– Rayonlarda voleybolun inkişafı ilə bağlı işlər davam edir. Məqsəd yerlərdə gənc və perspektivli oyunçuların seçilərək milli komandalara cəlb olunmasıdır. Bunun üçün konkret planlarımız var. Bakıdan kənarda yarışlar keçirməyi planlaşdırırıq. Təbii ki, bu hədəflərin həyata keçirilməsi üçün infrastrukturun genişləndirilməsi də vacibdir. Gələcəkdə də bu sahə diqqətdə saxlanılacaq.

Klubların fəaliyyətinin təkmilləşdirildiyini deyən federasiya rəhbəri çimərlik voleybolunun inkişafını da prioritet məsələ kimi qarşıya qoyduqlarını bildirdi. Azərbaycanda voleybol üzrə I Liqanın yaradılacağını bildirən Ş.Bağırov vurğuladı ki, millinin səviyyəsinin yüksəldilməsi ilə bağlı işlər də davam edir:

– Əsas hədəf yerlərdə voleybolçuların yetişdirilməsidir. Klublara xaricdən oyunçuların gətirilməsinə icazə versək də, burada, limit müəyyən etmişik. Diqqəti, əsasən yerli idmançıların sayının artırılmasına yönəldirik. Aşağı yaş qruplarından ibarət komandalardan da voleybolçuların cəlb edilməsini planlaşdırırıq. Liqada klubların və idmançıların sayının artırılması istiqamətində də tədbirlər görüləcək. Bir neçə gün əvvəl azarkeşlər klubu yaradılıb. Bu hərəkatın genişlənməsi üçün də tədbirlər görülür. Onlar çempionatlarda iştirak edəcəklər.

AVF-nin vitse-prezidenti və qadınlardan ibarət milli komandanın baş məşqçisi Faiq Qarayev son vaxtlar klublarda fəaliyyətlərini gücləndirməyə önəm verdiklərini vurğuladı. Qeyd etdi ki, indi avrokuboklar üçün hədəf müəyyənləşdirmək vacibdir.

Görüşdə ötən mövsümün yekunlarına və keçirilən tədbirlərə həsr olunmuş videoçarxlar nümayiş etdirildi.

Sonra qadınlar və kişilər arasında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil edilən ölkə kuboku və Yüksək Liqa yarışlarının 2024/2025 mövsümü üçün püşkü atıldı.

*Leyla QURBANOVA,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*




### Kimya üzrə Nobel mükafatçıları

**Oktyabrın 9-da 2024-cü il üzrə kimya sahəsində Nobel mükafatına layiq görülən alimlərin adları açıqlanıb. Nobel Komitəsi Devid Beyker (ABŞ, Vaşinqton Universiteti), Demis Hassabis (Böyük Britaniya, Google DeepMind tədqiqat qrupu) və Con Camperin (Böyük Britaniya, Google DeepMind tədqiqat qrupu) 2024-cü il üzrə kimya sahəsində Nobel mükafatına layiq görüldüklərini elan edib.**

Məlumatda bildirilir ki, Devid Beyker "hesablamalı zülal dizaynı", Demis Hassabis və Con Camper "zülal strukturunun proqnozlaşdırılması" üzrə tədqiqatlara görə bu ali mükafata layiq görülüblər.

Xəbərdə qeyd olunur ki, Devid Beyker, demək olar ki, mümkün olmayanı etməyi bacarıb – tamamilə yeni zülal növləri yaradıb. Demis Hassabis və Con Camper isə mürəkkəb zülal strukturlarının proqnozlaşdırılması üzrə süni intellekt modeli hazırlayıblar.

*XQ*

### Sumqayıtda qanvermə aksiyası

**Sumqayıt Tibb Mərkəzinin (STM), Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı və Respublika Qan Bankının dəstəyi ilə iki gün davam edən qanvermə aksiyasına yekun vurulub.**

Mərkəzdən mediaya bildirilib ki, artıq ənənə halını alan bu nəcib aksiya STM-nin Təcili Tibbi Yardım Xəstəxanasında keçirilib. Mərkəzin rəhbərliyi, struktur bölmə rəhbərləri də daxil olmaqla, könüllülərin də qatıldığı tədbirdə 250-dən çox donor qan verib.

Xüsusi tibb briqadasının həkim-hematoloqları tərəfindən donorların sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra onlardan qan götürülüb.

Tədarük olunan qan və ondan hazırlanan preparatlardan talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən pasiyentlərin, eləcə də qana ehtiyacı olan insanların müalicəsində istifadə ediləcək.

*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

3 saylı şəhər poliklinikasının kollektivi poliklinikanın baş həkimi Sevda İskəndərovaya bibisi, Əməkdar həkim, səhiyyə təşkilatçısı

**TƏRİFƏ İSKƏNDƏROVANIN**

vəfatından kədərləndiyini bildirir, yaxınlarına, doğmalarına dərin hüzünlə baş sağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2317
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00